BEU
BAKU ENGINEERING UNIVERSITY

ISSN 2521-6333

*Volume 6*
*Number 2*

2022

# Journal of Baku Engineering University

## PHILOLOGY *and* PEDAGOGY

Journal is published twice a year
Number-1. June, Number-2. December

*An International Journal*

http://journal.beu.edu.az

**Founder**

*Havar Mammadov*

**Editor-in-chief**

*Akif Huseynli*

**Co - Editors**

*Kanan Bashirov*

**Editorial board**

*Aida Gasimova (Azerbaijan, Baku State University)*
*Atraba Gul (Azerbaijan, Baku Engineering University*
*Casarat Valehov (Ministry of Education of the Republic of Azerbaijan)*
*Elman Guliyev (Azerbaijan, Azerbaijan State Pedagogical University)*
*Emin Agayev (Azerbaijan, Baku Engineering University)*
*Islam Huseynov (Academy of the State Customs Committee)*
*M.Bahaddin Acat (Turkey, Kirikkale University)*
*Minakhanim Tekleli (Azerbaijan, Azerbaijan State Pedagogical University)*
*Maharram Gasimli (Azerbaijan, National Academy of Science)*
*Niyammaddin Hashimov (Azerbaijan, Baku Engineering University)*
*Seyran Gayibov (Azerbaijan, Baku Engineering University)*
*Ruslan Abdullayev (Azerbaijan, National Academy of Science)*
*Tarana Haciyeva (Azerbaijan, Baku Engineering University)*

**International Advisory board**

*Abdul Aziz Abdul Hafis El Khouli (Egupt, Cairo University)*
*Dogan Kaya (Turkey, Cumhuriyet University)*
*Gholam Reza Sabri Tabrizi (London, Edinburg Uni. King College)*
*Isa Habibbeyli (Azerbaijan, National Academy of Science)*
*Nazan Bekiroglu (Turkey, Karadeniz Technical University)*
*Nazim Hikmet Polat (Turkey, Gazi University)*
*Nizami Cafarov (Azerbaijan, Baku State University)*
*Sheref Boyraz (Turkey, Cumhuriyet University)*
*Yavuz Akpinar (Turkey, Ege University)*
*Celil Nagiyev (Azerbaijan, Baku State University)*

**Executive Editors**

*Shafag Alizade*

**Design**

*Ilham Aliyev*

**Contact address**

*Journal of Baku Engineering University*
*AZ0102, Khirdalan city, Hasan Aliyev str. 120, Absheron, Baku, Azerbaijan*
***Tel:*** *00 994 12 - 349 99 95* ***Fax:*** *00 994 12 349-99-90/91*

**e-mail:** *jr-philo.ped@beu.edu.az*
**web:** *http://journal.beu.edu.az*
**facebook:** *Journal Of Baku Engineering University*

*Copyright* © Baku Engineering University

ISSN 2521-6333

ISSN 2521-6333

# Journal of
# Baku Engineering University

*Philology and Pedagogy*

Baku - AZERBAIJAN

# Journal of Baku Engineering University

*Philology and Pedagogy*

**2022. Volume 6, Number 2**

## CONTENTS

**DİL MÜHƏNDİSLİYİ**
*Tərana Hacıyeva* ________ *67*

**"BİZ GÜNDÜZLƏR SULTAN, GECƏLƏR DOSTUQ" ORTA ƏSR ZİYALISI VƏ HAKİM DAİRƏLƏR (ƏBU HAYYƏN ƏT-TAUHİDİ ÖRNƏYİ)**
*Aida Qasımova* ________ *76*

**ERKƏN YAŞDA İKİNCİ DİL OLARAQ İNGİLİS DİLİ ÖYRƏNMƏNİN FAYDALARI**
*Nərmin Əlizadə* ________ *89*

**TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASI CƏMİYYƏTİN İNKİŞAFININ ƏSAS FAKTORU KİMİ**
*Nərgiz İsmayılova* ________ *95*

**İNGİLİS DİLİNDƏ İSMİN DƏYİŞƏN VƏ DƏYİŞMƏYƏN ŞƏKİLÇİLİ MODELLƏRİNİN TƏSVİRİ VƏ TƏDRİSİ**
*Pərvinə Kərimova* ________ *103*

**THE EFFECT OF EDUCATION IN PRISON CONDITION**
*Gülşən Əliyeva* ________ *110*

**DİLİN QRAFİK SİSTEMİNDƏ DURĞU İŞARƏLƏRİNİN ROLU**
*Gülnar Əsgərova* ________ *120*

**PEDAGOGICAL AND PSYCHOLOGICAL OPPORTUNITIES OF ICT IN EDUCATION**
*Gülnar Həsənova* ________ *124*

**İDEALLAŞDIRILMIŞ KOQNİTİV MODELLƏRİN QNESEOLOJİ MAHİYYƏTİ**
*Səidə Əhmədova* ________ *136*

**TƏHSİLALANLARIN AKADEMİK TƏLİM NƏTİCƏLƏRİNƏ TƏSİR EDƏN FAKTORLARIN TƏHLİLİ**
*Aysel Yaqubova* ________ *145*

**MÜASİR TƏHSİL SİSTEMİNDƏ ESTETİK TƏRBİYƏ PROSESİSİNİN FORMALAŞDIRILMASI VƏ TƏHLİLİ**
*Ağayeva E.A* ________ *154*

**CLASSROOM MANAGEMENT AND THE EFFECTS OF POSITIVE CLASSROOM CLIMATE**
*Kamandar Teymurzada* ________ *160*

**NİZAMİ GƏNCƏVİNİN "YEDDİ GÖZƏL" MƏSNƏVİSİNDƏ BƏHRAM OBRAZININ SİMASINDA "OV HAMİSİ" KULTUNUN TƏZAHÜRÜ**
*Ülkər Baxşiyeva* ________ *166*

**XARİCİ DİLDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN ORTA MƏKTƏB ŞAGİRDLƏRİNDƏ FORMALAŞDIRILMASI YOLLARI**
*Fəridə Şərifova* ________ *171*

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY*

*2022. Volume 6, Number 2* *Pages 67-75*

***UOT:81***

# DİL MÜHƏNDİSLİYİ

**TƏRANƏ HACIYEVA**

*BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ*

*tehaciyeva@beu.edu.az*

**XÜLASƏ**

Dilin ictimai hadisə sayılması faktı onun dəqiq prinsiplərə əsaslanmış təbii, elmi, fəlsəfi və riyazi qanunauyğuluqlara malik olmasından xəbər verir. Elmin, texnikanın sürətli tərəqqisi, süni intellektin dinamik inkişafı milli-mənəvi dəyər və həyati zərurət sayılan dilə, onun kommunikativ funksiyasına dildaxili və dilxarici amillərin təsirini etibarlı və sistemli şəkildə tənzimləyən elmi anlayışların və sahələrin yaranmasını reallaşdırır. Qeyd olunan qanunauyğunluqların, o cümlədən, dilin daxili qanunlarının və dilə dilxarici amillərin təsirinin öyrənilməsinə göstərilən elmi maraq dilçiliklə digər elmlərin vəhdətindən törənən yeni elm sahələrinin yaranmasını labüdləşdirir. Bu baxımdan aktuallığı ilə maraq doğuran dil mühəndisliyinin də elmi və ictimai zərurətdən yarandığını demək mümkündür. Məqalədə dilin tətbiqi məsələlərini əhatə edən dil mühəndisliyi, onun mahiyyət və istiqamətləri, nəzəri və təcrübi problemləri araşdırılır, dil mühəndisliyinin xüsusi proqramlaşdırma, model, yaxud menecmentlik kimi qəbul edilməsinə münasibət bildirilir, onun dil siyasəti, dil quruculuğu ilə əlaqəsi, kompüter dilçiliyi, korpus dilçiliyi və digər sahələrlə kəsişmə nöqtələri, fərqi və ümumi cəhətləri izah edilir. Tədqiqatda dil mühəndisliyinin riyazi dilçiliklə, sosiolinqvistika ilə eyniləşdirilməsi, eyni zamanda dil planlaşdırılması, dilin tədrisinin, tərcümənin strategiya və taktikası kimi başa düşülməsi, dil normalarının sadələşdirilməsi və ya standartlaşdırma prosesi sayılması, dilin tətbiqinə məqsədli müdaxilə kimi səciyyələndirilməsi kimi müddəalar elmi təhlil süzgəcindən keçirilir, sadalanan problemlərə nəzəri və ptaktik təhlil sayəsində ayrı-ayrılıqda münasibət bildirilir, dil mühəndisliyi anlayışının elmi səlahiyyət və sərhədləri müəyyənləşdirilir. Təqdim olunan məqalədə dil mühəndisliyinin elmi anlayış və ya dilçiliyin bir bölməsi kimi səciyyələnməsi, yaxud fənlərarası elm sahəsi olması sualı da öz cavabını tapır.

**Açar sözlər:** *dilin tətbiqi, dil mühəndisliyi, kompüter dilçiliyi, korpus dilçiliyi, dil siyasəti, dil normaları, standartlaş-dırma.*

## LANGUAGE ENGINEERING

**ABSTRACT**

The fact that language is a social phenomenon indicates having natural, scientific,philosophical and mathematical regularities based on precise principles. The quick progress of science and technology, the dynamic development of artificial intelligence, the emergence of scientific concepts and fields that regulate the influence of intra-linguistic and extra-linguistic factors on the language which is considered a national-moral value and vital necessity, and its communicative function reliably and systematically. The scientific interest in the study of the mentioned regularities, including the internal laws of the language and the influence of extralinguistic factors on the language, make the creation of new fields of science in linguistics inevitable. From this point of view, it is possible to say that Language Engineering, which is considered as one of the actual issues of today, arose out of scientific and social necessity. Language engineering, its essence and directions, theoretical and practical problems as the actual application issues of language are examined, the attitude towards language engineering as special programming, modeling, or management relationship are reported, its relationship with languag policy, language construction, computer linguistics, corpus linguistics and points of intersection with other fields, differences and common aspects are investigated in the article. Identification Language engineering with mathematical linguistics, sociolinguistics, language planning, understanding the language teaching as a strategy and tactics of translation, simplification of language norms or standardization process, and its characterization as a purposeful intervention in language application are filtered through scientific analysis, the theoretical and practical analysis of the listed problems are stated separately, the scientific authority and boundaries of the concept of language engineering are determined In the research. Characterizationthe language engineering as a scientific concept or a branch of linguistics, or whether it is an interdisciplinary field of science also finds its answer In the presented article.

**Keywords:** *application of the language, language engineering, computational linguistics,corpus linguistics, language policy, language norms, standardization*

**ЯЗЫКОВАЯ ИНЖЕНЕРИЯ**

**РЕЗЮМЕ**

Статья посвящена на тему «Языковая инженерия». В статье отмечается, что язык является социальным явлением и этот фактор глубоко влияет на внутренние и внешние закономерности языка. В результате процесса влияния научно-технического прогресса и динамического развития искусственного интеллекта на язык возникают новые области языкознания или междисциплинарные науки в пересечение лингвистики и других наук. С этой точки зрения, можно сказать, что возникновение языковой инженерии является научной реальностью современного академического общества. В статье анализируются научный статус языковой инженерии, направления внедрения языка и языковой инженерии рассматриваются схожие и различные свойства языковой инженерии и программирования языка, компьютерной, корпусной и математической лингвистики, языковой политики, языковых норм, стандартизации языка, лингводидактики, методики и стратегии преподавания, изучения языков и перевода. В данной научной работе определяются сущность и основные направления языковой инженерии, анализируются теоретические и практические аспекты данного понятия. В статье разъясняется семантическое значение и научный объём термина языковой инженерии.

***Ключевые слова:*** *внедрение языка, языковая инженерия, компьютерная лингвистика, корпусное языкозна-ние, языковая политика, языковые нормы, стандартизация.*

## GİRİŞ

**Tədqiqatın aktuallığı.** Akademik cəmiyyətdə dil mühəndisliyi barədə kifayət qədər sistemli, elmi prinsip və təsnifata söykənmiş yetərincə fikir və məlumatın olmaması onun ayrıca bir elmi sahəsi kimi tanınaraq qəbul edilməsində müəyyən çətinliklər törədir. Bəzən düzgün olmayaraq, mühəndisliyin yalnız texnika və tikinti sahələri ilə əlaqələndirilməsi faktı elmi ictimaiyyətdə bu sahənin humanitar elmlər bölməsinə daxil olan, inşaat ilə əlaqəsi olmayan, texnika ilə xüsusi vəhdət yaratmayan dilçiliklə hər hansı bir bağlılığının mümkün olmaması kimi yanlış təəssürat yaradır. Halbuki cəmiyyətin və elmin istənilən sahəsindəki tətbiq prosesi həmin sahə mühəndisliyini reallaşdırır. Nominativ və kommunikativ funksiyalara malik olan dil ümumi anlayış kimi nəzəri əsaslı olsa da, ondan xüsusi məqsədlərlə istifadə dilin tətbiqi məsələlərini yaradır. Dilin tətbiqi məsələlərinin həyata keçirilmə mexanizmi elə dil mühəndisliyidir və bu məsələ elm və texnikanın sürətli inkişafı ilə səciyyələnən dövrümüzün ən aktual problemlərindəndir. Məlumdur ki, elmi-texniki tərəqqi milli dillərdən yan keçmir, əksinə texnika, süni intellekt və dil, proqramlaşdırma, dil normalarına, standartlaşdırma kimi məsələlərə müasir elmi yanaşmanı aktuallaşdırır.

**Tədqiqatın yeniliyi.** Dil mühəndisliyi, onun sərhəd və elmi səlahiyyəti ilk dəfə bu tədqiqatda müəyyənləşdirilir, nəzəri və praktik cəhətdən izah edilir, onun əhatə etdiyi problem və məsələlər sistemli şəkildə araşdırılır.

**Tədqiqatın metodu.** Məqalə empirik, təsviri, analitik təhlil, iyerarxik təhlil (AHP) metodlarından istifadə etməklə aparılıb.

**Tədqiqatin məqsədi və vəzifələri.** Təqdim olunan məqalənin məqsədi dil mühəndisliyinin ayrıca elm sahəsi olmasını izah etmək və bu qənaəti dil mühəndisliyinin nəzəri, tətbiqi aspektlərini reallaşdıran problemlərin elmi prinsip və təsnifat əsasında şərh etməklə əsaslandırmaqdır. Tədqiqatın məqsədinə nail olmaq üçün dil mühəndisliyinin nəzəri və tətbiqi aspektini müəyyənləşdirən dil siyasətinin, dil şəraitinin şərhləri, dillərin tədrisini optimallaşdıran strateji, linqvodidaktik müddəalar, tərcümə nəzəriyyəsi, dil quruculuğu, dil normalarının izahı, standartlaşdırma məsələləri, psixolinqvistik, neyrolinqvistik və müvafiq digər proqramların həyata keçirilməsini tənzimləyən texniki avadanlıqlardan istifadə, dillərin tədrisini optimallaşdıran taktiki məsələlərin öyrənilməsi tədqiqatın vəzifələri kimi reallaşır.

**Tədqiqatın nəticəsi.** İstənilən elmi sahədə həyata keçirilən tətbiq sistemli, mərhələli bir prosesdir. Tətbiq prosesi məqsəd və şəraitə uyğun olaraq, düzgün, dəqiq elmi prinsiplərə əsaslanmalıdır.

Dildən müxtəlif məqsədlərlə müxtəlif funksional üslublarda istifadəsi onun tətbiqidir. Tətbiq varsa, onu düzgün mexanizmlə həyata keçirən sahə mühəndisliyi də var. Düzgün elmi mexanizm dildən istifadəyə yaradıcılıq və tətbiq prosesinin özəyində dayanan mühəndisliklə tənzimlənən yanaşma tələb edir. Bu, elmi reallıqdır və dil mühəndisliyinin elmi anlayış kimi qəbul edilməsi ilə yanaşı, fənlərarası elm sahəsi olması faktını da təsdiqləyir.

Dil mühəndisliyinin elmi anlayışdan fənlərarası elm sahəsi statusuna yiyələnməsinin yolu onun ilkin mərhələ kimi dilçiliyin bir bölməsi olmasından keçir.

Dil mühəndisliyi nəzəri müddəalara və tətbiqi məsələlərə malik olan və dilin daxili qanunlarını, eyni zamanda dildəki təbii, dəqiq, riyazi və fəlsəfi qanunauyğunluqları ortaya çıxaran, dildən istifadəni dövrün elmi-texniki tərəqqisi ilə uzlaşdıran elm sahəsidir.

Dil mühəndisliynin sosiolinqvistika, riyazi dilçilik, kompüter dilçiliyi, korpus dilçiliyi, dil menecmentliyi ilə ümumi və oxşar cəhətləri, ortaq obyektləri olsa da, fənlərarası elm sahəsi kimi qəbul edilmək imkanı var və bu amillərdən irəli gələrək, məzmunca nəzəri və tətbiqi cəhətlərə ayrılmaqla çoxistiqamətlidir.

Milli dövlət dillərinin hüquqi statusunu təsbit edən, azsaylı xalqların, etnik qrupların dilinin qorunmasına yönələn dövlət dil siyasəti, dil şəraitinin müəyyənləşdirilməsi, dillərin tədrisini optimallaşdıran strateji, linqvodidaktik müddəalar, tərcümə nəzəriyyəsi kimi məsələlər dil mühəndisliyinin nəzəri aspektini təşkil edir.

Dil quruculuğu, dil normalarının müəyyənləşdirilməsi, standartlaşdırma məsələləri, psixolinqvistik, neyrolinqvistik və müvafiq digər proqramların həyata keçirilməsini tənzimləyən texniki avadanlıqlardan istifadə, dillərin tədrisini optimallaşdıran taktiki məsələlər, kompüter və korpus dilçiliyi, o cümlədən, milli dilin qlobal kompüter şəbəkəsinin informasiya dillərindən biri kimi düzgün, dəqiq, əlçatan, əlverişli və asan istifadəsinin tənzimlənməsi kimi problemlər dil mühəndisliyinin tətbiqi, təcrübi aspektini reallaşdırır.

**Əsas hissə.** Dil mühəndisliyi haqqında danışmazdan əvvəl mühəndislik anlayışının mahiyyəti və onu dil ilə əlaqələndirən, dilçiliklə bağlayan məsələlərə, həmin problemi əhatə edən incəliklərə münasibət bildirilməsi məqsədəuyğundur.

Nizam və sistemliliyin əks qütbündə dayanan və araşdırılmadan, ətraflı öyrənilmədən xaos kimi qəbul etdiyimiz hal və vəziyyət özü də müəyyən mənada təbii qanunauyğunluqdur, məsələn, əşya və hadisələrin varlığının, təzahür formalarının xaotik ardıcıllığa əsaslanması , qəribə səslənsə də, təbii qaydadır və mütləq deyil, nisbidir. Nizam mütləqlik kəsb etməsə də, plan və planlaşdırma, hədəfin müəyyənləşdirilməsi və hədəflənmə, strategiya, taktika, sistemləşdirmə, sxemləşdirmə xaosu aradan qaldıraraq, problemlərin sistemli həllini həyata keçirir. Elə "mühəndislik nədir" sualının cavabı da buradan qaynaqlanır: mühəndislik yaradıcılıqla üzvi vəhdətdədir, onun mahiyyət və fəlsəfəsindən irəli gələn anlayışdir, belə ki, istənilən sahə məhsulunun keyfiyyətli, səmərəli, davamlı, düzgün və mükəmməl yaradılışı prosesin sistemli və nizamlı prinsiplərlə aparılması sayəsində mümkün olur. Yaradıcılıq prosesinin keyfiyyətə yönəlmiş sistemli prinsiplərlə həyata keçirilməsi isə öz növbəsində mühəndislik elminin yaranmasını zəruriləşdirib. Göründüyü kimi, mühəndislik, ilk növbədə,

tətbiqi elm sahəsidir. Sistemli prinsiplərin müəyyənləşdirilməsi bu elmin nəzəri aspektini reallaşdırsa da, həmin nəzəri müddəaların həyata keçirilməsi mühəndisliyi subyektiv mühakimələrdən uzaq, isbatlı dəlillərə əsaslanmış, bir növ sübutlanmış tətbiqi elm sahəsinə çevirir. Bu baxımdan dilin tətbiqi istiqamətində həyata keçirilən hər bir proses və həmin prosesin nəzəri müddəaları da öz növbəsində dil mühəndisliyinin qayəsini təşkil edir. Məlum həqiqətdir ki, hər hansı bir elm sahəsində tətbiq, icra prosesi varsa, həmin prosesi elmi şəkildə tənzimləyən mühəndisliyə də zəruri ehtiyac var, daha doğrusu, mühəndislik tətbiq prosesinin tərkib hissəsidir. Ümumi olan dil istifadə olunaraq xüsusiyə, yəni nitqə keçirsə, deməli tətbiq olunur, beləliklə, dildən istifadə prosesi yaranır və o, nitq aktı şəklində təzahür edir. "Dil və dilçiliyin təcrübi problemlərinin tətbiqinə yönəlmiş hər bir fəaliyyət forması dil mühəndisliyidir" (1, s.4). Ortada fəaliyyət varsa, onu tənzimləyən mexanizm də var və nitq fəaliyyətinin optimallığının, əlçatanlığının, düzgünlük və dəqiqliyinin, çevikliyinin, məqsədyönlüyünün dildaxili amillərlə yanaşı, dil və sırf dilçilik elmi xaricində olan faktorlarla tənzimlənməsi həmin mexanizmin məqsədini təşkil edir. Sözün təsir gücünü, qüdrət və sehrini təmin edən də məhz həmin mexanizmdir. Söz, ifadə, deyim və hökmün hansı şəraitdə necə deyilməsi, yəni tətbiq mexanizmi sözün gücünü və sehrini bir daha sübut edir. Sözün gücünü Konfutsiyə istinadla izah edən türk filosofu Nermi Uyğurun XX əsrin ortalarında söylədiyi fikrin aktuallığı bu gün daha da artıb: "Dil düzgün olmayanda söylədiyin demək istədiyin olmur, söylədiyin demək istədiyin olmayanda görüləsi olan iş görülmür, görüləsi olan iş görülməyəndə adət-ənənə, mənəviyyat, peşəkarlıq tənəzzülə uğrayır, adət-ənənə, mənəviyyat, peşəkarlıq tənəzzülə uğrayanda ədalət pozulur, ədalət pozulanda ümidsizlik yaranır. Buna görə söyləməyi bacarmaq lazımdır, söylənəni doğru, dəqiq demək lazımdır" (2, s.24). Eyni məsələyə müasir rakursdan baxış klassik fikirləri inkar etmir. Belə ki, dil mühəndisliyinin kəsişdiyi neyrolinqvistikada da belə bir elmi qənaət var ki, fikri formalaşdıran neyronlar gücünü və istiqamətini sözdən alır: "Söz və ifadənin təfəkkürə dalğavarı təsiri genetik səciyyəlidir, söz virus kimi neyronları öz təsiri altına salmaq imkanına malikdir, zəif neyronlar mənfi və ya müsbət semantikalı söz-virusun təsiri altına asanlıqla düşərək onun qarşısında aciz qalır, nəticədə insan fiziki və mənəvi iflasa uğrayır, yaxud da əksinə. Nəzərə almalıyıq ki, insan beyni ölçülə bilən orqan deyil, bizim mənəvi bədən üzvümüzdür və tibdə xəstə orqanın sağlam orqandan dalğavarı genetik köçürmə sayəsində sağala bilməsi faktları mövcuddur. Deməli, söz də dalğavarı genetik təsirlə beyni ya məhv edə, ya da sağalda bilər" (3). Nitq aktında səsləndirdiyimiz hər bir kəlmə və ifadələrin əsas məzmun xəttinin pozitivlik və şükranlıq, tolerantlıq hisslərinin reallaşdırmasının vacibliyi müqəddəs Qurani-Kərimdən başlamaqla digər maarifçi, didaktik ideyaların da qayəsini təşkil edir, çünki insanı yaşadan da, sarsıdan da sözdür, uğurlara ruhlandıran da, məğlubiyyətə düçar edən də, nailiyyətlər qazandıran da fərdin daxili və xarici nitqidir, eşitdiyi kəlmələrdir. Yəni, fərdin düşüncə və təfəkkürü özünün səsləndirdiyi nitqdədir və eşitdiyi nitqin təsirindən də tam təcrid edilməyib. Fikir dəstəyi üçün yenə də dil mühəndisliyi ilə yaxın olan neyrolinqvistik proqramlaşdırmanın nəzəriyyəsinə müraciət edək: "Fənlərarası elm sahəsi olan neyrolinqvistik proqramlaşdırmada fizikaya əsaslanan bir müddəaya xüsusi yer ayrılmalıdır. Belə ki, sağlam və aydın, pozitiv, intellektual təfəkkürün formalaşmasında neyronların kəmiyyət çoxluğu deyil, keyfiyyət göstəricisi, yəni onlar arasındakı əlaqənin, rabitənin olması və hansı məzmuna xidmət etməsi xüsusi önəm daşıyır. Bu, o deməkdir ki, təfəkkür neyronların pessimist əlaqəsi ilə yüklənibsə, nitq də həmin keyfiyyətin daşıyıcısı kimi çıxış edir. Müsbət, sabit əlaqə isə pozitiv, rabitəli nitqin formalaşmasını tələb edir" (4,s.50). Nəzəri müddəaları və bir sıra təcrübi məsələləri neyrolinqvistika ilə kəsişən dil mühəndisliyi də son nəticədə dildən düzgün və məqsədyönlü istifadəyə xidmət edir. Məlumdur ki, cəmiyyətin hər bir üzvü fəaliyyət məqsədinə nail olmaq

üçün zəruri olan biliyi sözlə alıb, sözlə təqdim edir. İnformasiya mexanizmi olan nitqin optimallığı, əlçatanlığı, sadə və anlaşıqlı olması, dövrün elmi-texniki, sosial tələbləri ilə səsləşməsinin nəzəri və praktik cəhətdən tənzimlənməsi istiqamətində həyata keçirilənlərin məcmuu dil mühəndisliyini reallaşdırır. Deyilənlər dil mühəndisliyinin elmi anlayış kimi qəbul edilməsini zəruriləşdirsə də, onun dilçiliyin bir bölməsi, yaxud fənlərarası elm sahəsi olmasına tam aydınlıq gətirmir. Bu sualın cavabı dil mühəndisliyi, onun istiqamət və nəzəriyyəsi, təcrübi məsələləri barədə zəruri məlumatın verilməsini tələb edir.

Dil mühəndisliyi iki əsas istiqamətə ayrılır. Həmin istiqamətlər həm məzmun, həm də dil mühəndisliyinin nəzəri və təcrübi məsələlərini eyni dərəcə və məhsuldarlıqla əhatə edib-etməmələri ilə bir-birindən fərqlənir.

I. ***Dil mühəndisliyinin elmi-texniki yönümü.*** Bu istiqamətdə dil mühəndisliyinin təcrübi aspekti nəzəri məsələləri üstələyir. Dildən istifadəni elmi-texniki aspektdən tənzimləyən bu istiqamətin bir spesifikliyi də onun fənlərarası elm sahəsinin predmetlərini əhatə etməsidir. Bu cəhətə görə dil mühəndisliyinin elmi-texniki yönümlü istiqaməti özlüyündə iki daxili istiqamətə ayrılır:

1.1. *Təbii dili tanıtma məqsədilə onun normalarının, bazisli səviyyə vahidlərinin, tətbiqi bilik və məlumatların kompüter və müvafiq digər texniki avadanlıqlar sisteminə daxil edilməsi.* Dil mühəndisliyinin bu istiqaməti müasir dövrümüzün kompüter və korpus dilçiliyi ilə, keçən əsrin isə riyazi dilçiliyi ilə kəsişmə nöqtəsindədir və yaranma zərurətini, qayəsini elmi ədəbiyyat belə izah edir: "Dilçilik elminin inkişafının müasir mərhələsi daha çox riyazi metodların, kibernetika elmləri kompleksinin, hesablama texnikasının dilçiliyin miixtəlif sahələrinə nüfuzu ilə səciyyələnir. Dil hadisələrinin mahiyyətinin araşdırılması ilə bağlı tədqiqatlara ehtimal nəzəriyyəsinin və riyazi statistikanın tətbiqi, dildəki qanunauyğunluqların yeni baxış bucağı altında nəzərdən keçirilməsi və izahı dil nəzəriyyəsinin yeni-yeni metod və nəzəri müddəalarla zənginləşməsi ilə nəticələnir" (5, s.12). Kompüter proqramlarında diskret, yaxud fasiləsiz nitqin tanınması üçün dilin fonetik, leksik, qrammatik vahidlərinin struktur-statistik modellərinin, işlənmə tezlik və formalarının əlçatan və asan variantlarda müvafiq məlumat sistemlərinə yüklənməsi bu istiqamətin əsas məqsəd və vəzifələrindəndir. Keçən əsrdə həmin məlumatların ibtidai və elementar modellərinin hesablama maşınlarına daxil edilməsi riyazi dilçilik metod və müddəaları əsasında öz həllini tapırdı. Günümüzdə həmin missiya dil mühəndisliyində öz həllini daha mütəşəkkil formada riyazi dilçiliyin varisləri olan kompüter və korpus dilçiliyindən istifadə ilə tapır.

1.2. *Dildən istifadə məqsədinə xidmət edən cihaz və avadanlıqların hazırlanması.* Dildən istifadəni elmi-texniki aspektdən tənzimləyən bu istiqamətin də spesifikliyi onun fənlərarası müstəqil elm sahəsinin obyekti kimi fəaliyyət göstərməsidir. Neyrolinqvistik proqramlaşdırmanın həyata keçirilməsi məqsədilə istifadə olunan texniki avadanlıqlar, mətn texnologiyasında dil vahidlərinin işlənmə tezliyini, fonetik səslərin rəqs tezliyini, amplitudasını, akustik keyfiyyət və göstəricilərini ölçən avadanlıqlar dil mühəndisliyinin bu istiqamətinin məhsullarıdır. Dil mühəndisliyinin neyrolinqvistika, psixolinqvistika, kompüter dilçiliyi ilə kəsişən bu istiqaməti təbii dili tanıtma məqsədilə onun normalarının, bazisli səviyyə vahidlərinin, tətbiqi bilik və məlumatların kompüter və müvafiq digər texniki avadanlıqlar sisteminə daxil edilməsi istiqaməti üçün zəruri nəzəri məlumatları emal edir.

Dil mühəndisliyinin ikinci əsas istiqaməti birinci istiqamətdən fərqli olaraq, nəzəri müddəaların təcrübi məsələləri üstələməsi ilə seçilir. Bu xüsusiyyət istiqamətin adında da aydın şəkildə müşahidə edilir:

***II. Dildən istifadənin, onun öyrədilməsinin strategiya və taktikalarının hazırlanması.*** Dildən tətbiqi və öyrədilməsini optimallaşdıran bu istiqamətin spesifikliyi onun predmet və obyektlərinin həm dilçiliyin bir bölməsinin obyekti kimi çıxış etməsi, həm də fənlərarası elm sahələrinin obyekt və predmeti kimi fəaliyyət göstərməsidir. Dildən istifadənin, onun öyrədilməsinin strategiya və taktikalarının hazırlanması istiqaməti də özlüyündə iki yerə ayrılır:

2.1. *Dil mühəndisliyi məsələlərinin linqvistik aspektdə həlli istiqaməti.* Dil mühəndisliyinin tərkibinə daxil olan dil planlaşdırılması və standartlaşdırılması, dil normalarının sadələşdirilməsi, tərcümənin optimallaşdırılması, dillərin tədrisinə yönəlmiş metod, strategiya, taktika və proqramların tərtibi kimi linqvodidaktik məsələlər dil nəzəriyyəsi bölməsinin səlahiyyət və hədəfində olan məsələlərdir. Bu səbəbdən həmin məsələlər dil mühəndisliyinin dilçilik elminin hüdudunda həllini tapan problemlər sırasına daxil edilir. Bu istiqamətin sadaladığımız obyekt və predmetləri, anlayışlar dil mühəndisliyinin özü kimi qəbul edilə bilməz, yəni dil mühəndisliyi nə dil planlaşdırılması və standartlaşdırılması, nə dil normalarının hazırlanması, yaxud sırf tərcümə prosesidir, nə də dillərin tədrisidir. Sadəcə olaraq, həmin anlayışıarın tətbiqini asanlaşdıran, əlçatan edən, optimallaşdıran mexanizmdir. Məsələn, dünyanın aparıcı dillərindən olan ingilis dilinin öyrədilməsini, tədrisini asanlaşdıran, cəlbedici edən "LinguaLeo", "Duolingo", "Learning English With The New York Times", "English At Work", "Rosetta Stone" kimi müxtəlif linqvistik və linqvodidaktik proqram və əlavələrin, yaxud tərcümənin keyfiyyətini yüksəldən, prosesi asanlaşdıran istiqamətləndirmə, proqnozlaşdırma, ehtimallaşdırma, planlaşdırma kimi taktika və strategiyaların hazırlanmasıdır, tətbiqi biliklər reyestridir.

2.2. *Dil mühəndisliyinin dilin funksiya və fəaliyyət sferasına məqsədyönlü müdaxilə istiqaməti.* Bu istiqamət üzrə hədəflənən dil mühəndisliyi məsələləri fənlərarası elm sahələrinin predmetləri ilə kəsişir. Dilə məqsədyönlü müdaxilə dil siyasəti, dil quruculuğu, dil planlaşdırılması, dil normalarının hazırlanması və standartlaşdırma formalarında təzahür edir. Təsadüfi deyil ki, dil mühəndisliyinin dilin funksiya və fəaliyyət sferasına məqsədyönlü müdaxilə istiqamətinə daxil olan məsələlər bəzi tədqiqatlarda dil menecmentliyi, yaxud sosilinqvistik problem kimi təqdim edilir. Bu qarışıqlığın səbəbi dil mühəndisliyinin dilin funksiya və fəaliyyət sferasına məqsədyönlü müdaxilə istiqamətinin hədəfləri arasında dil siyasəti ilə əlaqəli olan dil quruculuğunun da yer almasıdır. Dil menecmentliyindən bəhs edən B.Spolski dil siyasətini dilin idarə edilməsi kimi şərh etməklə belə qərara gəlir ki, "dil idarəçiliyi seçimlərə nəzarət etmək üçün dil menecerlərinin şüurlu və aşkar cəhdləridir" (6, s.1). Halbuki dil siyasəti, dil idarəçiliyi və dil menecmentliyi fərqli anlayışlardır və dil mühəndisliyi bu anlayışların birincisi ilə qismən bağlıdır və bu fakt onun dil menecmentliyi sayılmasına əsas verə bilməz. Bu fərqin izahı üçün dil şəraiti, dil siyasəti, dil quruculuğu anlayışlarının mahiyyəti barədə yığcam məlumatın verilməsi tələb olunur. Qeyd olunan hər üç anlayış eyni bir məzmun xəttinin biri digərinə pay verən hissələridir. "Dil şəraiti dil siyasətini yetişdirir, dil siyasətinin müdəalarının icrası isə dil quruculuğunu reallaşdırır" (7, s.126). Dil mühəndisliyi məhz bu xətti ardıcıllığın üçüncü tərəfi, yəni dil quruculuğu ilə əlaqəlidir və dil siyasəti ilə birbaşa deyil, dolayı şəkildə onun törəməsi kimi əlaqəli sayıla bilər, ancaq dil siyasəti kimi linqvopolitoloji mahiyyət kəsb edə bilməz. Deməli, dil mühəndisliyi dilin idarə edilməsi, yaxud dil menecmentliyi deyil, çünki dil quruculuğu ayrıca bir fəaliyyət formasıdır, prosesdir, tətbiqdir və mühəndislik təcrübi fəaliyyət sahəsi kimi bu istiqamətdə zərurətə çevrilir. Dil idarəçiliyi, menecmentlik isə nəzəri müddəalara söykənən anlayışdır. Dil planlaşdırılması isə dil siyasəti ilə dil guruculuğunu eyni bir məqsədin nəzəri və təcrübi cəhətləri formasında bir bütöv kimi birləşdirən anlayışdır. Dil

planlaşdırmasından və onun dil mühəndisliyi ilə əlaqəsindən bəhs edən Robert Kuperin dil planlaşdırılmasını fəaliyyət sahəsi kimi dəyərləndirməsi (8,s.8) fikri də bu elmi qənaətə haqq verir.

Dil normalarının hazırlanması və standartlaşdırma məsələlərinin dil mühəndisliyi ilə nə dərəcədə əlaqədar olmasının da xüsusi izaha ehtiyacı var. Dil mühəndisliyinin cəmiyyət üçün elmi səmərəliyini artıran əsas məsələlər məhz bu anlayışlarla sıx əlaqədədir. Dil mühəndisliyi dil normalarının hazırlanması, yaxud dilin standartlaşdırılması deyil, yalnız həmin proseslərdə iştirak edən texniki tərəfdir. Məlumdur ki, süni intellekt, cəmiyyətin hər sferasında minimum zaman ayırmaqla maksimum keyfiyyət və mənfəət əldə etmək amilləri informasiya mübadiləsi olan dildən asan və əlçatan, dəqiq və yığcam şəkildə istifadəni zəruriləşdirir. Dil normalarının xüsusi cihaz və avadanlıqlardan istifadə ilə sadələşdirilməsi, yazı və şifahi dil arasındakı fərqlərin minimuma endirilməsi, nitqin yığcamlığını təmin edən qrammatik strukturların praktik standartlar kimi İKT-də təşviq və təbliği dil mühəndisliyinin üzərinə düşən məsələlərdir. Dildən istifadə texnologiyalarını həmin məqsədə yönəldən dil mühəndisliyinin mənfəət və səmərəliyi iqtisadi, ictimai, elmi, fiziki, mənəvi faktorlarla təsnif edilə bilər. Qlobal iqtisadiyyatda rəqabətdə uğur qazanmaq, biznes tərəfdaşlarını, şirkət və istehlakçıları informasiya ilə cəlb etmək, elektron ticarəti dəqiq və düzgün aparmaq, İKT-də rabitənin səmərəliyini təmin etmək, işgüzar kommunikasiyada əlçatanlığın və imkanların maksimum təminatı, istirahət, yaradıcılıq, təhsil imkanlarında maksimum keyfiyyətə nail olmaq kimi məqsədlərin təbii dillərdən istifadə ilə reallaşması, ümumi şəkildə desək, təbii dillərin tətbiqinin təmin edilməsi məqsədilə linqvistik nəzəriyyələrin kompüter və süni intellekt sistemində yerləşdirilməsi hər bir milli dil mühəndisliyinin dövlət və cəmiyyət qarşısındakı ən zəruri və səmərəli vəzifələrindəndir.

Dil mühəndisliyinin elmi-texniki yönümü və dildən istifadənin, onun öyrədilməsinin strategiya və taktikalarının hazırlanması istiqamətlərinin izahından sonra dil mühəndisliyinin elmi statusu barədə belə bir elmi qənaətə gəlmək mümkündür: yaranma tarixi dilin yaranma və istifadə tarixi ilə üst-üstə düşən dil mühəndisliyi fənlərarası elm sahəsi olana qədər dil nəzəriyyəsinin bir bölməsi şəklində fəaliyyət göstərib. Dilin funksionallığının genişlənməsi, elmi-texniki tərəqqinin dinamikliyi dil mühəndisliyinin təcrübi məsələlərindən doğan nəzəri müddəalarının daha da inkişaf etməsinə yol açaraq, ona fənlərarası elm statusunu qazandırıb.

Dil mühəndisliyinin özündə bir neçə əsas və tərkibi istiqamətlərini birləşdirməsi faktı onun xüsusi elmi statusa malik olmasını təsdiqləsə də, bəzi tədqiqatlarda dil oyunları, dil menecmentliyi adları altında təqdim edilməsi bu statusu şübhə altına salır. Görünür, başlanğıcını dil nəzəriyyəsi və strukturalizmdən götürməsi dil mühəndisliyinin özünü fənlərarası elm sahəsi kimi təsdiqləməsinə müəyyən maneələr yaradıb. Dil mühəndisliyinin strukturalizmdən bəhrələnməsi inkaredilməz faktdır. Dil mühəndisliyi də strukturalizmdə olduğu kimi, dilə bir bütöv kimi yanaşır və burada zəngin, heterogen bir sistem elementlərinin ümumi mexanizmdəki funksiya və vəzifələri riyazi dəqiqliklə öyrənilir, müəyyənləşdirilir, hətta dil hadisələrinin inkişaf və dəyişkənliyindəki qanunauyğunluqlar da müşahidə və tədqiqdən kənarda qala bilmir. Lakin qeyd olunan təhlillər strukturalizmdə olduğu kimi yalnız dilin daxili qanunları ilə deyil, dilxarici amillərin təsiri nəzərə alınmaqla izah edilir və nəticədə dil mühəndisliyi fənlərarası elm statusu qazanmağa müvəffəq olur. Dil mühəndisliyinin nəzəri və tətbiqi istiqamətlərə malik olması onun "Dil oyunları" (9) adı altında təqdim edilməsinə qarşı ən tutarlı arqument sayıla bilər. "Dil oyunları", "dil menecmentliyi" ifadələri "dil mühəndisliyi" anlayışının elmi tutumunu tam əks etdirə bilmir, onun elmi istiqamətlərini əhatə edə

bilmədiyinə görə sistemliyinə xələl gətirir. Dil mühəndisliyi yalnız ya tətbiqi, təcrübi, ya da yalnız nəzəri mahiyyət kəsb etsəydi, onun dil oyunu, dil menecmentliyi kimi adlandırılması yol verilən hal sayıla bilərdi, lakin dil mühəndisliyinin nəzəri və tətbiqi istiqamətlərə malik olması bu sahəyə fənlərarası elm statusunu qazandırır.

Dil mühəndisliyinin elmi-texniki tərəqqinin təsiri ilə günümüzün aktual probleminə çevrilməsi bu sahənin tarixinin yeni olması anlamına dəlalət etməməlidir. Dil mühəndisliyi elmi anlayış kimi XX əsrin məhsulu olsa da, yaranma tarixi, funksionallığı dilin tətbiqi ilə, o cümlədən, bədii dil tarixi ilə üst-üstə düşür. Ədəbiyyat nəzəriyyəsində bədii əsərlərin növ və janrlarının elmi təsnifatında forma, mətnin poetexniki göstəricilərinin aparıcı mövqedə dayanması bu fikri söyləməyə tam əsas verir. Xüsusilə, nəzm əsərlərini, o cümlədən, qəzəlin strukturunu sabit və istisnasız formaya salan əruz vəzninin bəhrlərlərinin mütəşəkkilliyi, heca vəzninin eyni sabit və ciddi nizama tabe olan ölçü və təqtilərinin ardıcıllığı dil mühəndisliyinin təzahür formalarından biridir və bu fakt elmi reallıq kimi qəbul edilməlidir. Bu faktor dil mühəndisliyinin tarixini və tətbiqini yalnız bədii ədəbiyyat nümunələri ilə məhdudlaşdırmaq kimi anlaşılmamalıdır. Qədim Orxon-Yenisey tarixi abidələrində, daş kitabələrimizdə dilin publisistik, elmi, rəsmi üslub nümunələri sayılan epitafik, bioqrafik, elmi-tarixi, ictimai-siyasi mətnlərin xüsusi nizamla tərtibi, dizaynı dil mühəndisliyinin ilkin izləri kimi bu sahənin qədim tarixə malik olmasını bir daha sübut edir. Dil mühəndisliyi ilkin mərhələdən günümüzə qədər zəngin inkişaf yolu keşmiş, zaman-zaman riyaziyyat, fizika, fəlsəfə, informatika kimi elmlərin kəsişməsində təbii qanunauyğunluqlara əsaslanan elmi faktlar kəşf etmişdir. Belə qanunauyğunluqlardan biri də alman alimi Corc Zipfin təbii dillərdə mətndaxili statistik mütənasibliyin öyrənilməsidir. Tədqiqatçının "Human Behavior and the Principle of Least Effort" əsərində müşahidələr əsasında dildə, o cümlədən mətndə sözlərin işlənmə tezliyinə görə sıralanması zamanı ikinci yerdə olan sözün birinci yerdə olan sözdən iki dəfə az, üçüncü yerdə gələn sözün birinci yeri tutan sözdən üç dəfə az işlənməsi və sözlərin sıra nömrəsi ilə işlənmə tezliyinin tərs mütənasiblik yaratması göstərilir (10). Eyni bir mütənasiblik sözün maddi qabığı, yəni həcmi ilə işlənmə tezliyi arasında da müşahidə edilir. Zipf qanununa görə, sözün həcmi nə qədər kiçik olursa, işlənmə tezliyi o qədər yüksək olur. Qanunun özünü praktikada nə dərəcədə doğrultmasını mətnlər üzərində statistik hesablamalar aparmaqla yoxlamaq mümkündür və qeyd edək ki, belə eksperimentlər özünü dəfələrlə doğrultsa da, ümumilikdə həmin qanunun mütləq deyil, nisbi olması qənaətindəyik. Xüsusilə, elmi və publisistik üslublara aid mətnlərdə terminlərin işləkliyi sayəsində bu qanunun mütləqliyini pozur. Sözün həcmi ilə işlənmə məhsuldarlığının düz mütənasibliyi özünün mütləqliyini məişət üslubunda, saya danışıq dilində və qismən də bədii, publisistik üslublara xas mətnlərdə qoruya bilir. Fikrimizcə, Zipf qanunu və statistik hesablamanın xətti göstəricisi olan hiperbola nitq aktında olan fərdin söz ehtiyatının dəyərləndirilməsi üçün əlverişli üsul və mənbə sayıla bilər. Belə ki, mətnin açar sözlərini istisna etməklə işlənmiş sözlərin neçə faizinin hansı tezliklərlə təkrarlanması adresantın söz bazası və intellektindən xəbər verir. Mətnin statistik təhlili zamanı sözlərin sayı, semantik tutumu – ranqı, işlənmə tezliyindəki daimi artımın hesablanması ilə yaranan hiperbolanın əyriliyi və həcminin böyüklüyü fərdin söz ehtiyatının zəngin olmamasından xəbər verir. Lakin Zipf qanununun bu müddəasının da dilin bütün funksional üslubları üçün eyni dərəcədə keçərli olmasını demək mümkün deyil. Belə ki, dilin bədii üslubunda söz oyununu, poetikliyi, sənətkarlığı, fərdi üslubi xüsusiyyətləri müəyyənləşdirmək üçün ideal ölçü mexanizmi olan bu qanun rəsmi və elmi üslublarda özünü tam doğrultmaya bilər. Buna baxımayaraq, Zipfin bu qanunu dil mühəndisliyinin səciyyəvi anlayışlarından olan "bilik reyestri" adlandırıla bilər.

**Təkliflər.** Dil yalnız ünsiyyət vasitəsi olmaqla səciyyələnmir. Milli-mənəvi dəyər göstəricisi olan dil tarixən təbii, müasir dünyamızda isə həm də süni intellekt sistemi sayılır. Bu səbəbdən dil mühəndisliyinin dilin tətbiqinin, süni intellekt və dil probleminin düzgün, dəqiq həlli istiqamətində ən aktual problemlərindən biri olması ondan elm və təhsil siyasətinin məzmununda geniş və məqsədyönlü şəkildə istifadəni tələb edir. Həmin tələb aşağıdakı mühüm aspektlərin cəmiyyətin müvafiq sferalarında praktik cəhətdən yerinə yetirilməsi ilə ödənilə bilər:

1. dil mühəndisliyinin fənlərarası elm sahəsi kimi ali məktəblərin müvafiq ixtisaslarında xüsusi kurs kimi tədris edilməsinin həllini gözləyən məsələ kimi nəzərə alınması;
2. dövlət dili və xarici dillərin tədrisinin optimallaşdırılması, motivasiya və əlçatanlığının təminatı, sadələşdirilməsi üçün xüsusi proqramların hazırlanmasının təkmilləşdirilməsi və bu prosesin sürətləndirilməsi;
3. dil normalarının sadələşdirilməsində, yazı və danışıq dili arasındakı baryerlərin minimuma endirilməsində subyektiv mühakimələrdən tam uzaqlaşaraq obyektiv nəticələr əldə edilməsi üçün, dil standartlarının, praktikumlarının hazırlanaraq işləkliyinin artırılması məqsədilə müasir tələblərə cavab verən müvafiq cihaz və avadanlıqların hazırlanmasında və tətbiqində səriştəli dil mühəndislərinin yetişdirilməsinin prioritet sayılması.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. Robert B. Kaplan, Richard B. Baldauf J. Language Planning from Practice to Theory. Multilingual Matters LTD, 1997. 403 s.
2. Uyğur N. Dilin gücü. Denemeler. İstanbul, Yapı Kredi Yayınları, 2021. 116 s.
3. Гаряев П.П. Код бога. 09-11минуты. https://youtu.be/6bxGKIiDwJc
4. Hajiyeva T.İ. Scientific status of neuro-linguistic programming and discoursology analysis of linguistic aspect. Universidad Y Sociedad, 14 (5), 2022.45-52. Recuperado a partir de https://rus.ucf.edu.cu/index.php/rus/article/view/3198
5. Mahmudov M. Kompüter dilçiliyi. Bakı, "Elm və təhsil", 2013. 356 s.
6. https://www.academia.edu/4612971/Spolsky_B_Language_Management_Cambridge_University_Press_2009
7. Hacıyeva T. Qloballaşma və dil: Linqvopolitoloji problemlər. Bakı, "Kövsər", 2007. 308 s.
8. Cooper R. Language planning and social change. Cambridge, Cambrige University Press,1989. 216 s.
9. Balbay M. Dil kullanımı. https://avesis.cu.edu.tr>tbalci
10. Zipf G. Human Behavior and the principle of Least Effort. 1949. https://vikent.ru/enc/5371/

2022. Volume 6, Number 2 Pages 76-88

UOT:821(091)

# "BİZ GÜNDÜZLƏR SULTAN, GECƏLƏR DOSTUQ" ORTA ƏSR ZİYALISI VƏ HAKİM DAİRƏLƏR (ƏBU HAYYƏN ƏT-TAUHİDİ ÖRNƏYİ)

**AİDA QASIMOVA**

*BAKI DÖVLƏT UNİVERSİTETİ*

*aidagasimova@bsu.edu.az*

**XÜLASƏ**

Məqalədə görkəmli ərəb ədibi Əbu Hayyən Məhəmməd ibn Əli ibn Abbas ət-Tauhidinin həyat və yaradıcılığına, onun yaşadığı dövrün hakim dairələri ilə münasibətinə diqqət yetirilir. "Ədiblərin filosofu, filosofların ədibi" kimi tanınan ət-Tauhidinin həyat və yaradıcılığı Orta əsr ziyalısının hakim dairələrlə münasibətini öyrənmək üçün olduqca xarakterik bir örnəkdir. İslam tarixində bu dövr "tayfa hökmdarları" dövrü kimi xarakterizə olunur. Məqalənin əvvəlində bu hökmdarlara, onların ədib, şair və alimlərlə münasibətinə və görkəmli ziyalıları öz saraylarına cəlb etmək yolunda bir-birləri ilə apardığı rəqabətə diqqət yetirilir.

Məqalənin "Qədəhlər gəlsin! -- deyən vəzirlər" bölümündə Buveyhilərin məşhur vəzirləri və vaxtilə Əbu Hayyənin himayədarları sayılan ibn əl-Amid, Sahib ibn Abbəd və ibn Səʻdən barədə məlumat verilir.

Növbəti hissədə Əbu Hayyən ət-Tauhidinin tərcümeyi-halı yer alır. İstedadlı qələm sahibi olan ədibin ömrünün sonlarına doğru maddi sıxıntı içində yaşaması və ruhi sarsıntılar içərisində kitablarını yandırması qeyd olunur. Məqalədə Əbu Hayyən ət-Tauhidinin Buveyhi vəzirləri barədə xatirələrini bölüşdüyü *Kitəb əxlaq əl-vazireyn* və *əl-İmtə va l-muənəsə* əsərləri qısaca tədqiq olunur. Sonda Əbu Hayyənin həyatı və ədəbi şəxsiyyəti ilə bağlı məsələlərin bu günümüz üçün də olduqca xarakterik olduğu bildirilir. Görkəmli tarixçi alim G.R. Elton "Practice of History" əsərində haqlı olaraq qeyd edir ki, "tarixi araşdırma keçmişin öyrənilməsi deyil, bu, keçmişin hazırkı həyatımızdakı izlərinin öyrənilməsidir".

**Açar sözlər:** Əbu Hayyən ət-Tauhidi, Buveyhi sülaləsi, Sahib ibn Abbəd, ibn əl-Amid, ibn Səʻdən, vəzirlik təsisatı

## "WE ARE YOUR FRİENDS AT THE NİGHTS, BUT YOUR KİNGS İN THE DAYTİME". MEDİEVAL INTELLİGENTSİA AND THEİR SOVEREİGNS. THE CASE OF ABU HAYYAN AT-TAUHİDİ

**ABSTRACT**

The present paper deals with the social life of the X-XI centuries' intelligentsia, their religious-political views and activities, everyday problems, and their desperate struggle to earn a slice of bread. We argue that the works and biography of Abu Hayyan at-Tauhidi -- one of the most influential intellectuals and thinkers, "the philosopher of litterateurs and the litterateur of philosophers"-- enable us to illustrate a whole picture of the mentioned period. This period of Muslim history is known as a period of Party Kings or Tribal Kings (Muluk at-tawa'if). The beginning of the research is devoted to these Tribal Kings, their struggle for political power, including implacable rivalry in the cultural life by attracting to their court great poets, writers, scholars, and representatives of bohemia. The following paragraph, entitled "Let's Drink Glasses of Wine" gives an account of the great Buwayhid viziers ibn al-Amid, Sahib ibn Abbad, ibn Saʻdan and describes enmity between them.

The next part of the paper depicts the biography of Abu Hayyan at-Tauhidi using medieval Arab sources. We see that he was an outstanding man of letters and essayist of the Buyid period, but the poverty and lack of recognition from which he suffered for twenty years embittered him to such an extent that toward the end of his life he burnt his own books as a gesture of despair and defiance. The last part of the paper has been devoted to the books *Kitab akhlaq vazirayn* and *al-Imta wa l-muanasa*. Old age at-Tauhidi shared his memories about two famous viziers – ibn al-Amid and Sahib ibn Abbad. Coming to an end, we can conclude that Abu Hayyan at-Tauhidi's life and biography as a mirror reflected the social-political life of Medieval Islamic Society. Surprisingly, some events coincide well with the life of intelligentsia nowadays. As stated by G.R. Elton in his Practice of History, "Historical study is not the study of the past but the study of present traces of the past.

**Key words:** Abu Hayyan at-Tauhidi, Buwayhid dinasty, ibn al-Amid, Sahib ibn Abbad, ibn Saʻdan, institution of viziers

**"МЫ ВАШИ ДРУЗЬЯ ПО НОЧАМ, ХОТЯ ЯВЛЯЕМСЯ ВАШИМИ КОРОЛЯМИ ДНЕМ" СРЕДНЕВЕКОВАЯ ИНТЕЛЛИГЕНЦИЯ И ИХ ПРАВИТЕЛИ: АБУ ХАЙЙАНА АТ-ТАУХИДИ**

**РЕЗЮМЕ**

Настоящая статья посвящена жизни и творчеству выдающегося арабского писателя Абу Хайяна Мухаммада ибн Али ибн Аббаса ат-Таухиди, — одного из самых влиятельных интеллектуалов и мыслителей, «философа литераторов и литератора философов»-- его взаимоотношениям с правящими кругами своего времени. Жизнь и творчество ат-Таухиди является весьма характерным примером для изучения взаимоотношений средневековой интеллигенции с правящими кругами. Этот период мусульманской истории известен как период "племенных королей" (мулук ат-таваиф). Мы утверждаем, что труды и биография Абу Хайяна ат-Таухиди позволяют нам проиллюстрировать целостную картину указанного периода.

Начало исследования посвящено этим племенным королям, их борьбе за политическую власть, в том числе непримиримому соперничеству в культурной жизни для привлечения к своему двору великих поэтов, писателей, ученых и представителей богемы. В следующем абзаце, озаглавленном «Давайте выпьем по бокалам вина», рассказывается о великих буидских визирях ибн аль-Амиде, Сахибе ибн Аббаде, ибн Са'дане и описывается вражда между ними. В следующей части статьи представлена биография Абу Хайяна ат-Таухиди с использованием средневековых арабских источников. Мы видим, что он был выдающимся писателем и эссеистом буидского периода, но бедность и непризнание, от которых он страдал в течение двадцати лет, огорчили его до такой степени, что под конец жизни он сжег свои собственные книги как жест отчаяния.

Последняя часть статьи посвящена книгам «Китаб ахлак аль-вазирайн» и «Аль-имта ва ль-муанаса». На старости лет ат-Таухиди поделился своими воспоминаниями о двух знаменитых визирях – ибн ал-Амиде и Сахибе ибн Аббаде. Подводя итог, можно сказать, что жизнь и биография Абу Хайяна ат-Таухиди как зеркало отражали общественно-политическую жизнь средневекового исламского общества. Удивительно, что некоторые события того периода совпадают с жизнью современной интеллигенции. Как утверждает Г.Р.Эльтон в "Практике истории": «историческое исследование — это не изучение прошлого, а изучение настоящих следов прошлого.

**Ключевые слова:** Абу Хайян ат-Таухиди, династия Буидов, ибн аль-Амид, Сахиб ибн Аббад, ибн Са'дан, институт визирей

Görkəmli ədib Əbu Hayyən Məhəmməd ibn Əli ibn Abbas ət-Tauhidi (ابو حيان محمد بن علي بن عباس التوحيدي) ərəb-islam tarixinin ən mürəkkəb dövründə yaşayıb (təx. 922 -1023). Bu, Bənu Buveyh sülaləsininin Bağdadı tutduğu, Abbasi xəlifələrinin siyasi hakimiyyətlərini itirib ancaq formal dini ağalıqlarını saxladıqları dövr idi. Onun həyat və yaradıcılığı Orta əsr ziyalısının hakim dairələrlə münasibətini öyrənmək üçün olduqca xarakterik bir örnəkdir. Ədibin bir sıra yüksək mənsəb sahibləri ilə yaxın münasibətdə olması bizə bu cür düşünməyə əsas verir.

## Buveyhilər və digər tayfa hökmdarları

Şiə məzhəbli, fars əsilli Buveyhilər 935-ci ildən Səlcuq ağalığınadək (1055) Yaxın Şərqin böyük ərazilərini öz nəzarətində saxlayan bir sülalə idi. Bu sülalə o qədər varlı idi ki, onların ulu babalarının xəzinə tapması barədə əfsanələr dolaşırdı. Əslində isə Buveyhilərin varlanmaq yolu çox sadə idi; Buveyhi hökmdarları öz vəzirlərinə xalqı soymaq, onun malını-mülkünü talamaq üçün geniş imkanlar yaradırdılar. Vəzirlər o qədər varlanırdı ki, hər biri möhtəşəm sərvət və səltənət sahibinə çevrilirdi. Sərvət və qüdrətin tam zirvəsinə çatdıqları zaman Buveyhi hökmdarları onları həbs edir, bəzən edamına fərman verir, var-dövlətlərini isə öz xəzinələri üçün müsadirə edirdilər. Bu taleni Buveyhilərin Əbu l-Fəth ibn əl-Amid, ibn Sə'dən kimi görkəmli vəzirləri yaşamışdılar.

Bosvort göstərir ki, Buveyhilər öz köklərini Sasanilərə bağlayır, hətta özlərini "şahənşah" adlandırırdılar. Şiə məzhəbli olsalar da, onlar artıq sırf formal quruma çevrilmiş Abbasi xilafətini ləğv etmir, hətta Abbasilərin rəqibi olan şiə-Fatimi sülaləsinə düşmən münasibət bəsləyirdilər

(Bosvort, 139-140). Görünür, siyasəti dindən üstün tutduqlarından, Buveyhilər sünni məzhəbli alimləri öz saraylarına dəvət etməkdən çəkinmirdilər.

Buveyhilərin, eləcə də digər tayfa hökmdarlarının maraq dairəsi yalnız siyasi hakimiyyətlə məhdudlaşmırdı. Onlar yalnız döyüş meydanında və siyasi-iqtisadi nüfuz uğrunda mübarizədə deyil, elm və mədəniyyət sahəsində də rəqabətə girirdilər. Həsən İbrahim Həsən ayrı-ayrı mədəniyyət mərkəzlərinin o dövrün hökmdar və vəzirlərinin nüfuz və himayəsində olmasını təsvir edib göstərir ki, İsfahan və Rey Buveyhi hökmdarı Rukn əd-Daulənin və onun oğlu Muəyyəd əd-Daulənin vəzirləri ibn əl-Amidin, ondan sonra isə Sahib ibn Abbədin nəzarətində idi. Sahib ibn Abbədin öz sarayı alimlərin, ədib və şairlərin can atdığı Kəbə kimi idi. Digər mühüm mərkəz Samanilərin Buxaradakı sarayı idi. Öz əsil-kökünü fəxrlə Sasanilərə bağlayan Kabus ibn Vuşmgirin Təbəristandakı sarayı da məşhur idi. Xarəzmdə Sultan Mahmud Qəznəvi bu hökmdarlarla rəqabət aparırdı. O, hər yerdən Qəznəyə həm kitablar gətizdirir, həm də alimləri cəlb edirdi. Mosulda və Hələbdəki Hamdənilər sarayında da elm və ədəbiyyat əhlinin gözəl məclisləri var idi (Həsən İbrahim Həsən, 332-334).

Tayfa hökmdarları arasında yeganə ərəb əsilli sülalə olan Hamdənilər Şamda möhkəmlənmişdi. Onların soy kökü ərəblərin məşhur Təğlib qəbiləsinə bağlanırdı. Hamdəni hökmdarı Seyf əd-Daulənin (h. 945-967) Hələbdəki sarayında bir çox alim, şair və ədiblər cəmlənmişdi. Məşhur filosof əl-Farabinin, ərəb şeirinin tacdarı Əbu t-Tayyib əl-Mutənəbbinin, dilçi alim ibn Xəlaveyhin, eləcə də əs-Sanaubəri, Əbu Firas əl-Hamdəni, Kuşacim kimi şairlərin adı və taleyi Hamdəni sarayı ilə bağlı idi. Bizans imperatorluğu ilə aramsız döyüşlər aparan Hamdəni xanədanı Seyf əd-Daulənin vəfatından sonra zəifləməyə başlayir, oğlanları gah Fatimilərə, gah da Bizans imperatoruna sığınıb XI əsrin əvvəllərinə doğru müstəqilliklərini tamamilə itirirlər. Tarixdə iz buraxan isə Seyf əd-Daulə məclisi, bura yığışmış elm və ədəbiyyat nəhəngləri olur. Seyf əd-Daulə özü isə ərəb şair və ədiblərinin ən böyük himayədarı kimi iz qoyur.

Buveyhilərdən bu sahədə Adud əd-Daulənin fəaliyyəti daha diqqətəlayiq idi. O, dövrün ən görkəmli hökmdarlarından biri idi. Adud əd-Daulə elm və ədəbiyyata olan hədsiz marağı ilə seçilirdi. İbn əl-Əsir *əl-Kəmil fi t-tərix* əsərində yazır: “O, həlim xasiyyətli, səxavətli, əliaçıq, rəiyyətə və orduya münasibətdə gözəl siyasət yürüdən, onlara qarşı rəhmdil, hökmlərində ədalətli, zülmdən uzaq olub əyanlarına da zülm etməyə imkan vermyən, labüd olmadıqda qan tökməkdən çəkinən bir şəxs idi.” (ibn əl-Əsir, vııı, 670). Adud əd-Daulənin Buveyhi vəziri ibn əl-Amidə qarşı zalımlığı bu sözlərin heç də həqiqəti əks etdirmədiyinə dəlalət edir. Belə ki, bu hökmdarların elm və ədəbiyyat adamları üçün həm də təhlükəli olmasını qeyd etməliyik.

Həmin dövrdə yaşamış Bədi əz-Zəman əl-Həmədani məktublarından birində despot hökmdar obrazını təsvir edir. Kabus ibn Vuşmgir olması zənn edilən hökmdar belə təsvir edilir:

*O, elə bir hökmdardır ki, qəzəblənəndə əfvinə yer qalmır. Onun xeyirxahlığı ilə qəzəbi arasında məsafə qısa olduğu kimi, qəzəbi ilə qılıncı arasında da məsafə çox qısadır. Onun qəzəbindən qurtuluş yoxdur. Sarayında həyat ölümlə qol-boyun gəzir. Onu cüzi bir xəta da qəzəbləndirir, nə qədər üzr dilənsə də razı qalmaz. Dedi-qodu və şərlənmək də kifayətdir ki, o, insanı ədalətsizcəsinə edam etdirsin. Nizənin ucundan da xırda bir günah onun gözündə böyüyür, sübh günəşi kimi aydın bəraət dəlilləri isə gözünə görsənmir. Onun iki qulağı var; biri böhtana açıq, o biri insanın öz günahsızlığı barədə gətirdiyi dəlillərə qapalıdır. İki əli var; biri ilə qan tökür, o biri ilə günahsızları boğub öldürür. İki gözü var; biri ilə cinayətləri görür, o biri məsumluğa qarşı kordur. Onun əyləncəsi boyun vurmaqdır, ciddiliyi isə qılınc və cəllad kötüyüdür.*

*Əmrlərinin verilməsi ilə həyata keçməsi "kəf" və "nun" arasındakı məsafə kimidir.*[1] *O, boyun vurmaqdan başqa cəza növü tanımır. Danlamaq metodu insanı nemətlərdən məhrum etmək, tərbiyə metodu isə qan tökməkdir* ( bax Qasımova, 2019, 448).

Beləliklə, saray həyatının alim və şairlər üçün heç də şirin olmadığını qeyd etmək yerinə düşər. Onların təzyiqlərə məruz qalması, hər an hökmdar qəzəbinin qurbanı olub təhlükə ilə üzləşmələri barədə Orta əsr mənbələrində kifayət qədər məlumat var. Görkəmli şair əl-Mutənəbbinin (915-965) Seyf əd-Daulə (hak. 945-967) sarayında üzləşdiyi təhqirləri, onun Misir hakimi Kafurun sarayından zorla qaçıb canını qurtarmasını yada salaq. Circi Zeydan göstərir ki, Əbu Bəkr ər-Razi (أبو بكر محمد بن زكريا الرازي ) görkəmli kimyaçı alim kimi metalın qızıla çevrilməsi barədə bir əsər yazır. Əsərlə tanış olan Mənsur əs-Samani alimi saraya dəvət edir və ondan kitabda yazdıqlarını təcrübədə həyata keçirməyi tələb edir. Ər-Razi bunu bacarmadıqda, hökmdar əmr edir ki, yazdığı kitabla onun başına kitab cırılıb tökülənədək döyəcləsinlər. Nəticədə gözlərinə qara su gələn ər-Razi görmə qabiliyyətini itirir (Circi Zeydan, ıı, 254; Qasımova, 2013, 35).

Digər hökmdar Sultan Mahmud Qəznəvi qalib gəldiyi döyüşlərdə məğlub tərəfdən müharibə qəniməti kimi bəzən onların sarayındakı şair və alimləri tələb edirdi. Bu yolla o, Samanilər sarayından əl-Biruninì Qəznədəki sarayına gətirə bilir və ibn Sinanı da bu yolla sarayına cəlb etmək arzusuna düşür. Sultan Mahmud Qəznəvinin sarayına getmək istəməyən ibn Sina onun təqiblərindən qurtulmaq üçün ömür boyu yaşayış yerini dəyişməli olur. İbn Sina öz halını belə təsvir edirdi (bax Qasımova, 2013, 36-37):

*Zəmanə başıma işlər açdı, boynuma Sultanın (Sultan Mahmud Qəznəvinin) əməllərindən bəzi yük düşdü. Zərurət məni Buxaradan köçüb Kərkəncə (indiki Türkmənistandakı Köneürgenç şəhəri. A.Q.) getməyə məcbur etdi. Oradan Fesaya (İranın Fars əyalətinin mərkəzi. A.Q.), Fesadan Bəruda (belə bir şəhərin Hindistanda olmasını zənn edirik. A.Q.), sonra Tusa, oradan da Şaqana (Xorasanda şəhər nəzərdə tutulur. A.Q.), Şaqandan Səmanqana (İranda yerləşir A.Q.) köçdüm. Sonra Xorasanın lap yuxarısında yerləşən Cəcruma, oradan da Curcana köçdüm. Curcandan sonra Dehistana (İranda qəsəbə A.Q.) getdim, orada çox ağır xəstəliyə düçar oldum və yenidən Curcana qayıtdım. Bu halımı ifadə etdiyim şeirimdəki bir beytdə deyirəm:*

*Böyüyüb əzəmət sahibi olduqda, heç bir şəhərə yerləşmədim.*

*Qiymətim artdığından, alıcım olmadı.*

**"Qədəhlər gəlsin!" deyən vəzirlər**

Əbu Hayyən ət-Tauhidinin həyatı Buveyhi vəzirləri ilə sıx bağlı idi. Qeyd edək ki, İslam düyasında vəzirlik bir təsisat kimi Abbasi xəlifələri dövründə yaranıb inkişaf etmişdir. Abbasilər dövlət quruculuğunda Sasanilərin yolu ilə getdiyindən bu təsisatı da onlardan əxz etmişdilər. Təsadüfi deyil ki, ilk Abbasi vəzirləri fars əsilli Bərməkilər idi. Buveyhi xanədanında da vəzirlik çox önəmli idi. Onların məşhur vəzirləri ibn əl-Amid, Sahib ibn Abbəd və ibn Sə'dən Əbu Hayyənin himayədarları sayılırdı.

**Əbu l-Fəth ibn əl-Amid** (v. 978) uzun müddət Buveyhilərin vəziri olmuş Əbu l-Fadl ibn əl-Amidin (v. 970) oğlu idi. O, Zu l-Kifəyəteyn ( ذو الكفايتين-- iki güc sahibi) kimi tanınırdı Tənuxi *Nişvar əl-muhadara* əsərində göstərir ki, onunla Sahib ibn Abbəd arasında rəqabət olmuş, o, Sahib ibn Abbədi divan işlərindən uzaqlaşdırıb Buveyhi hökmdarı Muəyyəd əd-Daulənin bütün

[1] Burada ədib Allaha xas bir hökmə, onun varlıqları "kun" deməklə yaratmağına işarə edir.

işlərini öz əlində cəmləmişdi. İbn əl-Amid gecə həyatını sevir, dost-aşnanı başına yığıb məclis qurur, müğənnilər çağırır, qızıl və gümüş qablarda, zərif badələrdə bol nemətlərlə dolu süfrə açdırıb qonaqlıq verirdi. Bu məclislər bəzən səhərə yaxın bitərdi. Belə məclislərdə o, şeir deməyi çox xoşlardı:

*Arzuma çatmaq, ucalığa yetmək üçün dua etdim. Hər ikisinə çatdıqda "Qədəhlər gəlsin", -- dedim.*

*Gəncliyimin çiçəklənən günlərinə "geriyə qayıdın!" – dedim. Fərəhimiz indi başlayır.*

*Əgər insan arzularına çatıbsa, ona başqa təkliflər yükləməyin.*

Bu cür məclislərin biri bitdikdən sonra Muəyyəd əd-Daulənin adamları səhər-səhər gəlib ibn əl-Amidi şirin yuxudan oyadır, hökmdarın onu çağırdığını bildirir. Heç nədən şübhələməyən ibn əl-Amid həmişəki kimi, bir iş üçün çağırıldığını düşünür, amma Muəyyəd əd-Daulə onu həbs etdirir, bütün malını-mülkünü müsadirə edir. İbn əl-Amidin müsibəti uzun çəkir və sonda ölümünə gətirib çıxarır (Tənuxi, online).

Qeyd edək ki, ibn əl-Amidin həbsinə səbəb onun digər vəzir Sahib ibn Abbədlə düşmənçilikdə məğlub olması idi. Muəyyəd əd-Daulə hakimiyyətə gələrkən Sahib ibn Abbədi öz vəziri edir. Əbu l-Fəth ibn əl-Amid buna qarşı çıxır, hətta silahlı dəstə göndərib Sahib ibn Abbədi öldürməyə cəhd edir. Bunu eşidən digər Buveyhi hökmdarı Adud əd-Daulə Muəyyəd əd-Dauləyə məktub yazıb ondan ibn əl-Amidi həbs etməyi, malını-mülkünü müsadirə etməyi və ona işgəncə verməyi tələb edir.

Beləliklə, ibn əl-Amid həbs edilir. Onun həbs edilərkən sərvət və xəzinələrinin gizlədildiyi yerlərin siyahısı yazılan kağızı Buveyhilərin əlinə keçməsin deyə sobaya atıb yandırması söylənilir. Bu, Adud əd-Daulənin ona olan qəzəbini daha da artırır. İbn əl-Amidə həbsxanada işgəncələr verilir, onun gözlərinə mil çəkilir, saqqalı qoparılır, burnu kəsilir və bu cür işgəncələr altında dünyasını dəyişir. O, həbsdə olduğu həbsxana kamerasının divarında aşağıdakı şeiri yazmışdı (əs-Safədi, cild 21, s.426):

*Hökmdar mənimlə əhd-peyman etmişdi. Onun mənə aman verməsi xəbəri hər yerə yayılmışdı.*
*O öz rəyindən dönmədi. Onun rəyini döndərən və məni qandallayan bəxtim (dəhrim) idi.*
*O, vəhşi heyvanları mənim sümüyümə, ətimə qonaq etdi, torpağı sel kimi axan qanımla suvardı.*
*Tərk etdiyim yaxınıma və sevgilimə bu müştaq qəlbimin salamını göndərirəm.*

İbn əl-Amiddən sonra **Sahib ibn Abbəd** Muəyyəd əd-Daulənin vəziri kimi yerini bərkidir, və onun ardınca Fəxr əd-Daulənin vəziri olur. Sahib ibn Abbad həm də bir sərkərdə idi. O, əlliyədək qala fəth edib Fəxr əd-Dauləyə təslim etmişdi. Mənbələrdə Sahib ibn Abbəd bir çox elmlərdən xəbərdar zəka sahibi kimi təqdim edilir. Onun gözəl əsərləri, bəlağətli nəsrlə yazılmış bir çox kitabları, həm də böyük bir kitabxanası var idi. Sahib ibn Abbəd bir yerə gedərkən kitablarını daşımaq üçün ona qırx dəvə lazım olurdu. O, ədib və alimlərlə dostluq edir, onlara "biz gündüzlər ağanız olsaq da, gecələr dostunuzuq" (نحن بالنهار سلطان، وبالليل إخوان), -- deyirdi (Yaqut, 669).

Yaqut ər-Rumi Sahib ibn Abbədin rəhmdil bir insan olmasını bildirir. Bir dəfə ona nökərlərdən birinin əli ilə zəhərli içki verirlər. Məclisdəkilərdən biri Sahib ibn Abbədə içməzdən öncə içkinin zəhərli olması xəbərini çatdırır və məsləhət görür ki, buna əmin olmaq üçün içkini nökərin özünə içizdirsin, amma Sahib razı olmur, "mən onu öldürə bilmərəm",-- deyir və içkini

bir itə verir (Yaqut, 669). Onun müasiri Əli ibn Həsən əl-Kətib bildirir ki, bir şeirini dinlədikdən sonra Sahib ona qarşı çox səxavətli olmuş, hətta ona tez-tez məclisinə gəlib-getməyi tapşırmışdır. Amma günün birində Sahibin ona münasibəti tamamilə dəyişir:

*O məndən bezib bir il həbsə atdırdı. Mənim kitablarımı yığıb yandırtdı. Bunlar əl-Fərranın, əl-Kisainin kitabları, Quran təfsirləri, üsuliddin, fiqh və kəlama dair kitablar idi. O, həmin kitabları qədim fəlsəfə kitablarından fərqləndirmirdi. O, cahilliyi və ağılsızlığı ucbatından bu kitabları yoxlamadan oda atdırdı. Bu kitabların yandıran adamın (Sahib ibn Abbədin) xəzinəsində ibn ər-Ravəndinin kitabları, ibn Əbi l-Aucənin Qur'an əleyhinə yazdığı kitab, Saleh ibn Abd əl-Quddusun, Əbu Səid əl-Husirinin, Aristotelin və başqa (zindiqlərin) kitabları yoxdurmu? Kim istəsə, özünü axmaq yerinə qoya bilir* (Yaqut, 681).

Bu iki vəzirin ataları da vəzirlik mənsəbi tutmuşdur; vaxtilə Sahib ibn Abbədin atası Rukn əd-Daulənin vəziri olmuşdu. Onun vəfatından sonra vəzirlik Əbu l-Fəth ibn əl-Amidin atası Əbu l-Fadl ibn əl-Amidə (v.970) keçir. Ata ibn əl-Amid Sahib in Abbədin irəliləməsində müəyyən rol oynayır. Gənc Buveyhi şahzadəsi Muəyyəd əd-Daulə Buveyhi hökmdarı Muizz əd-Daulənin qızı ilə evlənərkən, ata ibn əl-Amid şahzadəni müşayiət etməyi Sahib ibn Abbədə tapşırır və beləliklə də Sahiblə Muəyyəd əd-Daulə arasında dostluq yaranır (İranica,online). Eləcə də həmin mərasimdə Sahib Buveyhilərin Bağdad sarayında mühüm sima olan vəzir əl-Muhəlləbi ilə yaxınlaşır. Vaxtilə əl-Mutənəbbi "Mən ancaq hökmdarları mədh edirəm" deyib əl-Muhəlləbinin mədhiyyə xahişini rədd etmişdi. Bundan sonra Bağdadın şair və filoloqları əl-Mutənəbbiyə düşmən kəsilmişdir. Sahib ibn Abbədi də bu ədəbi savaşın önündə görürük (Qasımova, 2019, 415). Görünür, əl-Muhəlləbiyə xoş getsin deyə, Sahib Mütənəbbi şeirinin pis cəhətləri barədə bir kitab belə yazır.

966-cı ildə Muəyyəd əd-Daulə İsfahan hakimi olduqda Sahib ibn Abbəd onun vəziri təyin olunur. Əbu l-Fadl ibn əl-Amid isə vəfatından öncə oğlu Əbu l-Fəth ibn əl-Amidin öz yerinə Rukn əd-Daulənin vəziri olmasını təmin etmişdi. İki vəzir arasında güclü rəqabət var idi. Bu rəqabətdə Sahib ibn Abbəd qalib çıxır. O, Muəyyəd əd-Dauləni və Adud əd-Dauləni (v. 983) ibn əl-Amidin əleyhinə qaldırır, nəticədə, yuxarıda qeyd etdiyimiz kimi, ibn əl-Amid həbs edilib öldürülür.

Sahib ibn Abbəd yalnız dövlət adamı və vəzir olmayıb, həm də bir filoloq, dilçi, ədəbiyyat tənqidçisi kimi tanınırdı. Onun Reydəki məclisinə bir çox şair, ədib və alimlər yığılırdı. Sahib ibn Abbəd bu məclislərdə müxtəlif mövzularda mübahisələrdə fəal iştirak edirdi. O, qafiyəli nəsrə o qədər meyilli idi ki, hərbi yürüşlərin birində günorta vaxtı (نصف النهار) çox da cəlbedici olmayan Naubahar (النوبهار) şəhərini tutur ki, Fəxr əd-Dauləyə aşağıdakı tərzdə qafiyəli bir xəbər göndərsin (Yaqut, 683):

كتابي هذا من النوبهار، يوم السبت نصف النهار

*Mən bu yazını şənbə günü nahar vaxtı Naubahardan (göndərirəm).*

Sahib ibn Abbəd 995-ci ildə Reydə vəfat edib. Onun cəsədi sonradan İsfahana aparılmışdır (Yāqut, II, p. 703).

**Əbu Hayyən ət-Tauhidi – sufi xislətli ədib**

Öz dövrünün görkəmli ədiblərindən olan Əbu Hayyən ət-Tauhidi barədə mənbələrdə məlumat azdır. Orta əsr mənbələrindən Əbu Hayyən ət-Tauhidi barədə ən geniş məlumata onun öz əsərlərində və Yaqut ər-Ruminin "Mucəm əl-udəbə" əsərində rast gəlirik (oçerk 800. səh.1923-1940).

Yaqutun "filosofların ədibi, ədiblərin filosofu" və "sufi şeyxi" adlandırdığı Əbu Hayyən ət-Tauhidinin ya Şirazlı, ya da Nişapurlu olması bildirilir. Yaqut onun Vasitdə anadan olma ehtimalını da irəli sürür. Atası "tauhid" deyilən xüsusi xurma növü satdığından ət-Tauhidi adlanıb. Qeyd edək ki, o dövrdə mötəzililər "əhl ət-tauhid va l-adl" (اهل التوحيد والعدل) kimi tanınırdı. Uottun fikrincə ət-Tauhidi mötəzili yolu tutduğu üçün bu cür adlana bilərdi (Watt, İranica). Yaqut da onun mötəziliiliyə meylli olduğunu, bu səbəbdən də əsərlərində əl-Cahizin yolu ilə getdiyini bildirir (1924). Görünür, ət-Tauhidinin düşüncə tərzi dəyişkən olub. O, təsəvvüfə də meylli olub. Onun Tauhidi adlanması öz istəyi ilə də ola bilərdi; bununla o, tövhidə bağlılığını ifadə etmiş olurdu.

Yaquta görə, o, "sufi görünüşlü, sufi xislətli" idi. Bəlkə də buna görə haqqında cürbəcür söz-söhbət gəzirdi. O, Bağdada gəlib bir müddət burada yaşamış, sonra Reyə getmiş, əvvəl Əbu l-Fəth ibn əl-Amidin (ابو الفتح بن العميد), sonra isə Sahib ibn Abbədin (الصاحب بن عباد) yanında qalmış, amma onların özünə olan münasibətini bəyənməmiş, hər ikisinin xarakter cəhətləri barəsində bir kitab (اخلاق الوزيرين) yazmışdır.

Ümumiyyətlə, onun tərcümeyi-halında Buveyhi vəzirləri ilə münasibəti mühüm əhəmiyyət kəsb edir. O, ibn əl-Amidi təxminən 974-cü ildə ziyarət edir. İbn əl-Amid o dövrün görkəmli dövlət adamı olmaqla yanaşı həm də parlaq zəka sahibi, istedadlı ədib kimi tanınırdı. İbn əl-Amidin edamından sonra vəzirlik mənsəbi Sahib ibn Abbədə keçir. Sahib ibn Abbəd Əbu Hayyəni öz sarayına dəvət edərkən, o, ilk vaxtlar buna sevinir, çünki vəzirlə iki ziyalı, iki ədib kimi münasibət quracağını zənn edir, amma tezliklə o, vəzirin onun simasında sadəcə bir katib, bir xəttat gördüyünün fərqinə varır. Bu, Əbu Hayyəni incidir, onun qüruruna toxunur. Sahib ibn Abbədin ölümündən sonra biz Əbu Hayyəni Bağdadda Samsam əd-Daulənin (صمصام الدولة) vəziri ibn Sə'dənin (ابن سعدان) yanında görürük. Onların münasibətləri daha səmimi olub iki dost münasibətini xatırladır. Bu, Əbu Hayyənin الإمتاع والمؤانسة əsərindən də görünür. Digər vəzirlər kimi ibn Sə'dənin də acı taleyinin şahidi olan Əbu Hayyən ömrünün son onilliklərini saraylardan uzaq bir tərzdə keçirir.

Əbu Hayyən ət-Tauhidi şeir, leksikologiya, dilçilik, ədəb, fiqh, kəlam kimi bir sıra elm sahələrində güclü idi.

**Kitablarını yandıran ədib**

Əbu Hayyən ət-Tauhidi ömrünün sonuna doğru bütün əsərlərini yandırmışdır. Uzun müddət dövlət adamlarının yanında çalışan ədib ömrünün son illərini tənha və unudulmuş, bir tikə çörəyə möhtac halda keçirir. O, ləyaqətsiz adamlara ağız açır, nə keçmiş hörməti, nə də dəyərli əsərləri onun gündəlik tələbatını ödəmirdi. O bu əsərlərin heç kimə bir xeyri olmayacağını düşünür, ona dəyər verməyən adamların əlinə düşəcəyindən qorxurdu. Əbu Hayyənin müasiri qazi Əbu Səhl Əli ibn Məhəmməd adlı bir ədib məktub yazıb kitablarını yandırmasından təəssüfləndiyini bildirir. Əbu Hayyən ona uzun-uzadı bir cavab məktubu yazır. Bu məktub Orta əsr ziyalısının ruhi-psixoloji durumunu əks etdirdiyindən, onun üzərində, bir qədər dayanmağı lazım bilirik. Qeyd edək ki, bu risalə həm *Mucəm əl-buldəndə*, həm də Əbu Hayyənin *əl-İmtə va l-muənəsə* əsərində yer alıb. Məktubda o, ilk növbədə dünyada hər şeyin faniliyi barədə Quran ayələrini yada salır (əl-Qəsəs 88, ər-Rəhman 26-27), və bildirir ki, mən bu işi tutmazdan öncə bir istixarə etdim, Allah-Təaladan bu işdə məni döğru yola yönəltməsini dilədim. Allah-Təala gerçək bir yuxu ilə mənim fikrimdə yanılmadığımı bildirdi, qəlbimdə saxladığım bu niyyəti həyata keçirməyə səslədi.

Sonra Əbu Hayyən davam edib bildirir ki, hər bir elm əməli işlə gözəl olur. Əgər bu əməl həyata keçməzsə, onda elm insanlara bir yük olar. Mən də belə bir işdən çəkinib Allaha sığınıram. Mənim kitablarımda həm gizli, həm də aşkar elmlər ehtiva olunur. Gizli elmlərə gəlincə, mən bu dünyada onların həqiqətini anlamağa meylli bir insan görmürəm. Aşkar elmlərə gəlincə, mən onları öyrənmək arzusunda olan bir kəs də görmürəm. Mən bu kitabları bir zamanlar insanlar arasında layiqli yer tutmaq, cah-cəlal sahibi olmaq üçün yazmışdım, amma bunların heç biri mənə nəsib olmadı. İndi qorxuram ki, bu əsərlər gələcəkdə mənə aid olmayan fikirlərə dələlət kimi istifadə olunar. Bu işdə əzmli olmağımın bir səbəbi də budur ki, indi mənim nə bir övladım, nə dostum, nə yoldaşım, nə tələbəm, nə də bu kitablarıma dəyər verən bir ağam qalıb. Qorxuram, kitablarım elə adamların əlinə düşər ki, onlar bu kitablarla oyun oynayar, onları pis məqsədləri üçün istifadə edib şərəfimə ləkə salarlar. Bu kitablarda səhvimi tapıb sevinər, kitablarımı məhz nöqsanlarımı tapmaq üçün gözdən keçirərlər. İyirmi il aralarında ömür sürdüyüm insanlardan bir xeyir görmədimsə, həmin insanlara bu kitabları necə tərk edə bilərəm? Elə olub ki, şöhrətə çatdığım vaxtlarda belə çöllərə gedib yeməyə göy-göyərti axtarmışam, dəfələrlə alçalıb dilənçi halında həm ağalara, həm də qara camaata əl açmışam. Daha sonra Əbu Hayyən ət-Tauhidi deyir:

*Sonra isə mən kitabları yandırmaqda insanların ardınca getdikləri, yolunu tutub hidayətə yetdikləri imamların adətini davam etdirmişəm. Onlardan biri mömin, aşkar zahidlik yolu tutan, haramdan uzaq olan Əbu Əmr ibn əl-Alə ölümündən öncə kitablarını torpağa basdırmışdır. O kitabların izi-tozu belə tapılmamışdır. Fiqh, ibadət və zahidlikdə Allahın ən yaxşı bəndələrindən sayılan, "Tac əl-ummət" adlanan Davud ət-Tai bütün əsərlərini dənizə atmışdır. Bu zaman o belə demişdir: "Bir zamanlar çox gözəl dəlil idiniz. Amma elə ki göstərdiyiniz dəlillər bitdi, siz bir yorğunluq, unutqanlıq, bəla və süstlük mənbəyi oldunuz". Yusif ibn İsbat bütün kitablarını dağa aparıb bir mağarada gizlətmiş, sonra mağaranın ağzını qapamışdır. İnsanlar bunu ona eyib tutarkən demişdir: "Elm elə bir şeydir ki, o, əvvəl bizə sanki yol göstərir, sonra (bir də baxıb görürük ki,) bizi yolumuzdan azdırır. Əvvəl hansı məqsədlə ona yaxınlaşırdıqsa, həmin məqsədlə də ondan uzaqlaşırıq. Əvvəl onu nəyə görə istəyirdiksə, həmin şeyə görə ona nifrət edirik". Bu adamlardan biri də Əbu Süleyman əd-Dəranidir. O, bütün kitablarını təndirə yığıb od vurmuş, sonra demişdir: "Vallah, sizi yandırmasaydım, az qala özüm sizin yerinizə yanacaqdım". Sufyən əs-Sauri kitablarının bütün vərəqlərini xırda-xırda doğrayib küləyə vermiş və demişdir: "Kaş ki mənim əllərim bax bu cür parça-parça olaydı, sizin bir hərfinizi belə yazmayaydım". Alimlərin ən ucası şeyx Əbu Səid əs-Sirafi oğluna demişdir: "Mən bu kitabları sənə ruzi üçün miras qoyuram. Nə zaman görsən ki, (bu işdə) sənə xəyanət edirlər, onları oda yem et". (Yaqut ss.1929-1932)*

**Əbu Hayyənin əsərləri**

Yaqut ər-Rumi Əbu Hayyənin aşağıdakı əsərlərinin adını çəkir (s. 1925):

رسالة الصديق والصداقة

*Dost və dostluq haqqında risalə.* Əbu Hayyəni bu əsəri yazmağa vəzir ibn Sə'dən həvəsləndirmişdir. Əbu Hayyən əsəri tamamlayarkən ibn Sə'dən artıq dünyasını dəyişmişdi.

كتاب الرد على ابن جني في شعر المتنبي

*Əl-Mutənəbbi şeiri barədə ibn Cinniyə cavab.* Bildiyimiz kimi, ibn Cinni əl-Mutənəbbinin tələbəsi və pərəstişkarı olub, onun divanını toplayıb şərh edib, amma Əbu Hayyənin təmsil etdiyi Bağdad ədəbi mühiti, eləcə də yanında katib kimi işlədiyi Sahib ibn Abbəd əl-Mutənəbbiyə düşmən münasibət bəsləyib. Sahib ibn Abbəd hətta əl-Mutənəbbi əleyhinə əsər yazıb. Ona görə də, Əbu Hayyənin ibn Cinninin əl-Mutənəbbi barədə fikirlərinə rəddedici əsər yazması və əl-Mütənəbbini tənqid etməsi təəccüblü görünmür.

كتاب الامتاع والمؤانسة

*Dostla söhbətdən həzz alma*. Bu, Əbu Hayyənin çox yaxşı münasibətdə olduğu vəzir ibn Sə'dənlə olan münasibətlərini əks etdirən əsərdir. Əsər yunan fəlsəfi dialoqlarına bənzər bir tərzdə yazılıb. (Aşağıda onun barəsində daha geniş məlumat veriləcək).

Əbu Hayyən ət-Tauhidinin əsərləri bu və ya digər dərəcədə onun həyatı, insanlarla şəxsi münasibətləri ilə bağlı olub. O, Buveyhi vəzirləri ibn əl-Amidin və Sahib ibn Abbədin şəxsi katibi kimi onları müşahidə edib كتاب ذم الوزيرين (*İki vəzirin məzəmməti*) əsərini yazıb. Əsər elm aləmində اخلاق الوزيرين(*İki vəzirin əxlaqı*) kimi də tanınır.

Yaqut ət-Tauhidinin mistik düşüncə və irfanla bağlı bir sıra əsərlərinin adını çəkir .

***Əl-İmtə va l-muənəsə***

Ədibin الامتاع والمؤانسة əsəri elm aləmində böyük maraq doğurub. Bu əsər öz quruluşuna görə 1001 gecə nağıllarını xatırladır. Burada da ravi və dinləyici vardır; ravi Əbu Hayyən ət-Tauhudi özüdür, dinləyici isə Buveyhi hökmdarı Adud əd-Daulənin (عضد الدولة) və onun oğlu Samsam əd-Daulənin (صمصام الدولة) vəziri ibn Sə'dəndir (ابن سعدان).

Əbu Hayyən ət-Tauhidi əsəri Əbu l-Vəfa adlı bir dostunun xahişi ilə yazdığını bildirir. Əsərin müqəddiməsindən məlum olur ki, ədibi ibn əl-Amid, Sahib ibn Abbəd, sonra isə ibn Sə'dən kimi vəzirlərlə məhz Əbu l-Vəfa tanış edib, onlardan ədibə iş verməyi xahiş edib. Sonra o, haqqı çatan bir insan kimi, Əbu Hayyəndən vəzir ibn Sə'dənla olan söhbətlərini ona bildirməsini xahiş edir. Əbu Hayyən də bu əsəri yazır (s.33-43).

İbn Sə'dən o dövrdə elm və ədəbiyyat adamlarına himayədarlıq edən, onları öz məclisinə toplayan bir mesenat idi. Onun məclisində Əbu Hayyən ət-Tauhididən başqa ibn Miskaveyh, ibn Sibaveyh kimi görkəmli alimlər, bir çox şair, katib və ədiblər toplanırdı. Bu alimlər içərisində o, Əbu Hayyənlə daha yaxın münasibətdə olmuşdur.

Əsərdən məlum olur ki, Əbu Hayyən 40 gecə Buveyhi vəziri ibn Sə'dənlə söhbət edib bu söhbətləri qələmə almışdır. 1001 gecə nağıllarından fərqli olaraq, bu söhbətlər yarımçıq qalmır, belə ki, hər iki ədib – Əbu Hayyən və vəzir bu söhbəti, əsərin adından da göründüyü kimi, xoş bir ünsiyyətdən zövq almaq üçün edir, Şəhrəzaddan fərqli olaraq əsas ravi olan Əbu Hayyənin edam olunmaq təhlükəsi yoxdur. Hər gecə söhbət üçün bir mövzu seçilir. Mövzular adətən fəlsəfə, ilahiyyat, ədəbiyyat kimi sahələri əks etdirir. Mövzu ətrafında ravi geniş məlumat verir. Bu məlumat bəzən insanı yoracaq qədər əhatəli olduğundan, bəzən söhbətin sonunda vəzir ədibdən məzəli bir əhvalat söyləməyi xahiş edir.

Bu əsərdə biz əl-Cahizin ədəbi üslubunu görürük. Belə ki, müəllif əl-Cahizin yolunu tutub maarifləndirici və əyləndirici parçaları bir-biri ilə əvəzləyir ki, oxucu çox yorulmasın, əylənməyə uyub təlim prosesindən uzaqlaşmasın. Digər tərəfdən, bütün xəbərlərin eyni bir ravi tərəfindən eyni bir dinləyiciyə söylənməsi və vəzirin də daim söhbətdə iştirakı əsərə yunan filosoflarının əsərlərini xatırladan mükalimə ruhu verir. Ola bilsin ki, Yaqutun "ədiblərin filosofu və filosofların ədibi" kimi tanıtdığı Əbu Hayyən ət-Tauhidi yunan filosofları Platonun, Sokratın dialoq tipli əsərləri ilə tanış olmuşdur. Çünki artıq xəlifə əl-Məmunun dövründən *Beyt əl-hikmə* adlı institut-kitabxanada yunan filosoflarının bir çox əsərləri ərəb dilinə tərcümə olunmuşdur.

Qeyd edək ki, bəzi gecələrdə vəzirin sadəcə olaraq ölkədə baş verənlərdən xəbərdar olmaq istəyini görürük. Üçüncü gecədə o, Əbu Hayyəndən bir xorasanlı ilə olan əhvalatı danışmasını istəyir; məlum olur ki, xorasanlı Buveyhilərə rəğbət bəsləyən bir adamdır. Sonra vəzir ondan

ziyarət etdiyi məclisdəki insanlar haqqında, onların etdiyi söhbətlər barədə soruşur, Hiss olunur ki, söhbətin istiqaməti Əbu Hayyənin xoşuna gəlmir. "Mən insanlara böhtan atan, qiybət qıran, fitnə törədən biri olmaq istəmirəm," -- deyir. Vəzir başa salır ki, hər bir ali məqam sahibi ölkədə baş verənləri bilməlidir və burada pis bir şey yoxdur. Peyğəmbər və xəlifələr də insanlar barədə lazımı informasiyanı toplayırdılar (s.54-55).

Əsərdə o dövrdə bütün insanları düşündürən ərəb-əcəm münasibətləri, onların müqayisəsi də yer alır. Müəllif ibn əl-Muqaffanın dilindən o dövrün əsas xalqları -- ərəblər, farslar, türklər, hindlilər, zəncilər və başqaları barədə mülahizələr söyləyir.

*Əl-İmtə va l-muənəsə* ədəbi-fəlsəfi bir əsərdir. Burada müəllifin dövründə məlum olan bir sıra elmi biliklər öz əksini tapıb, çoxsaylı ədib və filosoflara istinadlar edilib, onların mülahizələri əks olunub. Əsərin dili Əbu Hayyənin dövrünə xas nəsr estetikasını əks etdirir. Burada səc (سجع), təcnis (تجنيس) və icəz əl-kəlam (ايجاز الكلام) kimi üslubi metodlara riayət edilir.

Əsərdə bir sıra dilçilik məsələləri də öz əksini tapıb. Məs., söhbətlərin birində vəzir ondan عتيق sözünün mənasını izah etməsini istəyir. ət-Tauhidi deyir(s.45-46):

*Bunun cavabı belədir ki, "atıq" iki cür işlənir: Birinci mənada kəramət, gözəllik və əzəmətə işarə olunur. Bu, ərəblərin dilində əl-Beyt əl-atıq (Kəbə) kimi ifadə olunur. Digər məna isə olduqca qədim, bizə məlum olmayan zamanı bildirir. Əl-abd əl-atıq (azad edilmiş qul) ifadəsi isə birinci məna ilə bağlıdır. Çünki ona azadlıq bəxş edilmişdir və o, köləlikdən qalxıb ucalmış, kəramətli olmuşdur. Eləcə də "vach atıq" (gözəl üz) təbiətin eybəcərlikdən xilas etdiyi üzü bildirir. "Fəras atıq" (cins at) da bu mənaya uyğundur.*

Əbu Hayyənin bəzi risalələri də var. *Risalə fi l-kitəbə* (رسالة في الكتابة) katiblik sənətinə həsr olunub. Sələfləri Abd əl-Həmid əl-Katib, ibn əl-Muqaffa, ibn Quteybə kimi Əbu Hayyən də katiblərə bu sənətin incəliklərini başa salıb.

**Bir tikə çörək ardınca**

Orta əsr ziyalısının maddi durumu büsbütün himayədarların səxavətindən asılı idi. Təsadüfi deyil ki, mədhiyyə ən geniş yayılmış şeir janrı idi. Bu şeirlərdə sürəkli olaraq məmduhun səxavəti təriflənirdi. Bəzən ən adi bir ehtiyacın ödənilməsi də məmduhun mərhəmətinə əsaslanırdı. Məs. Seyf əd-Daulə əl-Hamdəninin saray şairi Əs-Sanaubəri adi bir çəkmə qədər kiçik bir ehtiyacını ödəmək üçün hökmdara müraciət edir. Onun aşağıdakı şeiri şairin hədiyyə kimi gözlədiyi ayaqqabının təsvirini verən unikal, eyni zamanda yumoristik bir nümunədir:

*Ayyaqqabılar nə vaxt gəlib mənə çatacaq? Yol üstədirlərmi, yoxsa yola düşməyə hazırlaşırlar?*

*Rəngi (yəqin ki,) qaradır. Parıltısı ilə ilğıma bənzəyir.*

*Bəlkə də sarıdır və qızılı paltara bürünmüş günəş kimidir.*

*Bəlkə də alabəzəkdir. Çələng kimi rəngbərəng naxışlıdır.*

*Bəlkə də boz sincab rəngindədir, öz görünüşü ilə boz ənbəri xatırladır.*

*Bəlkə də pion gülü kimi qırmızıdır. Belə olsa, qəribə olar.*

*Bəlkə də sarı-qırmızı (kürən) rəngli olub gözəllikdə süsən gülü ilə bəhsə girişir.*

*Əgər yaşıl olduğunu bilsəydim, deyərdim ki, yosunların bəzədiyi suya bənzəyir.*

Şeir bu tərzdə davam edir. Şair xəyali ayaqqabısını müxtəlif heyvanlara, quşlara, bakirə qızlara bənzədir. Belə bir ayaqqabı geyinərsə ilan kimi, əqrəb kimi sürünəcəyini bildirir:

*Əgər (bu ayaqqabını) alsam gah ilan kimi geri sürünərəm, gah da əqrəb kimi irəli gələrəm.*

*Bu vəsfim ola bilər ki, kiminsə nəzərindən qaçacaq, amma sənin nəzərindən yayınmaz.*

Əs-Sanaubəri nəyə görə belə bir şeir yazmışdır? Hamdəni hömdarı Seyf əd-Dauləyə ünvanlanmış bu şeir əs-Sanaubərinin ən zəruri tələbatında belə hökmdara möhtac olduğunumu bildirir, yoxsa bu şeir sadəcə bir ədəbi istiqaməti, ənənəni əks etdirir? Məlumdur ki, saray şairlərinin *mədhiyyə*lərində daim məmduhun səxavəti qeyd edilir və bununla da məddah şair yazdığı şeir müqabilində nə isə umduğunu bildirir. Bu şeir isə *vəsf* janrındadır. Burada adi bir geyim əşyası – ayaqqabı təsvir olunur. Şair hökmdardan gözlədiyi hədiyyəni təsvir edir. Əs-Sanaubarinin bu şeiri əl-Buhturinin təsiri ilə yazması qeyd olunur; Abbasilərin məddah şairi bu cür bir vəsf ilə xəlifədən at istəmişdir. Vəsfin bu növü *istihdə* (الاستهداء) adlanır, yəni "hədiyyə xahişi ilə yazılan şeir". Bu şeiri dinləyən hökmdarın əs-Sanaubəriyə ayaqqabı bağışlamaması, və yaxud vəd etdiyi ayaqqabını şairə göndərməməsi mümkün görünmür. Şeir yumor elementləri ilə həm də əyləndirici tərzdədir.

Görünür, illər boyu yüksək qayələr, təmtəraqlı təriflər ardınca qaçan mədhiyyə janrı atrıq yorulmuşdu. Janrın nəfəs dərməyə, öz halına gülməyə ehtiyacı var idi. İllər sonra özünə gülmək, öz durumuna istehza etmək İbn Dənyəl əl-Mausili (1248-1311) şeirində xüsusi bir qüvvə ilə canlanır. İbn Dənyəl poeziyasında indiyədək ərəb şeirində çox az rast gəldiyimiz yumoristik ruh və realist təsvir hökm sürür. Aşağıdakı şeirdə şair öz kasıb evini incə bir yumorla təsvir edir:

*Pişiklər yeməyə bir şey tapmaq üçün evimi tərk etdilər. İtlər sümüyün üzünü belə görmürlər.*

*Qazan qoyduğum sobalar belə soyuyub. Soba üzərindəki hörümçəklər artıq bezmişlər.*

*Çömçələrim yanar odla oynamaqdan azad edilib. Yağ nehrələrimiz izi itmiş oba qalığıtək parlayır.*

*Masa süfrələrimiz elə ağarıb və iysiz-qoxusuz qalıb ki, sanki ağ baş örtükləridir.*

*Bir zamanlar (hisdən) qaralmış qazanlarımız və tavalarımız indi lap bozarıb.*

*Evdə ətirli ədvalar belə yoxa çıxdığından, qarışqalar da bizi tərk edib.*

*Mən quru meyvələrlə (qidalanmağa) qane olanlardan deyildim. Pendiri belə kefim istəməsə, yeməzdim.*

*Allah bizə səxavətlə harisəli günlər qismət eləsin. Səxavət buludları ilə üzərimizə yağ yağdırsın.*

Əslində saraya sığınan bütün şair və ədiblər bənzər talelər yaşayırdı. Ət-Tauhidinin əsərlərindən də onun dövründə elm və ədəbiyyat əhlinin üzləşdiyi çətinliklərlə tanış oluruq. Bu adamların əksəriyyətinin dolanışığı sərvət sahiblərinin xeyriyyəçiliyindən asılı idi. Sərvət və mənsəb sahibləri arasında elmə, ədəbiyyata qiymət verənlər olduğu kimi, kobud, özündən razı, bu insanlarla öz şöhrətləri naminə ünsiyyətdə olan, amma yeri gəldikcə onları aşağılayanlar da vardır. Yaqutun *Mucəm əl-buldən* əsərindən gətirdiyimiz aşağıdakı parça Əbu Hayyənin *əl-Muhadarat* əsərindəndir.

Əbu Hayyənin dilində belə nəql edilir (Yaqut ss. 1936-1937):

*Bir dəfə mən ən-Nusaybi ilə olduqca səxavətli, qapısına gələni əliboş qaytarmayan, onları ümidsiz qoymayan bir insan kimi tanınan sərvət sahibinin evinə yollandım. Dillər bir ağızdan onun əliaçıqlığından, bu işdə hədsiz kəramət göstərməsindən danışır, gözlər onun verdiyi hədiyyələri gördüyünü*

*bildirirdi. Onun elm əhlinə və tanınmış adamlara, zəmanənin zəif saldığı insanlara, dostlardan cəfa görənlərə olan xeyirxahlığı intəhasız imiş. (Biz onun evinə yollandıq), lakin onu evdə tapmadıq. İkinci dəfə getdik, amma içəri daxil olmağımıza icazə verilmədi. Üçüncü dəfə gedərkən bizə dedilər ki, o hara isə yollanıb. Dördüncü dəfə getdik, bu zaman onun hamamda olduğunu dedilər. Beşinci dəfə gedəndə o yatmışdı. Altıncı dəfə gedərkən poçt müdirinin onun yanında olduğunu, onların vacib işlə məşğul olduqlarını dedilər. Yeddinci dəfə gedəndə dedilər ki, o, heç kimi qəbul etməyəcəyini bildirib. Səkkizinci dəfədə onun yemək yediyini və vacib səbəb olmadan onunla görüşməyin yaxşı olmadığını dedilər. Doqquzuncu dəfə getdikdə bizə dedilər ki, ağanın oğlanlarından biri pilləkəndən yıxılıb, o, övladının başı üzərində dayanıb onu tərk etmir, övladı ilə məşğuldur. Onuncu dəfə gedəndə dedilər ki, o, dərman içməyə hazırlaşır. On birinci dəfədə onun iki gündür dərman içdiyini və başqa heç bir işlə məşğul olmadığını, hərəkət etməyə qüvvəsi qalmadığını dedilər. On ikinci dəfə gedərkən indicə yataqdan qalxıb hücrəsinə getdiyini dedilər. On üçüncü dəfə gedərkən bizə dedilər ki, o, vacib bir işlə bağlı saraya çağrılıb. On dördüncü dəfə gedərkən onu imarətə gedən yolda gördük. On beşinci dəfə gedərkən bizə asanlıqla içəri keçməyə izn verildi; içəridə adamların bir tünlük yaratdığını, dəstə-dəstə oturduğunu, bir qrup adamın da onların oturmasına şərait yaradıb xidmət göstərdiyinin şahidi olduq. Adamlar ev sahibinə başsağlığı verirdilər. Heç kim bizimlə məşğul olacaq halda deyildi. Biz isə ac, susuz, sidiyimizi zorla saxlayan bir durumda axıradək ayaq üstə qaldıq.*

*Ən-Nusaybi mənə dedi: "İçəri daxil olduğumuz üçün zəfər günümüz saydığımız bu gün bizim üçün daha böyük müsibət oldu. Bizim buranı tərk etməkdən, bu adamdan uzaq olmaqdan və bundan sonra başqalarının malına tamahımızı boğmaqdan başqa yolumuz yoxdur". Ona dedim ki, biz onun qapısına getməkdən yorulduq və özümüzü də yüngül apardıq, amma onu görə bilməməyimizin aşkar üzrlü səbəbləri var idi.*

*Təziyə günləri keçəndən sonra biz yenidən onun yanına getdik ki, bəlkə onun tərəfindən ümid etdiyimiz bir şeyə nail olaq. Biz iyirmi dəfədən də çox o adamın qapısına ayaq döydük, amma hər dəfə onu görüb danışmaq şansımız daha az oldu. Axırda ən-Nusaybi bezib dedi: Əgər bilsəm ki, bu adamın evi cənnətdir, onunla görüşmək əbədi səadətdir və kəlamı da Allah rizası ilə əbədi nicatdır, mən bir daha bura ayaq basmaram. Sonra o (kamil bəhrində) dedi:*

*Səxavətli adamın əli ehtiyacı olan bir zavallının əllərinə dağ başından süzülən su kimi (sərvət) yağdırar.*

*Amma boş izzət sahibindən bir şey uman onun acıqlı üzü ilə rastlaşar.*

*Sənətimin (yararsızlığı) və qəzav-ü qədərin başıma gətirdikləri, səylərimin boşa çıxması və ümidlərimin puç olması, üzücü hadisələr və bədbəxtliklər səbəbindən mən gözlərimdən sel kimi axan yaşlarla ona cavab verib dedim.*

*Dünya qabiliyyətsiz adamlara mehribanca yaxınlaşıb, ağıllı və ləyaqətli adamlardan üz döndərir.*

*Dünyanın ağalarına salam verdim, amma sanki pəltəklərə salam verirmiş kimi (cavab almadım).*

**Vəzirlərin himayəsində**

Əbu Hayyənin məşhur əsərlərindən biri onun *Əxlaq əl-vazireyn* əsəridir. Qeyd etdiyimiz kimi, bu əsərdə o, Buveyhilər dövrünün iki görkəmli vəziri – Əbu l-Fəth ibn əl-Amid və Sahib ibn Abbəd barədə fikirlərini əks etdirib. Hər iki vəzirin katibi olmuş Əbu Hayyən məqsədinin heç də bu vəzirləri pisləmək olmadığını, onların həm yaxşı, həm də pis cəhətlərini göstərmək istədiyini bildirir. Əbu Hayyən Bağdadda baş verən bir çaxnaşmada bütün əmlakını itirdikdə ibn əl-Amidin yanına yollanır. Qeyd etdiyimiz kimi, Buveyhilər dövründə hədsiz qüdrət sahibi

olan vəzirlər öz şöhrətləri üçün dövrün görkəmli ədib və şairlərini, ilahiyyat alimlərini himayəyə götürür, onları öz məclislərinə dəvət edirdilər. Əbu Hayyən göstərir ki, ibn əl-Amid evində bu adamlar üçün məclislər qururdu. O, bir gün fəqihləri, o biri gün ədib və şairləri, sonrakı gün din alimlərini – üləmanı, sonrakı gün filosofları və b. evinə dəvət edib onlarla söhbətlər edir, fikirlərini dinləyir, bu adamlara pul hədiyyə edirdi. Əbu Hayyən ibn əl-Amidlə bağlı bir sıra xatirələrini əks etdirir. O göstərir ki, ibn əl-Amid gənc, cəsarətli, ağıllı bir dövlət adamı, istedadlı bir ədib və şair olub, amma təəssüf ki, o, gənc yaşında dünyadan köçdüyündən onun bir çox qabiliyyətləri açılmamış qalır.

Əbu Hayyən Sahib ibn Abbədə daha tənqidi yanaşır, onun xarici görkəmini, intellektini, əxlaqını pisləyir. Hiss olunur ki, vəzirlə katib arasında münasibət gərgin olub. Əbu Hayyən Sahib ibn Abbədin sarayındakı şeir məclislərini, ədəbi yığıncaqları təsvir edir, bu məclislərdə dəfələrlə vəzir tərəfindən təhqirlərə məruz qaldığını bildirir. Qəzəbi qorxulu, səxavəti az olan Sahib ibn Abbəd istədiyi adamı həbs etdirir, edamına fərman verir və ya sürgün etdirirdi.

Əsərdə Buveyhilər dövründə hökm sürən məmur özbaşınalığı, xaos və qarışıqlıq, ziyalı təbəqənin ağır durumu, onların özlərindən ağıl və istedad cəhətdən geri qalan sərvət sahiblərinə yarınmaq məcburiyyətində olması müəllifin təsirli qələmi ilə əks olunub.

Beləliklə, Əbu Hayyən ət-Tauhidinin ədəbi sintez dövrünün böyük ədibi olduğunu, öz yaradıcılığı ilə bu dövr nəsrinin mühüm cəhətlərini əks etdirdiyini görürük. Bu əsərlər yalnız yüksək üslublu nəsr nümunəsi olmaqla kifayətlənmir. Ət-Tauhidi əsərləri Müsəlman İntibahı adlanan bir dövrdə ziyalı təbəqənin maddi və mənəvi durumunu izləmək baxımından da olduqca əhəmiyyətlidir.

**ƏDƏBİYYAT**


1. Berge M. "Abu Hayyan al-Tawhıdı", *Abbasid Belles lettress*, Cambridge University Press, 1990.
2. Güner, Ahmet. "ibn Sa'dân, Hüseyin b. Ahmed", *İslam Ansiklopedisi*, cilt 20, 297-298.
3. Qasımova A. *Ərəb ədəbiyyatı, V-XIII əsrlər*, Bakı, Eım, 2019.
4. Pomerantz, Maurice. "ṢĀḤEB EBN ʿABBĀD, ESMĀʿIL," *Encyclopædia Iranica*, online edition.
5. Watt, W. M. "ABŪ ḤAYYĀN TAWḤĪDĪ," Encyclopædia Iranica, I/3, pp. 317-318.
6. Босворт К.Э. *Мусульманские династии. Справочник по хронологии и генеалогии.* Пер. с англ. П. А. Грязневича. М.: Наука, 1971.

7. ابن الأثير، *الكامل في التاريخ*، VIII ، بيروت، 1966
8. أبو حيان التوحيدي، علي بن محمد بن العباس، *الامتاع والمؤانسة*، المكتبة العصرية، بيروت، 2011
9. الإسلامي، 1993.
10. جرجي زيدان، *تاريخ آداب اللغة العربية*، الجزء الثاني، القاهرة، د.ت.
11. حسن إبراهيم حسن، *تاريخ الإسلام السياسي والديني الثقافي والاجتماعي*، القاهرة 1955
12. زكريا ابراهيم، *أبو حيان التوحيدي: أديب الفلاسفة وفيلسوف الأدباء*، القاهرة، 1924
13. صلاح الدين الصفدي، *كتاب الوافي بالوفيات*، باعتناء محمد الحجيري، شتوتغارت-- بيروت، دار صادر1991
14. عائدة شاهلار قاسموفا، *نوابغ نهضة الاسلام دراسة في سيرتي المتنبي و بديع الزمان الهمذاني*، باكو 2013
15. *كتاب نشوار المحاضرة وأخبار المذاكرة* التنوخي، المحسن بن علي.

https://al-maktaba.org/book/10275/1518#p1

16. ياقوت الحموي ، معجم *الأدباء إرشاد الأريب إلى معرفة الأديب*، المحقق: إحسان عباس، دار الغرب

*2022. Volume 6, Number 2* *Pages 89-94*

***UOT:37(094)***

# ERKƏN YAŞDA İKİNCİ DİL OLARAQ İNGİLİS DİLİ ÖYRƏNMƏNİN FAYDALARI

**NƏRMİN ƏLİZADƏ**

Bakı Mühəndislik Universiteti

Xarici dillər kafedrası

*nalizade@beu.edu.az*

**XÜLASƏ**

Bu gün dil öyrənməyin vacib amillərindən biri də yaş faktoru olmalıdır. Tədqiqat nəticələrinin əksəriyyəti bizə erkən yaşda dili öyrənməyin bir çox üstünlüklərinin olduğunu göstərir. Bir sıra tədqiqatlar göstərir ki, uşaqlar dili böyüklərdən daha yaxşı mənimsəyə bilirlər. Xarici dil öyrənmək məsələsinə ciddi yanaşmaq istəyiriksə, əsas prinsiplərdən biri erkən başlamaqdır. Uşaqlar ingilis dilinin tələffüzünü böyüklərdən daha yaxşı öyrənirlər. Dilin düzgün mədəniyyətin güzgüsü olduğu yerdə deyə bilərik ki, gənc tələbələr asanlıqla istənilən xarici dildə danışa və doğma ingiliscə danışanları təqlid edə bilərlər. Dil demək olar ki, bütün insan münasibətlərinin mərkəzində dayanır. İnsanlar özlərini qruplaşdırdıqları şəkildə başqaları ilə münasibət qurmaq üçün dildən istifadə edirlər. Onlar öz davranışları ilə cəmiyyətin sistemini və strukturunu təşkil edirlər. Ona görə də dil şəxsiyyətin qurulmasıda vacib amildir. Əslində, deyə bilərik ki, uşağın inkişaf mərhələləri bizə açıq şəkildə göstərir ki, o, dil öyrənərkən sosial mühitə və mədəni dəyərlərə bələd olmağa başlayır və buna görə də dil öyrənərkən müəyyən bir şəxsiyyət qazanacaqdır.Dil demək olar ki, bütün insan münasibətlərinin mərkəzində dayanır. İnsanlar özlərini qruplaşdırdıqları şəkildə başqaları ilə münasibət qurmaq üçün dildən istifadə edirlər. Onlar öz davranışları ilə cəmiyyətin sistemini və strukturunu təşkil edirlər. Ona görə də dil şəxsiyyətin qurulmasıda vacib amildir. Əslində, deyə bilərik ki, uşağın inkişaf mərhələləri bizə açıq şəkildə göstərir ki, o, dil öyrənərkən sosial mühitə və mədəni dəyərlərə bələd olmağa başlayır və buna görə də dil öyrənərkən müəyyən bir şəxsiyyət qazanacaqdır.

**Açar sözlər:** dil, yeniyetmə, ingilis dili, sosial mühit.

**BENEFITS OF LEARNING ENGLISH AS A SECOND LANGUAGE AT AN EARLY AGE**

**ABSTRACT**

One of the most important factors in language learning today is the age factor. Most research shows that learning a language at an early age has many benefits. A number of studies show that children learn the language better than adults. If we want to take a foreign language seriously, one of the basic principles is to start early. Children learn English pronunciation better than adults. Where language is a mirror of true culture, we can say that young students can easily speak any foreign language and imitate native English speakers. Language is at the heart of almost all human relationships. People use language to communicate with others in a grouped way. They form the system and structure of society by their behavior. Therefore, language is an important factor in building personality. In fact, we can say that the stages of a child's development clearly show us that when he learns a language, he begins to become aware of the social environment and cultural values, and therefore will acquire a certain personality while learning the language. Language is at the heart of almost all human relationships. People use language to communicate with others in a grouped way. They form the system and structure of society by their behavior. Therefore, language is an important factor in building personality. In fact, we can say that the stages of a child's development clearly show us that when he learns a language, he begins to become aware of the social environment and cultural values, and therefore will acquire a certain personality while learning the language.

**Keywords**: language, teen, English, social environment

**ПРЕИМУЩЕСТВА ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО КАК ВТОРОГО ЯЗЫКА В РАННЕМ ВОЗРАСТЕ**

**РЕЗЮМЕ**

Одним из наиболее важных факторов в изучении языка сегодня является возрастной фактор. Большинство исследований показывают, что изучение языка в раннем возрасте имеет много преимуществ. Ряд исследований показывает, что дети учат язык лучше, чем взрослые. Если мы хотим серьезно относиться к иностранному языку, один из основных принципов — начать как можно раньше. Дети учат английское

произношение лучше, чем взрослые. Там, где язык является зеркалом истинной культуры, мы можем сказать, что молодые студенты могут легко говорить на любом иностранном языке и подражать носителям английского языка. Язык лежит в основе почти всех человеческих отношений. Люди используют язык для группового общения с другими людьми. Своим поведением они формируют систему и структуру общества. Поэтому язык является важным фактором формирования личности. Фактически можно сказать, что этапы развития ребенка ясно показывают нам, что, когда он изучает язык, он начинает осознавать социальную среду и культурные ценности, а потому приобретет определенную личность при изучении языка. Язык лежит в основе почти всех человеческих отношений. Люди используют язык для группового общения с другими людьми. Своим поведением они формируют систему и структуру общества. Поэтому язык является важным фактором формирования личности. Фактически можно сказать, что этапы развития ребенка ясно показывают нам, что, когда он изучает язык, он начинает осознавать социальную среду и культурные ценности, а потому приобретет определенную личность при изучении языка.

**Ключевые слова:** язык, подросток, английский язык, социальная среда.

Bu çox mübahisəli məsələnin araşdırılmasına çoxlu vaxt, enerji və pul sərf edilmişdir. Təəssüf ki, nəticələr qeyri-müəyyəndir, çünki tələbələrin yaşını öyrənmə mühiti, motivasiya və tədris keyfiyyəti kimi digər müvafiq amillərdən ayırmaq demək olar ki, mümkün deyil. Bir çox insan dil öyrənmədə "kritik dövr" olduğuna inanır ki, bu da ikinci dil öyrənməyə aid ola bilər. Bu yaşda olan uşaqlar inkişaf edir və onların beyinləri dil öyrənməkdə uğurlu olur. Əksər insanlar bu yaşı yetkinlik dövründən əvvəl, uşaqların anadangəlmə öyrənməyə daha çox güvəndiyi bir dövr kimi düşünür. Yeniyetməlik dövründə öyrənənlər çox vaxt daha formal öyrənmə "bacarıqlarına" və "strategiyalarına" etibar edirlər. Bu, böyüklərlə müqayisədə uşaqların xarici dilləri öyrənməsində əhəmiyyətli dərəcədə daha böyük uğurlara səbəb ola bilər, eyni zamanda uşaqların məktəbdə oxumaq üçün daha çox vaxtının olması kimi digər amillərlə də bağlı ola bilər. Bu da ola bilər ki, uşaqlar televiziya və internet vasitəsilə böyüklərdən daha çox ingilis dili ilə tanış olurlar. Aydın görünür ki, 15 yaşından əvvəl ikinci dili öyrənən uşaqların həmin ikinci dildə "ana dili kimi" səlis danışıq qabiliyyətinə sahib olma ehtimalı daha yüksəkdir.Dil hər bir insanın inkişafında ən güclü vasitədir. Bu, şübhəsiz ki, sahib olduğumuz ən böyük sərvətdir. Dili yaxşı qavramaq sağlam düşünmə qabiliyyəti ilə sinonimdir. Başqa sözlə, dil və düşüncə ayrılmazdır" (Vygotsky 1986). Dil uşaqların şəxsiyyətinin formalaşması prosesini dəstəkləməkdə və onlara daxil olduqları yeni mühitdə harada uyğunlaşdıqlarını anlamaqda böyük rola malikdir. Dilin mənimsənilməsi yalnız uşaqların idrak inkişafı üçün deyil, həm də sosial inkişafı və rifahı üçün vacibdir. Gənc uşaqlar üçün böyüklər və digər uşaqlarla qarşılıqlı əlaqə dilin mənimsənilməsinin açarıdır.

Altı yaşından kiçik uşaqlar hələ də ana dillərini mənimsəmə mərhələsindədirlər. Bununla belə, üç yaşına qədər onlar danışıq dilinin inkişafının çoxuna nail olurlar. Bu yaşda olan bir çox uşaq artıq öz ana dilini mükəmməl bilir ki, bu da ingilis dilini ikinci dil kimi öyrənmək üçün əsaslı zəmin yaradır. Bu zamana qədər uşaqlar dil və onun necə işlədiyini bilirlər. Onlar başqaları ilə ünsiyyət qurmaqda məşq edirlər və bu bacarıqları ikinci dillərini öyrənməyə tədbiq edirlər.

Azərbaycanlı valideynlər tez-tez bu mövzu ilə bağlı iki əks fikirdə olurlar: valideynlərin əksəriyyəti övladlarının mümkün qədər tez xarici dil öyrənməsini istəyir, digərləri isə xarici dilləri öyrənməzdən əvvəl onların ana dillərinə diqqət yetirmələrini istəyir.Ümumiyyətlə, müxtəlif həyat mərhələləri bizə dil öyrənməkdə fərqli üstünlüklər verir. Körpə olaraq, müxtəlif səslər üçün daha yaxşı qulağımız var. Yeniyetmələr kimi biz yerli aksentləri təəccüblü sürətlə aşkar edə bilirik. Yetkinlər kimi bizim daha uzun diqqətimiz və savad kimi mühüm

bacarıqlarımız var ki, bu da bizə hətta öz dilimizdə belə lüğət ehtiyatımızı daim genişləndirməyə imkan verir.İngilis dilini ikinci dil kimi öyrənən uşaqların erkən uşaqlıq dövründə müsbət nəticələr əldə etməsi üçün valideynlərlə güclü tərəfdaşlıq vacibdir. Valideynlərlə tərəfdaşlıq ilk növbədə bərabərliyə əsaslanır. Mədəniyyət və dil baxımından müxtəlif mənşəli ailələri dəstəkləyərkən erkən uşaqlıq dövrü peşəkarları ədalətliliyi təmin etmək və hamı üçün aidiyyət hissi yaradan dinamik münasibətlər qurmaq üçün məsuliyyət daşıyırlar.

Yaşlanmanın xaricində, sosial şərait, tədris üsulları, hətta sevgi və dostluq kimi bir çox faktor bizim neçə dildə danışdığımıza və nə qədər yaxşı danışdığımıza təsir edə bilər.Gənc uşaqların yaxşı bildiyi şey dolayı yolla öyrənməkdir: ana dilində danışanları dinləmək və təqlid etmək. Bununla belə, bu cür öyrənmə doğma danışanlarla çox vaxt keçirməyi tələb edir. Yaxşı, bütün tədqiqatçılar razılaşırlar ki, uşaq ikinci dili nə qədər tez öyrənməyə başlasa, birdən çox səbəbə görə bir o qədər yaxşıdır. Bəzi tədqiqatçılar deyirlər ki, ikinci dil əldə etmək bacarıqları 6 və ya 7 yaşında və ya ondan əvvəl zirvəyə çatır. Digərləri isə bu mərhələnin yetkinlik dövrünə qədər uzandığını iddia edirlər. Ancaq hamısı razılaşır ki, yetkinlik yaşına çatmamış bir uşaq üçün yeni bir dil öyrənmək daha çətindir.

Mahnılar, oyunlar və uşaqlarla təbii söhbətlərdən istifadə edərək, ikinci dili ana dili kimi təqdim etmək tövsiyə olunur. Əyləncə elementi olmadan uşaqlarla öyrənmək demək olar ki, mümkün deyil. Dil öyrənmək bütün yaşlar üçün zənginləşdirici təcrübə ola bilsə də, xüsusilə uşaqlar bu macəradan ən çox faydalanacaqlar. Çünki uşaqlar həmişə yeni şeylər kəşf edir və öyrənməyə çalışırlar. Onlar üstün dil öyrənənlər hesab olunurlar. Uşaqların dili öyrənmə üsullarını araşdıran Dilçilik professoru Dr. Curtiss-ə görə, uşaqların qarşısına nə qədər dil çıxarsaq da, uşaqların onları öyrənmək üçün böyük gücü var. Eyni zamanda sistematik və müntəzəm olaraq eşitmələrinə icazə verdiyiniz qədər onlar danışıq dilini öyrənə bilərlər. Uşaqlar yalnız bu qabiliyyətə malikdirlər. Eyni anda bir neçə dil inkişaf etdirə bilərlər.Uşağınızı gənc yaşda xarici dillə tanış etmək onun beynini ən çevik mərhələdə formalaşdırmağa kömək edir və uşağa öyrənmə potensialını optimallaşdırmağa imkan verir. Gənc uşaqlar xarici dil öyrənmək üçün unikaldırlar. Gənc yaşda xarici dil öyrənmək idrak baxımından ilk dili öyrənmək qədər asandır. Azyaşlı uşaqlar yeriməyi öyrəndikləri kimi, doğma dilini də asanlıqla qavraya bilərlər. Yetkinlər qurulmuş ilk dil sistemi ilə işləməli, aydın qrammatik qaydaları öyrənməli və əzbərləməyə çalışdıqları halda, kiçik uşaqlar təbii şəkildə öyrənirlər, öz ana dillərində olduğu kimi xarici dilin səslərini, strukturlarını, intonasiya nümunələrini və qaydalarını intuitiv şəkildə mənimsəyirlər. Gənc beyin təbiətcə çevikdir, dili təbii şəkildə əldə etmək üçün unikal şəkildə təchiz edilmişdir.Bioloji səviyyədə uşaqların qavrama bacarığı süngər kimidir. Uşağın beyni şüursuz şəkildə yeni məlumatları qəbul etmək üçün nəzərdə tutulmuşdur. Onlar bunu bizim böyüklər kimi şüursuz şəkildə mahnı sözlərini, ritmləri və melodiyaları öyrəndiyimiz kimi edirlər.

Başqa dilləri öyrənməyin bir çox əyləncəli yolları var. Ən yaxşı yol, uşaqları oyunda, böyüklər və digər uşaqlarla söhbətlərdə, mahnı və oyunlarda, nağıllarda və qafiyələrdə təbii dildən istifadə etməklə əhatə etməkdir. Bütün uşaqlar başqa dillərdə sözlərin mənasını öyrənə bilər. Valideynlərdən uşaqlarla öz ana dillərində danışmaq, mahnı və qafiyələr öyrətməklə, yemək bişirmək kimi kiçik qrup təcrübələrində kömək etməklə dil öyrədə bilərlər.Həyatın ilk üç ilində uşağın dil inkişafının əsasları qoyulur. Bu dövrdə yeniyetmələrin zəngin dil təcrübəsinə malik olması çox vacibdir. Körpələr ilk sözlərini demədən çox əvvəl dili öyrənirlər. Onlar dinləməyi və müxtəlif səsləri ayırd etməyi öyrənirlər. Bu dövrdə valideynlər və baxıcılarla

qarşılıqlı əlaqə çox vacibdir. Həyatın ilk on iki ayı ərzində körpələr dinləmək və diqqətini cəmləmək üçün üzlərə və səslərə ehtiyac duyurlar. Körpələr üçün bu erkən qarşılıqlı əlaqə ünsiyyət və həm ana dildə, həm də ikinci dil kimi ingilis dilində öyrənmək üçün əsas yaradır. İlk illərdə dilin davamlı inkişafı üçün əsas yaradır. Bu dövrdə ünsiyyətin əhəmiyyətli bir tərəfi 'birgə diqqətdir. Birgə diqqət böyüklər ikitərəfli prosesdə kiçik uşaqlarla sosial qarşılıqlı əlaqədə olduqda baş verir. Erkən uşaqlıq dövrü mütəxəssisləri uşaqları danışmaq, söz oyunları oynamaq, səslər çıxarmaq və körpələrin və körpələrin böyüklərlə ünsiyyət qurmaq cəhdlərinə cavab verməklə ikitərəfli ünsiyyətə cəlb edə bilərlər. Körpələr danışmağa, qucaqlaşmağa, oynamağa və mahnı oxumağa çox həssasdırlar. Erkən uşaqlıq dövrü mütəxəssisləri körpələrin mümkün qədər çox müsbət dil təcrübəsinə məruz qalmasını təmin etməkdə mühüm rola malikdirlər (Siraj-Blatchford və Clarke 2000). Körpələrin problemləri araşdırmaq, öz dillərini eşitmək və ingilis dilini eşitməyə və istifadə etməyə başlamaq azadlığına ehtiyacı var. Erkən uşaqlıq dövrü mütəxəssisləri ailələrin təcrübələri, dəyərləri və inancları haqqında biliklərə əsaslanan müsbət mühitlər inkişaf etdirməlidirlər. Onlar erkən uşaqlıq dövrü mütəxəssisləri və uşaqlar arasında sıx qarşılıqlı əlaqə üçün imkanlar və fərdlər və kiçik qruplar üçün sakit məkanlar təmin etməlidirlər. Təqdim olunan fəaliyyətlər uşaqların mədəni və linqvistik təcrübələrini əks etdirməlidir. Körpələrə ingilis dilini ikinci dil kimi öyrənməyə kömək etmək üçün həyata keçirilən fəaliyyətlər ingilis dilinin ilk dili olan uşaqlar üçün nəzərdə tutulan fəaliyyətlərdən heç də fərqlənmir. Xüsusilə təkbətək əsasda və ya kiçik qrupda baş verən bir sıra qarşılıqlı əlaqələri təmin etmək vacibdir. Bu müntəzəm qarşılıqlı əlaqə dili öyrənmək və tətbiq etmək üçün ən yaxşı nəticələri təmin edir.Bəzi erkən yaş mütəxəssisləri və valideynlər hesab edirlər ki, ingilis dili məhdud olan uşaqlar məktəbə başlamağa hazır olmaya bilər. Onlar hesab edirlər ki, uşaqların ingilis dili səviyyəsi məktəb mühitinin öhdəsindən gəlmək üçün yetərli olmayacaq. Uşaqların bir az ingiliscə danışması və ehtiyac və istəklərini çatdıra bilməsi üstünlük olsa da, bəzi uşaqlar ingilis dili ilə tanış olmadan məktəbə başlayır və məktəblərdə bu yeni öyrənənləri dəstəkləmək üçün proqramlar var. İngilis dilində danışmaq bacarığı olan uşaqlar üçün məktəb mühitində istifadə edə biləcəkləri vacib bir varlıqdır. Bununla belə, uşaqların məktəbə hazırlığı bir çox cəhətdən özünü göstərir. Məsələn, uşaqlar ətrafdakı digər uşaqlar haqqında məlumatlı olduqlarını nümayiş etdirməli və sosial kontekstdə başqaları ilə münasibət qura bilməlidirlər. Risk götürüb həmyaşıdları və ya böyüklərlə ingiliscə bir neçə sözlə belə danışa bilmək uşağın məktəbə "sosial" hazır olduğunun göstəricisidir. Digər bacarıqlara özünə inam, müsbət sosial bacarıqlar və öyrənməyə maraq daxildir. Məktəbəqədər yaşda erkən uşaqlıq dövrü mütəxəssisləri uşaqlarla sosial bacarıqlarını inkişaf etdirmək üçün işləyirlər ki, onlar ingilis dilində çox danışmadan başqaları ilə ünsiyyət qura bilsinlər. Yadda saxlamaq lazımdır ki, uşaqların ingilis dilini başa düşmələri həmişə onların ingilis dilində səlis danışmaq qabiliyyətini üstələyir və ünsiyyət qurmaq bacarığı qrammatik səriştə ilə ölçülmür.

İngilis dilindən başqa dil mənşəli bəzi uşaqların məktəbə başlamazdan əvvəl əlavə dil xidmətində iştirak etmək imkanı olmaya bilər. Bu uşaqlar, uşaq bağçası ilində olduğu kimi, məktəbdə erkən yaş mütəxəssisləri tərəfindən dəstəklənməlidir. Onlar ingilis dilini ikinci dil kimi öyrənən üç və beş yaş arasında olan kiçik uşaqlara oxşar davranışlar nümayiş etdirəcəklər. Məktəbin ilk illərində ingilis dilini yeni öyrənən uşaqlar məktəb icmasına aid olduqlarını hiss etməlidirlər. Başqaları ilə qarşılıqlı əlaqədə özlərinə yer tapmalıdırlar. Onların qrupdakı başqaları tərəfindən necə qəbul edilməsi onların qrupda yer tapmaq qabiliyyətinə və beləliklə də ingilis dilini eşitmək və istifadə etmək imkanlarına təsir edəcək. Sosial münasibətlər və sinif icmasına üzvlük ingilis dilinin inkişafı və öyrənilməsində iştiraka səbəb olur. Dildən istifadə

nümunələri mədəniyyətlər arasında dəyişir, ona görə də ingilis dilini yeni bilən uşaqlar İngiltərə mədəniyyətinə aid olan mədəni dəyərləri, normaları və inancları da öyrənməlidirlər. Məktəbəqədər illərdəki uşaqlar kimi, onlar yalnız yeni bir dil deyil, həm də yeni mədəniyyətdə davranış və fəaliyyət göstərmək üçün yeni üsullar əldə etməlidirlər.

Erkən yaşda ikinci dil öyrənməyin digər faydalarından biri də uşaqların böyüklərdən daha sadə düşünmələridir. Onlar daha az sözdən, daha sadə cümlə strukturlarından istifadə edir və daha az mücərrəd düşünürlər. İkinci dil öyrənən uşaqlar öz mücərrəd düşüncələrini və hisslərini ikinci dillərində çatdırmaq vəzifəsi ilə yüklənmirlər, çünki onlar sadəcə olaraq heç bir dilə malik deyillər. Sonra, bu uşaqlar yetkinləşdikcə, həm ana dillərində, həm də ikinci dillərində fikirlərini ifadə etməyi öyrənirlər. Uşaqlıqda oxuduğunuz kitabları indi oxuduğunuz kitablarla müqayisə edin. Unutmayın ki, indi oxuya biləcəyiniz mətnləri başa düşmək üçün illərlə öyrənmək və oxumaq lazımdır. Eyni şey yazmaq, dinləmək və hətta danışmağa da aiddir. Ana dilinizdə olduğu kimi ünsiyyət qura bilmək üçün ən azı 15 il akademik təhsil lazım idi. Erkən yaşda ikinci dil öyrənməyin digər bir faydası da vaxtdır.

İkinci dil öyrənən uşaqlar problem həll edən mütəxəssis və yaradıcı düşünən insanlar kimi böyüyürlər. Gənc yaşlarından beyinləri davamlı olaraq işləyir, hansı dildə və nə vaxt danışacaqlarını müəyyən etməyə çalışırlar. Tədqiqatçılar müəyyən ediblər ki, problem həll etmək bacarıqlarının artması ilə yanaşı, ikidilli uşaqlar planlaşdırma, konsentrasiya və çoxlu tapşırıqları yerinə yetirməkdə daha yaxşınəticə göstərirlər. Onlar standart testlərdə daha yüksək bal toplayırlar. Uşağınıza gənc yaşda ikinci dil öyrətməklə, siz onları uğura hazırlamış olursunuz. İkidilli uşaqlar dünyaya müxtəlif baxış bucağından baxmağı öyrənirlər. Buna görə də yaradıcı düşünmək üçün onların sahib olduğu müxtəlif perspektivlər var. "Fərqli baxış bucaqları" dedikdə nəyi nəzərdə tutduğumu izah edim. Öyrəndiyimiz hər yeni dil bizə məna çatdırmaq üçün yeni maneələr təqdim edir. Məsələn, ən çox yayılmış ingilis fellərindən ikisi olan "to have" və ya "to be" ingiliscə fellərinin türk və rus dillərində qarşılığı yoxdur. İkidil danışa bilmə bacarığına sahib insan bu maneələri aradan qaldırmaq yollarını tapdıqca, onlar intensiv divergent düşüncə ilə məşğul olurlar - yaradıcılığı təşviq edən eyni fərqli düşüncə.

Müasir qloballaşma dövründə getdikcə daha çox şirkət birdən çox dildə danışan işçilər axtarır. Bundan əlavə, çoxdilli işçilər tez-tez birdilli həmkarlarından əhəmiyyətli dərəcədə daha çox maaş alırlar. Şirkətlər sərhədləri aşan və müəyyən məhsul və ya xidmətləri beynəlmiləlləşdirə bilən işçilərə ehtiyac duyur. Bu o deməkdir ki, şirkətlər tez-tez bir və ya bir neçə dilə tərcümə edə bilən və müəyyən bir sahədə ixtisaslaşan işçilər axtarırlar. Hüquq, tibbi, texniki və ya elmi sahələrdətəcrübəsi olan ikidilli şəxslər yüksək maaşlı tərcümə və ya tərcümə işləri tapa bilərlər.Bu, ikidilli evdə böyüyən və ya gənc yaşda iki və ya daha çox dilə sahib olan ikidilli uşaqlar üçün əlverişlidir. Uşaqlar dilləri böyüklərdən çox daha sürətli öyrəndikləri üçün gənc yaşlarında ikinci dili öyrənə və sonra universitetdə vaxtlarını maraqlı gördükləri sahədə ixtisaslaşaraq keçirə bilərlər. Erkən yaşda ikinci dil öyrənməyin ən maraqlı faydalarından biri fərqli mədəniyyətlərdən olan daha çox insanla ünsiyyət qura bilməkdir. İkinci dil öyrənən uşaqlar dünyanı gəzmək və başqa mədəniyyətlərlə tanış olmaq üçün inanılmaz imkanlara malik olacaqlar.İngilis dili dünyanın ümumi dilinə çevrildi; bu o deməkdir ki, ingilis dili insanların ana dilini paylaşmayanda ünsiyyət qurmaq üçün istifadə etdikləri dildir. Bir çox araşdırmalar, müntəzəm olaraq ikinci dildə danışan insanların Alzheimer xəstəliyini 4,5 il gecikdirə biləcəyini düşünür.Neuropsychologia jurnalında dərc edilən yeni araşdırma, ikidilliliyin beyin strukturunda Alzheimer xəstəliyinə davamlılıq və yüngül koqnitiv pozğunluqlarla əlaqəli

dəyişikliklər etdiyini ortaya qoyur.Tədqiqatçılar bunun iki dildə məlumatı daim süzgəcdən keçirdiyi üçün ikidilli beynin daimi məşq etməsi ilə əlaqədar olduğunu düşünürlər.

Gənc beyin təbiətcə çevikdir, dili təbii şəkildə əldə etmək üçün unikal şəkildə təchiz edilmişdir. Uşaqlar yeriməyi öyrəndikləri kimi ana dili səlislyini asanlıqla əldə edə bilərlər, lakin böyüklər aydın qrammatik qaydaları öyrənməklə daxili dil sistemi vasitəsilə öyrənirlər. Erkən uşaqlıq dövrü dil öyrənmək üçün ən yaxşı dövrdür. Termin tək ikidilli natiqə, ikidilli danışanların birliyinə və ya müxtəlif dillərdə danışanlar arasında vəziyyətə aid ola bilər. Uşaqlar ibtidai məktəb illərində iki və ya daha çox dildə bacarıqlarını inkişaf etdirməyə davam etdikcə, onlar dili daha dərindən başa düşürlər. Xüsusilə hər ikisində savad inkişaf etdirdikdə, dili emal etməkdə daha çox təcrübəyə sahib olurlar və iki dillərinin reallığı təşkil etmə yollarını müqayisə edə bilərlər. Əslində, bu gün bir çox araşdırmalar göstərir ki, uşaqlar iki fərqli dil vasitəsilə məlumatı ifadə etməklə öz düşüncələrində daha çox çeviklik inkişaf etdirə bilirlər. Bu səbəbdən ikidillilik bizə erkən yaşda dili öyrənməyin vacibliyini və faydasını göstərir. Brown-a (1994: 56-58) görə, şagirdin nitq əzələlərinin inkişafı yerli tələffüzün mənimsənilməsinə daha çox kömək edən amil ola bilər. İnsan nitqi yüzlərlə əzələni əhatə etdiyinə görə, uşaqların əzələ elastikliyi onlara böyük idmançıların əksəriyyətinin çox gənc yaşda məşqlərə başladıqları kimi üstünlüklər verir. Nə vaxt başlamalarından asılı olmayaraq, ən yaxşı dil bacarıqlarını inkişaf etdirən tələbələr dəstəkləyici mühitlərdən gəlirlər. Bu, özləri ingiliscə danışan valideynlər demək deyil, daha çox övladlarının nə öyrəndiyi ilə maraqlanan və təvazökar olsa da, təşviq və tərif edənlərdir. Bu gün bütün dünyada bir çox gənc ingilis dilini yaxşı başa düşür. Böyüdükcə və yetkinləşdikcə, onlar bir çox yerlərə səyahət edə və dünyanın hər yerindən bir çox insanla ünsiyyət qura, tolerantlıq və mədəni fərqliliklərə münasibət bildirib, özlərini inkişaf etdirə biləcəklər.

**ƏDƏBIYYAT**


1. Maja Adžija, Joško Sindik, Metodički obzori (2014). Learning of foreign language in pre-school. Learning of Foreign Language In Pre-School
2. Children: Evaluation Methods in Kindergarten's Environment.
3. Fromkin, Victoria; Romdan, Robert; Hyams, Nina (2003). An Introduction to Language, Wadworth and a Part of Thomson Corparation.
4. Brown, H. Douglas (1994.)Principles of language learning and teaching Englewood Cliffs, N.J. : Prentice Hall Regents.
5. Haliwell, S. (1992). Teaching English in the Primary School. London, New York: Longman.
6. Thomas, Anita Jones (2006). Culture & Identity: Life Stories for Counselors and Schwarbzaum. Sara: Therapists SAGE.
7. Kim, Lee Su (2003). Multiple Identities in a Multicultural World: a Malaysian Perspective. Journal of Language, Identity and Education
8. Clarke, P 2000, 'Language development and Identity', keynote paper, London University Conference: Supporting identity and language in the early years, London, UK.

2022. Volume 6, Number 2 Pages 95-102

UOT 37(094)

# TƏHSİLİN İNFORMASİYALAŞDIRILMASI CƏMİYYƏTİN İNKİŞAFININ ƏSAS FAKTORU KİMİ

**İSMAYILOVA NƏRGİZ**
Azərbaycan Dövlət Pedaqoji Univesiteti
*inr2112@gmail.com*

**XÜLASƏ**

Cəmiyyətin müasir inkişaf dövrü, insan fəaliyyətinin bütün sahələrinə nüfuz edən və qlobal informasiya məkanını təşkil edən informasiya texnologiyalarının ona güclü təsiri ilə xarakterizə olunur. Bu proseslərin tərkib və mühüm hissəsi təhsilin informasiyalaşdırılmasıdır. Hazırda qlobal informasiya və təhsil məkanına daxil olmağa yönəlmiş yeni təhsil sistemi formalaşmaqdadır. Bu proses də öz növbəsində, pedaqoji nəzəriyyə və tədris prosesindəmüəyyən dəyişikliklərlə müşayiət olunur. Sivilizasiyanın inkişafının yeni mərhələsi bu sahədə gedən prosesləri prinsipcə yeni əsaslarla həll etməyə vadar edir. Məqalədə təhsilin, cəmiyyət həyatının keyfiyyət dəyişikliklərini təmin edən və onun gələcək strukturunu əvvəlcədən müəyyən edən sahələrdən biri olması, eləcə də onun insan həyatının təməl başlanğıclarından biri olması qeyd olunmuşdur. Eləcə də tədris prosesində informasiya texnologiyalarından istifadənin əhəmiyyətli cəhətləri qeyd olunmuşdur.

**Açar sözlər:** informasiya, təhsilin informasiyalaşdırılması, informasiya cəmiyyəti, qloballaşma.

**ИНФОРМАТИЗАЦИЯ ОБРАЗОВАНИЯ КАК ФАКТОР РАЗВИТИЯ ОБЩЕСТВА**

**РЕЗЮМЕ**

Современный период развития общества характеризуется сильным влиянием информационных технологий, которые проникают во все сферы человеческой деятельности и формируют глобальное информационное пространство. Неотъемлемой частью этих процессов является информатизация образования. Формируется новая система образования для вхождения в мировое информационно-образовательное пространство. Этот процесс сопровождается определенными изменениями в педагогической теории и учебном процессе. Новый этап развития цивилизации заставляет решать процессы в этой области на принципиально новой основе. В статье отмечается, что образование является одной из сфер, обеспечивающих качественные изменения в обществе и предопределяющей его будущую структуру, а также одним из базовых начал жизни человека. Также были отмечены аспекты использования информационных технологий в образовательном процессе.

**Ключевые слова:** информация, информатизация образования, информационное общество, глобализация.

**İNFORMATİZATİON OF EDUCATİON AS A FACTOR İN THE DEVELOPMENT OF SOCİETY**

**ABSTRACT**

The modern period of development of society is characterized by a strong influence of information technologies that penetrate into all spheres of human activity and form the global information space. An integral part of these processes is the informatization of education. A new education system is being formed to enter the global information and educational space. This process is accompanied by certain changes in pedagogical theory and the educational process. A new stage in the development of civilization makes it necessary to solve processes in this area on a fundamentally new basis. The article notes that education is one of the areas that provide qualitative changes in society and predetermine its future structure, as well as one of the basic principles of human life. There were also important aspects of the use of information technology in the educational process.

**Key words:** information, informatization of education, information society, globalization.

Giriş.

20-ci əsrin ortalarından başlayan texnoloji tərəqqi insanların təhsilə olan ehtiyacının artmasına, eləcə də onu əldə etməyin yeni metodlarını araşdırmağa yol açdı. Təhsilalanların yaradıcı potensialının, idrak fəaliyyətinin və müstəqilliyinin inkişafı, işgüzar keyfiyyətlərinin və peşəkar mobilliyinin formalaşdırılması vəzifələri ön plana çıxdı. Peşəkar səriştəli mütəxəssislər hazırlamaq üçün cəmiyyətin sosial sifarişi təhsil sisteminin bir çox komponentlərində ciddi dəyişiklik tələb edirdi: məqsəd, vəzifə, məzmun, tədris vasitələrinə əsaslanan yeni metodlar və texnologiyalar.

İqtisadiyyat inkişaf etdikcə, bilik, istehsalın əsas amillərindən və nəticələrindən birinə çevrilir, bu da öz növbəsində təhsilin cəmiyyətdəki rolunu artırır. Çünki, təhsil insana həyati istiqamətlər verir, onun dünyagörüşünün formalaşmasına təsir göstərir, dilin, adət-ənənələrin davamlılığını təmin edir, bununla da cəmiyyətin möhkəmlənməsinə, milli kimliyin formalaşmasına və milli mədəniyyətin qorunub saxlanmasına töhfə verir. Əksər tədqiqatçıların fikrincə, bu gün məhz təhsil, iqtisadiyyatın və cəmiyyətin yeni keyfiyyətinin formalaşmasında ən mühüm amillərdən birinə çevrilir və bəşəriyyətin mütərəqqi inkişaf perspektivləri daha çox onun istiqamətindən və səmərəliliyindən asılıdır. Elmi-texniki tərəqqinin yüksək tempi, informasiya texnologiyalarının geniş yayılması istehsalın xarakterini kökündən dəyişdirdi bu isə müasir mütəxəssisin ixtisasına olan tələblərə təsir göstərdi. İndiki mütəxəssis nəinki biliiyə malik olmalı, həm də mümkün ola biləcək qədər mobil və analitik biliyə sahib olmalıdır. Bu isə, mütəxəssisin daimi peşəkar inkişafını tələb edir. Beləliklə, bu gün daim dəyişən informasiya dünyasında təhsili təkcə nəzəri biliklər toplusu kimi nəzərdən keçirmək artıq mümkün deyil. Cəmiyyətin ən mühüm dəyərinin və əsas kapitalının insan olduğu bir şəraitdə təhsil sisteminin məqsədi və məhsulu insan intellekti və şəxsiyyəti olmalıdır.

İnformasiya və kompyuter texnologiyaları müasir cəmiyyətin bütün aspektlərinə, o cümlədən iqtisadi artımın stimullaşdırılmasına, elmi-texniki tərəqqinin və innovativ transformasiyaların inkişaf tempinə təsir göstərir. Artıq əhalinin həyat keyfiyyəti informasiya texnologiyalarının mövcudluğu ilə ölçülür.

Tədqiqat işinin müzakirəsi və onun nəticələri.

Hazırda tədris prosesində informasiya texnologiyalarından istifadəyə böyük diqqət yetirilir. 20-ci əsrin sonlarında bəşəriyyət postindustrial və ya informasiya cəmiyyəti adlanan inkişaf mərhələsinə qədəm qoydu. “Biz informasiya və kommunikasiya əsrində yaşayırıq” mülahizəsi bir qədər doğru deyil, çünki həm informasiya, həm də kommunikasiya həmişə mövcud olub, lakin postindustrial cəmiyyət informasiya və kommunikasiya texnologiyalarının müstəsna sürətli inkişafı ilə xarakterizə olunur.

Y.Masuda informasiya cəmiyyəti ilə bağlı konsepsiyasında onun fərqli əlamətləri kimi kompüter texnologiyalarını, koqnitiv informasiyanın, texnologiyaların və biliklərin kütləvi istehsalı, iqtisadiyyatın qabaqcıl sahəsi - intellektual istehsal və yeni cəmiyyətin başlıca məqsədi vaxtın dəyərliliyinin realizasiyasını önə çıxarır [9].

İngilis sosioloqu Entoni Giddens (1938) “informasiya cəmiyyəti” konsepsiyasını qəbul etmir. Hesab edir ki, cəmiyyət müasir dövrdə yox, elə əvvəlcədən informasiyalı olub. Onun fikrincə, müasir dövrdə informasiyanın dəyərinin artması yeni cəmiyyətin meydana gəlməsini söyləməyə əsas vermir. E.Giddensin nəzəriyyəsinə əsasən, insanlar KİV-dən və təhsil müəssisələrindən əldə etdikləri mücərrəd biliklər əsasında öz həyatlarının maddi və sosial şəraitini təmin edirlər.

İstənilən informasiyanın əlyetərliliyi şəraitində insanlar həyat tərzini, davranış modelini seçirlər. İnkişaf etmiş cəmiyyətdə isə seçim imkanları ərazi, ənənəvi və digər amillərdən asılı deyil. [2]

Bir çox ölkələrdə informasiya texnologiyaları inkişafın önəmli faktorudur, cəmiyyətin siyasi, iqtisadi və sosial fəaliyyətinə aktiv təsir edərək bütün sferaların qloballaşmasına zəmin yaradır. Yeni çağırışlara cavab verən təhsil sisteminin qurulması və modernləşdirilməsi üçün hansı texnologiyalardan istifadə edilməsi əsas müzakirə olunan məsələlərdəndir. Bu deyilənlərdən də aydın olur ki, təhsilin informasiyalaşdırılması birbaşa olaraq cəmiyyətin informasiyalaşdırılması prosesi ilə birbaşa əlaqədədir. İnformasiya cəmiyyəti nədir?

İnformasiya cəmiyyəti anlayışı – informasiya cəmiyyəti dedikdə – informasiyanın istehsalı və istifadəsi, informasiya resursları, informasiya cəmiyyətinin baza texnologiyaları və texnikası, yeni informasiya–telekommunukasiya texnologiyaları və texnikası və s. başa düşülür. İnformasiya cəmiyyətinin əsas xarakterik xüsusiyyətləri bunlardır: cəmiyyətdə kütləvi şəkildə informasiya ehtiyaclarının ödənilməsi; cəmiyyətdə informasiya iqtisadiyyatı; cəmiyyət üzvlərinin yüksək səviyyədə informasiya tələbatı; cəmiyyətdə yüksək informasiya mədəniyyəti, cəmiyyət üzvləri üçün açıq informasiya şəbəkələrinin genişlənməsi; vahid informasiya mühitinin formalaşması, inkişaf etdirilməsi və perspektivləri; cəmiyyət üzvləri üçün informasiya təhlükəsizliyi; qloballaşma və inteqrasiya səviyyəsi və s. İnformasiya cəmiyyəti sənaye cəmiyyətindən fərqli olaraq daha intelektual cəmiyyətdir və insanların yüksək təhsilli, bacarıqlı, qərarlı, hərtərəfli inkişafı üçün şərait yaradır.[7]

Müasir cəmiyyətin qloballaşması prosesi dünya sivilizasiyasının və xüsusən də təhsilin inkişafına təsir göstərmək baxımından çox mühümdür. İnformasiya cəmiyyətinin qloballaşması hazırda aşağıdakı tendensiyalarda özünü göstərir: beynəlxalq əmək bölgüsü; elmi-tədqiqat müəssisələrinin yaradılması, beynəlxalq əhəmiyyətli problemlərin və vəzifələrin həlli, bu da dünyanın bir neçə ölkəsində eyni vaxtda elmi-texniki tərəqqinin inkişafına təşəbbüs göstərir; elm, texnologiya, biznes, istehlak mallarının istehsalı və s. sahələrdə beynəlxalq birliklərin, mütəxəssislərinin fəaliyyətinin informasiyalaşdırılması (qlobal kommunikasiya əsasında). Bu sadalanan tendensiyalar, şübhəsiz ki, müasir cəmiyyətin üzvü kimi həyatın istənilən sahəsində gələcək mütəxəssisin peşəkar səviyyəsi üçün sosial sifarişi dəyişdirir.

Təhsil cəmiyyətininkişafında alternativi olmayan təsir gücünə malikdir. Səmərəli idarə olunan, qloballaşan dünyada baş verən proseslər, milli dəyərlər nəzərə alınmaqla təşkil olunan təhsil cəmiyyəti irəli apara bilər. Milli maraqlara, dövlətçiliyin möhkəmləndirilməsinə, Azərbaycançılıq ideologiyasına xidmət etməsi, hüquqi cəmiyyətin mənafeyini nəzərə alması, ağıl iqtisadiyyatının formalaşmasına baza yaratması təhsilin əsas göstəricisi sayılır.[10] Təhsil sisteminin modernləşdirilməsi və təhsil müəssisələrinin idarə edilməsi probleminin həlli istiqamətində ən önəmli yenilikçi yanaşmalardan biri də təhsilin informasiyalaşdırılmasıdır. Təhsilin informasiyalaşdırılması, təhsil-tərbiyənin psixoloji və pedaqoji hədəflərinin həyata keçirilməsinə yönəlmiş müasir informasiya texnologiyalarının inkişafı və optimal istifadəsi üçün təhsil sektoruna metodika və təcrübə ilə təmin olunma prosesidir. Təhsilin informasiyalaşdırılması prosesinin əhatə etdiyi əsas istiqamətlər aşağıdakılardır:

- təhsil prosesinin bütün iştirakçıları, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlar üçün keyfiyyətli təhsil almasında, bərabər imkanların təmin edilməsi məqsədilə elektron təhsil resurslarının üstünlüklərindən istifadə etməklə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və inkişafı;

- İKT-nin tətbiqi və istifadəsi əsasında öyrənənlərin (şagirdlərin, tələbələrin) fərdi təhsilinhəyata keçirilməsi imkanının təmin edilməsi, tədris materialının öyrənənin bacarığından asılı olaraq fərqləndirilməsi, biliyin ən effektiv şəkildə mənimsənilməsi və fərdin potensialının üzə çıxarılması;

- ölkənin elmi-pedaqoji potensialının qorunub saxlanması, inkişafı və səmərəli istifadəsi üçün informasiya texnologiyalarının geniş tətbiqi (elektron kitabxanalar, elektron bazalar, metodik təminat si stemləri və s.);

- İKT əsasında təhsilin keyfiyyət təminatının yeni səviyyəsinə mərhələli keçid üçün şəraitin yaradılması; müəllimlər üçün distant təhsil sistemində, həm də qlobal təhsil sistemi məkanında bilik əldə etmək üçün epizodik yox, davamlı olaraq yenidən hazırlıq imkanlarının həyata keçirilməsi.

Təhsildə informasiya-kommunikasiya texnologiyalarından tam istifadə üçün yalnız təhsilin informasiyalaşdırılması vasitələrindən istifadə kifayət etmir. Praktikada bu cür vasitələr mütləq şəkildə təhsilin informasiyalaşdırılmasının ideoloji bazası, eləcə də informasiyalaşdırma məqsədlərinə nail olmaq üçün iştirakı zəruri olan müxtəlif bilik sahələri üzrə mütəxəssislərin fəaliyyəti ilə tamamlanmalıdır. Buna görə də təhsilin informasiyalaşdırılması vasitələri və İKT alətləri anlayışları bir-biri ilə sıx bağlıdır.

Cəmiyyətin informasiyalaşdırılması özündə informasiya cəmiyyəti üzvlərinin həyatının müvafiq sferasında informatika, informasiya-kommunikasiya texnologiyaları vasitələri və üsullarının imkanlarının tətbiqi sahəsində peşəkar kadrların və mütəxəssislərin hazırlanması; müxtəlif səviyyəli informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə istifadəçi hazırlığı ehtiva edir. İnformasiya dünya birliyinin inkişafı üçün əsas resursa çevrilir və həyatın digər sahələrinin və sahələrinin: elm, texnologiya, sosial sahələrin (insanlar arasında mədəni ünsiyyət, təhsil) inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir.

Artıq qeyd edildiyi kimi, informasiya cəmiyyətinin əsas dəyəri - bilik, təcrübəyə əsaslanan müstəqil düşünmə qabiliyyəti, bu bilikləri konkret problemlərin həllində tətbiq etmək bacarığına,geniş biliklərə malik olmaqdan ibarətdir. Buna təhsildə səriştə əsaslanan yanaşma deyilir ki, bu da təhsilin keyfiyyətinin müasir anlayışına uyğundur. Mütəxəssis üçün rəqabətqabiliyyətlilik problemi onun həyatda şəxsi uğurunda, dəyişən vəziyyətlərə uyğunlaşma qabiliyyətində müəyyənedici amil olur.

İnformasiyalaşdırma – müvafiq texnologiyaların tətbiq edilməsi hesabına istifadəçilərin informasiyaya olan tələbatlarının ödənilməsi üçün optimal şəraitin formalaşması prosesidir.

İnformasiya cəmiyyətinin əsas məqsədi cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya tələbatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında müxtəlif təyinatlı informasiya resurslarının formalaşdırılmasıdır.

Ölkəmizdə informasiya cəmiyyətinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nı qəbul olunmuşdur. Vətəndaşların informasiya əldə etmək hüququ, internet şəbəkəsinə çıxışı, yeni texnologiyalara əsaslanan elmi tədqiqatların aparılması, distant təhsil və təhsildə İKT-nin tətbiqi,istifadəsi proqramdan gözlənilən nəticələr arsında yer tutur. Həmçinin proqramda təhsilin, cəmiyyətin inkişafını

şərtləndirən əsas amillərdən biri olduğu da qeyd olunur. Genişzolaqlı internetə qoşulan təhsil müəssisələrinin sayının artırılması təhsil üzrə aparılan istiqamətlərdən biridir. Eləcə də kadr hazırlığı, elmi kadrlara olan ehtiyac qarşılamaq üçün bir sıra dövlət qurumlarının qarşılıqlı iş aparması göstərilib. [8]

Cəmiyyətin informasiyalaşdırılması sosial tərəqqinin nümunələrindən biridir. Bu terminson vaxtlara qədər geniş istifadə olunan "cəmiyyətin kompüterləşdirilməsi" terminini əvəz edirdi. Bu anlayışlar zahiri oxşarlıqlarına baxmayaraq, bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Cəmiyyətin kompüterləşdirilməsi dedikdə, informasiyanın emalının operativ şəkildə alınmasını və onun yığılmasını təmin edən kompüterlərin texniki bazasının hazırlanmasına və tətbiqinə əsas diqqət yetirilir. Cəmiyyətin informasiyalaşdırılmasında isə əsas diqqət insan fəaliyyətinin bütün növlərində etibarlı, hərtərəfli və vaxtında biliklərdən tam istifadəni təmin etməyə yönəlmiş tədbirlər kompleksinə verilir.

İnformasiya cəmiyyəti insan fəaliyyətinin bütün sahələrində baş verən kompleks dəyişikliklərin məhsulu olduğu kimi, onun elmi problemlərinin araşdırılması da multidistiplinar yanaşma tələb edir. Yəni informasiya cəmiyyətinin elmi problemləri texnologiya, iqtisadiyyat, hüquq, politologiya, fəlsəfə, sosiologiya, psixologiya, pedoqogika, kulturologiya, linqvistika və s. sahələr üzrə əlaqələndirilmiş şəkildə tədqiqatların aparılmasını tələb edir. İnformasiya cəmiyyətinin elmi problemlərinin araşdırılmasına ötən əsrin 70-ci illərinin əvvəlindən başlanmışdır. Ötən müddət ərzində informasiya cəmiyyəti ilə bağlı bir sıra elmi konsepsiyalar, nəzəriyyələr, yanaşmalar irəli sürülmüşdür. Həmin tədqiqatlarda da məhz informasiya cəmiyyəti müxtəlif aspektlərdən şərh olunur. [2]

Müasir informasiya texnologiyaları təhsildə əsl inqilaba gətirib çıxarır. Dünya təcrübəsi göstərir ki, təhsilin problemlərinin həlli müəllimlərin peşəkar hazırlığından başlayır. Yəni, müasir informasiya texnologiyaları sahəsində hərtərəfli hazırlıq lazımdır. Müəllimlər müəyyən bir fənnin öyrənilməsinin məzmununa və məqsədlərinə tam uyğun gələn, fərdi xüsusiyyətlərini nəzərə alaraq, öyrənənlərin ahəngdar inkişafı məqsədlərinə nail olmağa kömək edən texnologiyaları seçib tətbiq etməyi bacarmalıdırlar. İnformasiya texnologiyalarının yaradılması və istifadəsi prosesində xüsusi rol məktəb təhsilinə aiddir.

İlk növbədə isə "informasiya texnologiyası" anlayışının mahiyyətini dərk etmək lazımdır. Bu konsepsiya haqqında danışarkən, bəzi hallarda müəyyən bir elmi istiqaməti, digərlərində isə informasiya ilə işləməyin xüsusi bir yolu nəzərdə tutulur: həm informasiya resursları ilə işləmək; tədqiq olunan obyekt haqqında yeni informasiya əldə etmək üçün informasiyanın toplanması, emalı və ötürülməsinin üsul və vasitələridir. Müəyyən mənada, bütün pedaqoji texnologiyalar informasiya xarakteri daşıyır, çünki tədris prosesi hər zaman müəllimlə şagird arasında informasiya mübadiləsi ilə müşayiət olunur. Daha dəqiq desək, informasiya öyrənmə texnologiyaları - informasiya ilə işləmək üçün xüsusi metodlardan, proqram və texniki vasitələrdən (kino, audio və video, kompüterlər, telekommunikasiya şəbəkələri) istifadə edən pedaqoji texnologiyadır. Beləliklə, informasiya texnologiyaları, biliklərin ötürülməsi (müəllimin fəaliyyəti), biliyin qavranılması (şagirdin fəaliyyəti), təhsilin keyfiyyətinin qiymətləndirilməsi və təhsil prosesinin gedişində şagird şəxsiyyətinin hərtərəfli inkişafı üçün yeni imkanlar yaratmaq üçün informasiya texnologiyalarının tətbiqi kimi başa düşülməlidir. Təhsilin informasiyalaşdırılmasının əsas məqsədi də məhz şagirdləri informasiya cəmiyyətində həyatın gündəlik, sosial və peşəkar sahələrində tam və səmərəli iştiraka hazırlamaqdır. Təhsildə informasiya texnologiyalarının tətbiqi sahəsində son dövrlərdə sistemli tədqiqatlar aparılır.

Təhsil sistemi hər zaman geniş çeşidli proqram məhsullarına əsaslanan informasiya texnologiyalarının tədris prosesinə tətbiqinin əsas obyektlərindən olub. 60-cı illərdən başlayaraq ABŞ, Qərbi Avropa, Avstraliya, Yaponiya və bir sıra digər ölkələrin elmi mərkəzlərində və təhsil müəssisələrində təhsilin ehtiyacları üçün və xüsusi olaraq təhsil prosesinin müxtəlif aspektlərinin dəstəklənməsinə yönəlmiş çox sayda kompüter sistemləri hazırlanmışdır.

İnformasiya texnologiyalarının mövcudluğu təhsil sistemlərinin transformasiyasına gətirib çıxarır, çünki biliklərin təqdim edilməsi və ötürülməsinin tamamilə yeni üsulları, təhsilin keyfiyyətini qiymətləndirmək üçün üsul və vasitələr, insanlar, öyrənənlər, müəllimlər və valideynlər arasında yeni qarşılıqlı əlaqə kanalları yaranmışdır. Təhsildə informasiya texnologiyalarından istifadə adətən üç aspektdə nəzərdən keçirilir: öyrənmə predmeti kimi, təlim vasitəsi olaraq və təhsil fəaliyyətinin avtomatlaşdırılması vasitəsi kimi. Multimedia texnologiyalarının, internetin yaranması və geniş yayılması informasiya texnologiyalarından ünsiyyət vasitəsi, təhsil, dünya birliyinə inteqrasiya kimi də istifadə etməyə imkan verir.

İnformasiya cəmiyyətinin əsas məqsədi bütövlükdə cəmiyyətin və ayrı-ayrı şəxslərin informasiya tələbatını ödəmək üçün müasir informasiya texnologiyaları bazasında müxtəlif təyinatlı informasiya resurs və fəzalarının formalaşdırılmasıdır. İnformasiya cəmiyyətinin xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

- qlobal informasiya mühitinin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi, sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaranması;
- informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının yaradılması və inkişafı;
- təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması.[5]

Təhsilin informasiyalaşdırılması - informasiya məhsullarının, alətlərinin və texnologiyalarının təlimə və təhsilə tətbiqi əsasında pedaqoji proseslərin transformasiyası üzrə tədbirlər kompleksidir. Təhsilin informasiyalaşdırılmasının nəzəri əsasını ilk növbədə, informatika, kibernetika, sistemlər nəzəriyyəsi və didaktika təşkil edir. Təhsil sistemlərinin transformasiyasının təhsilin keyfiyyətinə müsbət təsir göstərməsi üçün aşağıdakı aspektlərə ciddi diqqət yetirilməlidir:

-təhsil prosesində informasiya-kommunikasiya texnologiyalarından istifadənin ümumi qəbul edilmiş qaydaları və siyasətinin formalaşdırılması;

-informasiya texnologiyalarından fəal istifadə nəzərə alınmaqla, kurikulumun və biliyin qiymətləndirilməsi meyarlarının işlənib hazırlanması;

-tədris prosesində informasiya texnologiyalarından səmərəli istifadə edən müəllim heyətinin İKT səriştələrinin daim təkmilləşdirilməsi;

-təhsil müəssisələrində istifadə ediləcək texnologiyaların seçilməsi;

-müxtəlif vasitə və üsullardan istifadənin səmərəliliyinin daimi tədqiqi,qiymətləndirilməsi, nəticələrin yuxarıda qeyd olunan bloklar üzrə məsul şəxslərə ötürülməsi.

İnformasiya ilə işləmək bacarığı müasir insan üçün prioritet məsələlərdən birinə çevrildiyindən təhsil sistemi məktəbdən başlayaraq şagirdin tənqidi düşünmə qabiliyyətini formalaşdırmaq üçün nəzərdə tutulmuşdur (tənqidi təfəkkür bilik, anlama, tətbiq, təhlil, sintez, qiymətləndirmə).

Hazırda yeni sahə — "Təhsildə informasiya texnologiyaları" formalaşmışdır. Bu sahəyə intellektual təlim sistemləri, açıq təhsil, distant təhsil, informasiya-təhsil mühiti problemləri daxildir. Bu sahə bir tərəfdən pedaqoji və psixoloji problemlərlə, digər tərəfdən telekommunikasiya texnologiyaları və şəbəkələri, informasiyanın emalı, vizuallaşdırılması və insanlarla qarşılıqlı əlaqə üçün kompüter sistemləri kimi elmi-texniki sahələrdə əldə edilən nəticələrlə sıx bağlıdır (süni intellekt, mürəkkəb proseslərin modelləşdirilməsi üçün avtomatlaşdırılmış sistemlər və digərləri). Bu sahənin əsas aspektləri isə aşağıdakılardır:

-müxtəlif xarakterli məlumatların toplanması, saxlanması, ötürülməsi, dəyişdirilməsi, təhlili və istifadəsi üçün qeyri-məhdud imkanlar;

-təhsilalma formalarının genişləndirilməsi ilə təhsilin əlçatanlığının artırılması;

-həyatı boyu təhsilin və təkmilləşdirmənin davamlılığının təmin edilməsi;

-şəxsiyyətyönümlü təhsilin və əlavə təhsilin inkişafı;

-tədris prosesinin təşkilati təminatının əhəmiyyətli dərəcədə genişləndirilməsi və təkmilləşdirilməsi (virtual məktəblər, laboratoriyalar, universitetlər və s.);

-tədris prosesinin təşkilində subyektlərin fəallığının artırılması;

-təkcə bir region üçün deyil, həm də ölkə üçün vahid informasiya və təhsil-tədris mühitinin yaradılması;

- tədris prosesinin metodik və proqram təminatının təkmilləşdirilməsi;

-fərdi öyrənmə yolunu seçmək imkanının təmin edilməsi və müstəqil axtarış fəaliyyətinin inkişafı;

-müstəqil yaradıcı inkişaf etmiş şəxsiyyətin inkişafı, öyrənmənin motivasiya tərəfinin artırılması və s.

**Nəticə**.

Təhsildə informasiya texnologiyalarından istifadə ilə bağlı aparılan bütün tədqiqatların nəzəri və praktiki əhəmiyyətini ümumiləşdirərək qeyd etmək lazımdır ki, bu sahə ilə bağlı bir sıra problemlərə nəzər yetirilməlidir. Buraya əsasən aşağıdakıları aid etmək olar:

- pedaqoji fəaliyyəti təmin etmək üçün kompüter texnologiyalarından istifadənin nəzəri əsasları kifayət qədər inkişaf etdirilməmişdir;

- müasir informasiya mühitində təlimin proqram təminatı və metodiki təminatının işlənib hazırlanması texnologiyalarının nəzəri əsaslandırılmaması;

- təlim və müstəqil idrak fəaliyyətinin metodik təminatı üçün şəbəkə-kompüter texnologiyalarının kompleks tətbiq üsullarının kifayət qədər olmaması.

Təhsilin informasiyalaşdırılması təkcə kompüter və digər elektron vasitələrin təhsildə tətbiqi kimi deyil, təhsilin təşkilinə yeni yanaşma, pedaqoji elmdə yeni istiqamət kimi qəbul edilməlidir. Bütövlükdə təhsilin informasiyalaşdırılmasının məqsədi, şagirdləri informasiya cəmiyyəti şəraitində həyatın gündəlik – sosial, peşə sahələrində tam və səmərəli iştiraka hazırlamaqdan ibarətdir. Cəmiyyətin informasiyalaşdırılmasının ən vacib vəzifəsi isə, mütəxəssislər arasında informasiya səriştəsinin formalaşdırılmasıdır. İnformasiya səriştəsi, cəmiyyət üzvlərinin informasiya texnologiyalarından istifadə etməklə, təhsil, məişət, peşə vəzifələrini həll etmək bacarığıdır.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT SİYAHISI.**


1. Abbasov Ə., Əlizadə M., Seyidzadə E., Musayev İ. *İnformatika və kompyuterləşmənin əsasları*. Bakı, 2012
2. Əliquliyev R.M. Mahmudov R. *İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri* / İnformasiya cəmiyyəti problemləri, - Bakı: -2016. №2, -s. 3-18.
3. İsrafilova E., Həsənova N.İnformasiya texnologiyaları və sistemləri Bakı 2015.
4. G.İ.İsmayılovİnformasiya iqtisadiyyatı . Bakı 2010 2. Səh.109
5. Mazanova O.İnformasiya cəmiyyəti, onun təzahürləri və ziddiyyətləri (informasiya ekologiyası) , İqtisad Elmləri: nəzəriyyə və praktika\rüblük nəzəri və elmi praktiki jurnal Bakı 2009/ səh. 109-113.
6. Qasımov V. Ə. İnformasiya təhlükəsizliyinin əsasları./ Bakı 2009
7. Süleymanov T., Qasımova T.,Paşayeva M.,Cəbrayılova A. *İnformasiya cəmiyyətində informasiya mədəniyyətinin formalaşdırılması məsələləri*/ // İnformasiya təhlükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı,Bakı, 14 may 2015-ci il
8. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"https://e-qanun.az/framework/33717
9. Hacızadə M. *İnformasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meylləri*/ İnformasiya cəmiyyəti problemləri, 2015, №2, 71
10. Abbasov O. *Təhsilin idarə olunması*. Bakı.2016

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY*
*2022. Volume 6, Number 2* *Pages 103-109*

***UOT: 37(094)***

# İNGİLİS DİLİNDƏ İSMİN DƏYİŞƏN VƏ DƏYİŞMƏYƏN ŞƏKİLÇİLİ MODELLƏRİNİN TƏSVİRİ VƏ TƏDRİSİ

**PƏRVİNƏ KƏRİMOVA**
Bakı Mühəndislik Universiteti
*pveliyeva@beu.edu.az*

**XÜLASƏ**

İnsan fəaliyyətinin bütün sahələrində yeniliklər yeni söz və ifadələrlə zənginləşir. Bütün digər dillərdə olduğu kimi ingilis dilində də dilin lüğət ehtiyatı artır. Bu cəhət, ilk növbədə, elmin, texnikanın, incəsənətin inkişafı ilə bağlıdır. Dilin lüğət tərkibinin zənginləşməsində əsas yer söz yaradıcılığına aiddir. Məhz buna görə də dildə mövcud olan vasitələr yeni sözlərin əmələ gəlməsində fəal iştirak edir və bu prosesi həyata keçirir. Məqalə model adlarını təşkil edən şəkilçilərin tədqiqinə həsr edilmişdir. Məqalədə müasir ingilis dilinin leksik sistemində şəkilçilər vasitəsilə nominal qəliblər yaradan şəkilçilər təhlil edilir və etimoloji cəhətdən araşdırılır. Burada sözlərin formalaşmasında müasir ingilis dilinin lüğət tərkibində əsas yerlərdən birini tutan şəkilçilərin, eləcə də isim modellərinin funksiyalarını nəzərdən keçiririk. Təqdim olunan məlumatlardan söz yaradıcılığının praktiki öyrənilməsində və tədrisində rahat metodik yardım kimi istifadə oluna bilər.

Açar sözlər: Sözdüzəltmə, dəyişən şəkilçili modellər, dəyişməyən şəkilçili modellər, şəkilçilərin etimologiyası, şəkilçili modellərin tədrisi

## DESCRIPTION AND INSTRUCTION OF TRANSPOSITIONAL AND NOT TRANSPOSITIONAL MODELS OF NOUNS IN ENGLISH

**ABSTRACT**

Innovation in all spheres of human activity is enriched with new words and expressions. In English, as in all languages, the vocabulary of the language is increasing. This aspect is, first of all, connected with the development of science, technology and art. The main place in the enrichment of the vocabulary of the language belongs to word formation. That is why the means available in the language take an active part in the formation of new words and carry out this process. The article focuses on the study of suffixes that make up name models. The article analyzes and etymologically examines the suffixes that form noun models through suffixes in the lexical system of modern English. Here, the functions of suffixes, as well as noun models, which occupy one of the main places in the lexicon of modern English, are examined in the formation of words. The information provided can be used as an easy methodological tool in the practical study and teaching of word formation.

Key words: Word formation, transpositional models, not transpositional models,etymology of suffixes , instructing suffixed models

## ОПИСАНИЕ И ОБУЧЕНИЕ ТРАНСПОНИРУЮЩИХ И НЕТРАНСПОНИРУЮЩИХ МОДЕЛЕЙ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

**РЕЗЮМЕ**

Инновации во всех сферах человеческой деятельности обогащаются новыми словами и выражениями. В английском, как и во всех других языках, словарный запас языка увеличивается. Этот аспект связан, прежде всего, с развитием науки, техники и искусства. Главное место в обогащении словарного запаса языка принадлежит словообразованию. Именно поэтому имеющиеся в языке средства принимают активное участие в образовании новых слов и осуществляют этот процесс. Статья посвящена изучению суффиксов, составляющих модели имен. В статье анализируются и этимологически исследуются суффиксы, образующие именные модели через суффиксы в лексической системе современного английского языка. Здесь рассматриваются функции суффиксов, а также моделей существительных, занимающих одно из главных мест в лексике современного английского языка при образовании слов. Представленная информация может быть использована в качестве удобного методического пособия при практическом изучении и обучении словообразованию.

Ключевые слова: Словообразование, транспонирующие суффиксальные модели, нетранспонирующие суффиксальные модели, этимология суффиксов, обучение суффиксальным моделям

**Giriş**

İnsan fəaliyyətinin bütün sahələrində yeniliklər yeni söz və ifadələrlə zənginləşir. Bütün digər dillərdə olduğu kimi ingilis dilində də dilin lüğət ehtiyatı artır. Bu cəhət, ilk növbədə, elmin, texnikanın, incəsənətin inkişafı ilə bağlıdır. Dilin lüğət tərkibinin zənginləşməsində əsas yer söz yaradıcılığına aiddir. Məhz buna görə də dildə mövcud olan vasitələr yeni sözlərin əmələ gəlməsində fəal iştirak edir və bu prosesi həyata keçirir.

İngilis dilinin şəkilçilər sistemini təsvir etmək üçün şəkilçi sxemləri və modellərini xüsusi qeyd etmək lazımdır. Bu sxemlər sözdüzəltmə prosesində hansı nitq hissələrinin məhsuldar iştirakını müəyyən etməyə, həmçinin nəyin törədən və nəyin törəmə olduğunu ayırd etməyə imkan yaradır. Eyni zamanda bu sxemlər vasitəsilə sözlərin tərkib hissəsini analiz edərək tədris etmək mənimsəmə prosesini asanlaşdırır və daha yaddaqalan edir.

Tədqiqat metodu

Bu iş özündə araşdırma və müqayisə metodlarını, eyni zamanda söz yaradıcığının asan şəkildə tədrisi üsullarını cəmləşdirir. Məqalə əsasən ismi modellər üzərində fokuslanıb. Burada isim əmələ gətirən dəyişən və dəyişməyən modellər araşdırılıb, onların əmələ gəlməsi, funksiyası və bütün bunları əyani şəkildə göstərən nümunələr təqdim olunub. Verilən nümunələrlə modellərin həm mənimsənilməsi, həm də tədrisi asanlaşır. Məhz bu səbəbdən istər müəllimlər, istərsə də şagird və tələbələr bu işdən faydalana bilər.

Tədqiqat işinin müzakirəsi və onun nəticələri

İngilisdilində sözdüzəltmənin prinsipləri ilə məşğul olan dilçi alimlər adı çəkilən sxemləri bir qayda olaraq dəyişən və dəyişməyənolmaqla iki qrupa bölürlər. Dəyişən sxemlərdə törədən nitq hissəsi törəmə nitq hissəsindən fərqlənir. Daha dəqiq bir nitq hissəsi müəyyən şəkilçi artırmaqla digər nitq hissəsinə çevrilir. Dəyişməyən sxem və modellərdə isə sözdüzəltmə prosesində eyni nitq hissəsi iştirak edir.

**Dəyişən şəkilçili modellər:** Dəyişən şəkilçili modellər söz əmələ gətirmənin elə bir modelidir ki, burada törəmə vahid (törəmə-şəkilçi vasitəsilə əmələ gələn söz) yaradan vahidlə müqayisədə fərqli leksiko-qrammatik sinfə (nitq hissəsinə) aid edilir.

**Adj+suf=N sxemi üzrə modellər**

1. **A + acy = N** Vəziyyət və ya keyfiyyət mənalı isimlərin yaranmasına xidmət edir. Bu şəkilçi vasitəsilə düzələn sözlərin əsasını çox vaxt-ate şəkilçisi ilə bitən sifətlər təşkil edir: *intimate-intimacy, accurate- accuracy, illiterate-illiteracy.* Bu şəkilçi vasitəsilə düzələn bəzi sözlər çox geniş yayılıb. [1, s.14].

2. **A + age = N** Bu model üzrə yaranmış isimlər vəziyyət *(shortage),* yaxud ümumi varlıq *(roughage)* bildirir. Topluluq mənasında -age şəkilçisi konkret əşya bildirən cansız isimlərə də artırılır: *flowerage, fruitage.*

3. **A + an = N**Sənət, şəxs bildirən isimlər törədir: *politician, aesthetecian.*

4. **A + ard = N**modeli vasitəsi ilə törəyən isimlər mənfi keyfiyyətli şəxs bidirir: *dullard, drunkard, coward.*

5. **A + ery=N** keyfiyyət *(finery, bravery)* və ümumilik *(greenery)* ifadə edən isimlərin yaranması bu model vasitəsi ilə həyata keçirilir.

6. **A + ase = N** Bu model biokimyəvi terminlər düzəldir: *invertase, sucrase.*

7. **A + ion = N** Mücərrəd isimlər bu model ilə törəyir: *precision, profusion.*

8. **A + er = N** yerə mənsubluq, sakin mənası verir: *Britisher, Westener.*

9. **A + hood = N** Bu suffiks vasitəsilə yaranan isimlər çox vaxt -ness suffiksi ilə yaranan isimlərlə yanaşı işlədilə bilər və məhsuldar model olmasa da hal-vəziyyət bildirir: *likehood, boyhood, childhood.*

10. **A + ism = N** Elmi cərəyan, təlim mənası ifadə edən isimləryaranır: *realism, idealism, nominalism.*

11. **A + ist = N** Şəxs bildirən isimlər törənir: *naturalist, individualist.* Bu model ilə əlaqədar O. Yespersen qeyd edir ki, sifətlər isimləri o vaxt yaradır ki, onlar «al» şəkilçisi ilə bitsin [2, s. 335]. Lakin hazırda başqa misallar da göstərmək olar: *«leftist», «rightist».*

12. **A + ity = N** Elmi-texniki ədəbiyyatda geniş yayılmış isimlər bu yolla yaranır. H.Marçand belə misalların paralelini verir: *fatolness-fatolity, odness-oddity, sincereness-sincerity, singulariness-singularity* [ 3, s. 335; 4, s. 140]. İsim və sifətlərdən *(inferiority)* bəzi hallarda əvəzliklərdən yaranan törəmələr hal və vəziyyəti ifadə edir: *personality, speciality.* Semantik cəhətdən -ity roman -ness şəkilçisinin eynisidir və əsasən hal-vəziyyəti ifadə edir: *atomicity, humidity, fantasticality.* Çox vaxt latın törəmə formaları fransız dilində olduğu kimi öz köklərinə uyğunlaşırlar: *double - dublicity; noble - nobility.* Sonu -ous ilə bitən törəmələr -ity suffiksi qəbul etdikdə sonluq düşür: *audacions - audacity; conspicuous - soncpicuity; notorious - notoriety; various- variety.*

13. **A + ling = N** insan, heyvan və bitki mənalarını bildirən isimlər bu model ilə törəyir: *softling, youngling.*

14. **A + ment=N** Bu şəkilçi fransız dilində olan -ment və latin dilində -mentum şəkilçisindən əmələ gəlmiş və fel köklərinə əlavə olunur. Bu şəkilçi hərəkətin icrasını və ya nəticəsini bildirir. Erkən forması sacrament olan bu şəkilçi ingilis dilinə anglo-fransız sözlərindən keçib, lakin 13-cü əsrin axırlarına kimi bu sonluq ingilis dilində sözdüzəldici şəkilçi hesab olunmayıb. Bu şəkilçi felə qoşulanda daha məhsuldar olsa da, sifətə qoşularkən cəmlik, çoxluq bildirir: *funniment, merriment, oddment.* Fransız alınmaları arasında: *advancement, amendment* və *judgement* sözləri ilə yanaşı XVI əsrdən başlayaraq yeni törəmələrə də rast gəlinir: *acknowledgement, amazement.*

15. **A + ness = N** Çox vaxt aktiv modeldir. Hal, vəziyyət və keyfiyyət bildirən abstrakt isimlər bu yolla yaranır: *wideness, alertness, greediness*

16. **A + ster = N** Qeyri-məhsuldardır: *youngster*

17. **A + th = N** Keyfiyyət bildirənisimlər bu yolla yaranır: *truth, depth, length, warmth.* Bu şəkilçilər əsasən aşağıdakı hallarda istifadə olunur:

1. Arxaik (keçmiş) ingilis dilində felin indiki zaman 3-cü şəxsin təkində: *come → cometh; have → hath; do → doth; say → saith*

2. Sayların düzəlməsində: *fourth, sixth, fifth, twelth, hundredth, millionth.*

3. Fel və sifətdən əmələ gələn isimlərdə: *birth, blowth, drawth, flowth, growth, weight; health, height/heighth, length, strength,truth,warmth.* Bu şəkilçi vasitəsilə düzələn sözlər qaydasız törəmələr hesab olunur. [5]

18. **A + itude = N** *promptitude, exactitude* kimi mücərrəd isimlər yaranır. Qeyri-məhsuldardır.

19. **A + um = N** Əşya, otaq, yer və s. bildirən isimlər törəyir: *sanatorium, planetarium*

20. **A + ure = N** *moisture*

21. **A+ y = N** bənzər, oxşar mənası verir: *sweety, browny (British Eng. sweetie, brownie)*

22. **A + dom = N** Bu şəkilçi qədim ingilis dilində «dom» alman dilində -tum formasından əmələ gəlib. Qədim zamanlarda bu şəkilçi müstəqil söz kimi işlənib və hökm, qanun mənasını ifadə edir: *bachelordom, boredom, dukedom, officialdom.*

**Verb + Suf = N sxemi üzrə modellər**

1. **V + acy = N** Bu suffiks özündən sonra şəkilçi qəbul etmir: *couspire-couspiracy*

2. **V + ade = N** Felə qoşularaq isim əmələ gətirən bu şəkilçi sözdüzəltmə prosesində çox passivdir: *blockade, escapade.*

3. **V + age = N** «Akt», «fakt», «hərəkəti icra edən vasitə» mənalı isimlər düzəldir. İsimlər fellərin kökündə olan mənanı ifadə edir: *usage, wastage, anchorage, breakage.* «Age» məhsuldar isim düzəldən sufikslərdən biri sayılır.

1) Hal və vəziyyət ifadə edən isimlərdən və bir neçə feldən yaranmış sözlər: *bondage, marriage, orphanage, pupilage, shortage, linkage*

2) Proses və ya funksiya, bəzi hallarda hərəkətin nəticəsini bildirən fellərdən əmələ gəlmiş törəmələr: *arbitrage, passage, usage, breakage, chattage, storage, stoppage.*

3) İsimlə ifadə olunan şəxs və ya əşyaya münasibətini bildirən isimlərdən əmələ gəlmiş qohum sözlər: *language, voyage, handage, brokerage* «business of a broker», *cooperage, leverage* «action of a lever», *porterage* «carriage of luggage by a porter», *tankage* «storage in tanks»

**4. V + al= N** Bu suffikslə yaranan törəmələri aşağıdakı kimi qruplaşdırmaq olar:

Latın şəkilçisi «alis», «al», «ales» və «alia» formalarından düzəlib. İngilis dilinə fransız dili vasitəsilə keçib. Orta ingilis dili dövründə «aylle» «aille», daha sonra «aile», «al» formasında işlənilib: *cardinal, moral, signal, oval.* -al suffiksi sifət düzəldən şəkilçi kimi işləndikdə konkret, xüsusi məna kəsb edir: *editorial, manual, natural, pictorial.* Bir çoxhallarda eyni kökdən yaranan iki törəmə mövcud olur. Aşağıda göstərilən cütlüklərdə «ion» - şəkilçisi ilə yaranan sözlər latın dilindəki kimi eynidir: *accusal - accusation; approval - approbation; committal - commission; disposal - disposition; prorosal - proposition; transposal- transposition.* «al» - vasitəsilə feldən əmələ gələn isim hərəkət, nəticə bildirir: *arrival, refusal, survival.*

5. **V + ance = N** Bu model üzrə əmələ gələn isimlər hərəkət, keyfiyyət, vəziyyət mənasını bildirir: *admittance, forbiddance, guidance, importance, entrance.*

6. **V + ant = N** Şəxs, hərəkət subyekti, əşya və s. bildirir: d*escendant, assistant, lubricant, inhabitant.* Bu şəkilçi latın və fransız dilindən alınıb. Eyni zamanda sifətlərin də düzəldilməsində mühüm rol oynayır. Bundan əlavə ingilis dilinin felləri ilə əlaqəsi olmayan bir çox sözlərdə qəbul olunub: *arrogant, diligent, elegant, evident, present, merchant*. Bəzi hallarda «ant» şəkilçisi ilə düzələn isimlərin səslənməsində müəyyən fərqlər nəzərə çarpır: *errant.* Bəzən vurğunun yeri dəyişə bilər: *protestant, protest.*

7. **V + ion = N** Şəkilçi ilə düzələn isimlər hərəkət, proses (*alleration, organization*), hal, yaxud keyfiyyət (*occupation, starvation*) bildirir. Məhsuldar şəkilçi hesab olunur: *suggest- suggestion,*

*except -exception, corrupt - corruption, collect - collection, restrict - restriction, react - reaction.* Lakin «connect»; «opine» isimlərinin düzəlişi müxtəlifdir: *connection, opinion.* Bir çox hallarda fellərin fransız mənşəli olmaqlarına baxmayaraq, onlar latın dilindəki formalarını qoruyub saxlayırlar: *obstain - obstention, conceive -conception, enjoin-injunction, destroy- destruction.*

8. **V + ee = N** ilk dəfə ingilis dilinə hüquq və müdiriyyət müəssisələrinin obyekti olan şəxsləri adlandıran hüquq və müdiriyyət terminləri tərkibində keçib: *donee, appallee, assignee, presentee.* Bundan əlavə hərəkətin, təsirin istiqamətləndiyi şəxsi bildirir: *trainee, draftee, evacuee, refugee*

**V + ee = n** modeli yenidən söz düzəltməyə qadirdir: *trusteeship, absenteeism.*

9. **V+ er = N** Çox məhsuldar şəkilçidir. Hərəkət agenti *(baker, commander, dancer*), heyvan, adı *(pointer, setter, rotter*), paltar adları *(slippers, wrapper, sweatter*), hərəkət yeri *(locker, container, dresser*) və s. bildirir. Bu suffiks hər hansı fel əsasına qoşula bilir *(asker, goer, smoker, baker, talker).* Bu model mürəkkəb sözlərin yaranmasında fəal iştirak edə bilir: *glass-cutter, grass-eater, tool - maker, theatre-goer.*

10. **V + ess = N** Qadın cinsli şəxsi bildirən çox məhdud saylı isimlər bu yolla əmələ gəlir: *conguerress, governess, entertainess, murderess*

11. **V + ice = N** Az məhsuldardır. Hərəkət bildirir: *service*

12. **V + ics = N** Terminal şəkilçidir: *significs*

13. **V + ing = N** Bu model vasitəsilə yaranan isimlər hərəkət bildirir: *reading, falling, building.* Bəzi hallarda hərəkətin yeri (*landing, lodging*), material *(lining)*, daxili vəziyyət *(misgiving)*, mücərrəd anlayış *(calling)* bildirir. [-n, -1] sonluğu ilə bitən sözlərə -ingsuffiksi artırdıqda hecaların sayı çox vaxt qısaldılır: *lessening, tightening, threatening, reasoning, tickling.* Yazıda qısa saitdən sonrasamitlər qoşalaşır: *sitting, hopping, bidding, begging, winning, swimming, kidnapping.*

15. **V + linq =N** Heyvan bildirən sözlər əmələ gətirir: *gruntling, suckling, yeanling.*

16. **V + ment = N** Bu model geniş yayılmışdır və əsasən hərəkət bildirir: *allotment, astonishment, management, embankment, settlement, equipment.* Bu model özündən sonra söz düzəldir: *environmental; governmental.*

17. **V + th = N** Bu suffiks vasitəsilə hərəkət, hal, təsir, keyfiyyət ifadə edə mücərrəd isimlər əmələ gəlir: *growth, blowth, spilth, tilth.*

18. **V + ure = N** Proses bildirən isimlər bu yolla əmələ gəlir: *enclosure, pressure.*

**İsmin dəyişməyən şəkilçili modellərinin təsviri:** Dəyişməyən model, törəmə vahidin (törəmə- şəkilçi vasitəsilə əmələ gələn söz) yaradan vahidlə eyni leksik-qrammatik sinfə (nitq hissələrinə) aid olduğu sözyaratma modelidir.

**Noun + Suf = N**

1. **N + acy = N** Bu model əsasında törənən isimlər mənaca vəzifə, ictimai vəziyyət və rütbə bildirir: *captaincy, chieftaincy*

2. **N + age = N** İsimlərə artırılmaqla hal,ümumilik, topluluq, konkret əşya, görülən işin nəticəsi, yaxud şəxs bildirir: *orphanage, pupilage, personage, luggage.*

3. **N + an = N** peşə bildirir: *physician, mathematician.*

4. **N + ana = N** Bu model toplu isimlərin aşağıdakı mənalarını yaradır:

1) bir şəxsə aid olan kəlam, hikmətli sözlərin, lətifələrin toplusu. 2) bir yerə, zamana, insana xas: *Shakesperiana, Dickensiana; Americana, Canadiana.*

5. **N+ance=N** hərəkət, hal- vəziyyət bildirən sözlər yaradır: *capasitance, persistence, excellence, assistance, importance.*

6. **N+ary-N** Bu model aşağıdakı mənada olan isimlər yaradır: 1) məşğuliyyətin növü, sənət, ictimai vəziyyət: *forestry, pottery* 2) şeylərin, əşyaların müəyyən növü: *jewellery, machinery*. «Ary» şəkilçisi çoxmənalı ola bilər: 1. Fishery-balıqçılıq, 2. Balıq yerləri, 3. Balıq ovlamaq üçün hüquqa malik olmaq. «-ary» şəkilçisinə aid ən yeni söz «archery» sözüdür.

7. **N+ase=N** biokimyəvi terminlər yaradır: *amylase, maltase.*

8. **N+aster-N** alçaldıcı isimlər yaradır : *poetaster*

9. **N+ate=N** Aşağıdakı mənalarda olan isimlər əmələ gətirir: 1) yüksək rütbə mənasında: *cardinalate, episcopate, docrorate;* 2) toplu isimlər əmələ gətirir: *electorate*. Bəzi hallarda konversiya da işlənə bilər: *to doctorate*

10. **N+ule=N** kiçildici isimlər yaradır: *spherule, animalcule.*

11. **N+cide=N** Bu model qətl törətmə, həşəratları tələf etmə mənasında isimlər yaradır: *fratricide, insecticide, pesticide, suiciside, genoside*.

12. **N+dom=N** Bu model aşağıdakı mənalarda isimlər yaradır: 1. hal-vəziyyət: *boredom, martyrdom* 2. rütbə: *earldom, dukedom* 3. krallığın yayılma sahələri: *kingdom* 4. insanların bir yerdə cəmləşməsi: *officialdom, teacherdom*. Müasir ingilis dilində bu mənada xeyli miqdarda sözlər yaranmışdır: *boydom, ladydom*. Bu model həm də ümumi bir maraq ətrafında toplaşan bir qrup adamlar mənasında da isimlər yaradır: *bookdom, sportdom, filmdom*. Bu model vasitəsilə heyvanları bildirən isimlər yaranır: *dogdom, catdom, cowdom, horsedom.*

13. **N+drome=N** yer bildirən isimləri yaradır: *aerodrome, airdrome, motordrome*.

14. **N+ee=N** isimlərin kiçildici mənasını yaradır: *shirtee, coatee, bootee.*

15. **N+er=N** Şəxs bildirən isimlər yaradır: *gardener jeweller, glover, Londoner, lifer, lunger, Fleet Streeter, drummer*

16. **N+ese=N** Bu model milliyəti bildirən isimlər yaradır: *Japanese*

17. **N+ess=N** aşağıdakı mənada isimlər yaradır: 1) qadın cinsinə aid şəxslər a) peşə: *actress, poetess* b) milliyyət və yaxud irqinə görə: *Negress* c) ictimai vəziyyətinə görə: *baroness, directress, artistess*. Bu model həm də dişi heyvanları bildirən isimlər yaradır: *lioness, tigress*. Bəzi müəlliflər qeyd edirlər ki, ingilis dilində qadın cinsini göstərən isim o zaman işlənə bilər ki, o xüsusi vurğu ilə ifadə edilsin (*doctress*). Yerdə qalan hallarda isə bu varianta üstünlük verilir: *woman doctor* [6, s. 98]. Bəzi hallarda «male» sözündən istifadəedilir: *male night workers, male cigarette smokers*

18. **N+ette=N** çox az miqdarda kiçildici mənada işlənən isim yaradır: *kitchenette, leaderette.* Bu model ilə çox nadir hallarda «süni dəri» mənası verən söz işlənir: *leatherette*

19. **N+ful=N** dolu, zəngin mənasında işlənir: *basketful, mouthful, spoonful, handful*.

20. **N+hood=N** mücərrəd isimləri yaradır və aşağıdakı mənaları bildirir: 1) hal, vəziyyət: *motherhood, childhood* 2) keyfiyyət: *manhood.*

21. **N+i=N** müəyyən qrup adamlar: *Pakistani, Iraqi, Israeli*

22. **N+ice=N** keyfiyyət, hiss bildirir: *cowardice*

23. **N+ics=N** elmlərin adlarını göstərən isimlər yaradır: *mathematics, electronics, gymnastics.*

24. **N+is=N** tibbi terminlər əmələ gətirir: *tonsillitis, appendicitis.*

25. **N+ism=N** aşağıdakı mənada mücərrəd isimləri bildirir: 1) təlim, nəzəriyyə: *Marxism* 2) ictimai-iqtisadi formasiya: *capitalism* 3) hərəkət və yaxud onun nəticəsi: *heroism* 4) spesifik keyfiyyət (çox tez-tez inkar mənada işlənir): *hooliganism*. «ism» şəkilçisi söz birləşmələrinə qoşula bilir: *do-nothingism*

26. **N+ist=N** müəyyən bir hərəkəti edən insan: *careerist, artist, tourist.*

27. **N+ity=N** vəziyyət/keyfiyyət bildirən isimlər: *rascality, equality, prosperity*

28. **N+kin=N** kiçildici məna bildirən məhdud sayda isimlər yaradır: *lambkin*

39. **N+let=N** kiçildici məna bildirən isimləri yaradır: *cloudlet, streamlet*

30. **N+ling=N** emosional və kiçildici mənada isimlər yaradır (bəzi hallarda inkar məna ifadə edir): *manling*

31. **N+ock=N** *hillock. maddock*, *paddock*tipli sözlər, isimlər yaradır.

32. **N+ship=N** aşağıdakı mənada isimlər yaradır: 1) hal, vəziyyət: *friendship* 2) ictimai vəziyyət, peşə: *ambassadorship*

33. **N+y=N** əzizləyici, kiçildici məna bildirən isimlər yaradır: *daddy, mommy.* Bu şəkilçi bəzən adların sonuna qoşula bilir: *Dicky*.

**ƏDƏBİYYAT:**

1. Less R.B. The Grammar of English Nominalizations. The Hague, 1963.
2. Jespersen Otto. A Modern English Grammar on Historical Principles. Copenhagen, 1942. Part 4.
3. Marchand H. Synchronic Analyses of Word-Formation, Jeneve, 1955.
4. Marchand H. A Set of Criteria for the Establishing of Derivational by Derivational Morphemes. München. 1969.
5. https://en.wiktionary.org/wiki/-th
6. Patridge E. Usage and Changing English. New-York, 1975.

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY*
*2022. Volume 6, Number 2* *Pages 110-119*

***UOT: 159.9***

# THE EFFECT OF EDUCATION IN PRISON CONDITION

**ƏLİYEVA GÜLŞƏN ƏLİƏSKƏR QIZI**
Bakı Dövlət Universiteti
*gulshen.kovser@gmail.com*
orcid.org/0000-0001-9771-1156

**ABSTRACT**

Every citizen has the right to education and it is guaranteed that all citizens have the right to education in Azerbaijan irrespective of differences such as nationality, religion, race, language, sex, age, health and social status, activity area, place of residence and political views – these rights were highlighted in the Article 42 of the Constitution of the Republic of Azerbaijan, but inmates, whose freedom is limited; they are vulnerable group member in education system. European Prison Rules state the education of prisoners shall be integrated with the educational and vocational training system of the country so that after their release they may continue their education without difficulty (European Prison Rules, 2006).

The aim of this research is to interview with a teacher and superior of the correctional settings, and assess the educational process in the prison. Also to examine relation between education factor and future expectation of the prison population.

**Key words**: education, correctional facilities and prisons, inmates, right to education.

**ЭФФЕКТ ОБРАЗОВАНИЕ В ТЮРЕМНЫХ УСЛОВИЯХ**

**РЕЗЮМЕ**

Каждый гражданин имеет право на образование, и в Азербайджане гарантируется, что все граждане имеют право на образование, независимо от таких различий, как национальность, религия, раса, язык, пол, возраст, состояние здоровья и социальное положение, сфера деятельности, место жительства и политические взгляды - эти права были выделены в статье 42 Конституции Азербайджанской Республики, но заключенные, свобода которых ограничена; они являются уязвимыми членами группы в системе образования. Европейские пенитенциарные правила гласят, что образование заключенных должно быть интегрировано в систему образования и профессиональной подготовки страны, чтобы после освобождения они могли беспрепятственно продолжить свое образование (Европейские пенитенциарные правила, 2006 г.).

Целью данного исследования является интервью с воспитателем и начальником исправительного учреждения, а также оценка воспитательного процесса в тюрьме. Также изучить взаимосвязь между фактором образования и будущими ожиданиями заключенных.

**Ключевые слова**: образование, исправительные учреждения и тюрьмы, осужденные, право на образование.

**CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİNDƏ TƏHSİL AMİLİ**

**XÜLASƏ**

Azərbaycan Respublikasında hər bir vətəndaşın dinindən, cinsindən, irqindən, etnik mənsubiyyətindən, dilindən, sosial statusundan, mənsub olduğu siyasi görüşlərindən asılı olmadan təhsil almaq hüququ vardır. Bu məqam Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində öz əksini tapmışdır və həmçinin ölkəmizdə yaşayan digər ölkə vətəndaşlarına da şamil edilir. Tədqiqat obyektini təşkil edən məhkumlar- cəzaçəkmə müəssisələrində cəza çəkən azadlıqdan məhrum edilmiş şəxslər olaraq cəmiyyətin xüsusi bir qrupunu təşkil edirlər. Onların islah prosesinin əsas məqsədi yenidən cəmiyyətə inteqrasiya olunmaları və təkrar cinayətlərin sayının azaldılmasıdır.

Tədqiqatın əsas məqsədi cəzaçəkmə müəssisələrində təhsil amilinin rolunun öyrənilməsi üçün müəssisədə təhsil prosesinə cavabdeh olan heyətlə- müəllim və həmçinin müəssisə rəhbərliyi ilə intervyu keçirilməsi olmuşdur. Həmçinin məhkumların təhsil səviyyəsinin onların gələcək plan və gözləntilərinə olan təsirinin öyrənilməsi hədəf seçilmişdir.

**Açar sözlər**: təhsil amili, təhsil almaq hüququ, cəzaçəkmə müəssisələri, məhkum kontingenti.

**Introduction**

The prisoners right to education was shown in Crime and Penal Enforcement Code of the Azerbaijan Republic (8,10,95,104.5,130$^{th}$ articles). They have right to get secondary and vocational education in correctional settings and it is compulsory for them. Education programs are provided, managed and funded by the Ministry of Education and Penitentiary System. Education process was considered correcting of prisoners, preparation them for freedom, and encourages obedience to the law. Prisoners up to 40 years old involved secondary education in correctional settings, and there are special group that education isn't compulsory for them - inmates over 40 years old, disabled, pregnant and women with infants. Secondary and vocational education in Azerbaijan prisons is free, when some countries require inmates or their family to pay for these courses. 12$^{th}$ March 2004, "Rules educational systems in prisons" between Ministry of Justice and Ministry of Education was accepted, and began to applied at 6 secondary and 17 vocational schools in prison system of Azerbaijan.

People in prison systems worldwide are less educated in general population. So education in prisons is one of the disputable and debatable areas in modern life. Studies show that education in prison is an effective way of reducing the rates of future crimes (Erisman, Wendy; Contardo, Jeanne Bayer; 2005). Authors mentioned that ex-prisoners often face difficulty obtaining employment after their release, and this is associated with recidivism. So prison education programs are intended to reduce re-offending by increasing prisoners' basic knowledge skills and abilities. If they participate vocational trainings in setting, they will have chance of being employed post-release. Another hand researchers highlighted prison education's therapeutic advantages in psychological health and well-being, such as improving self-esteem, stimulating, and motivation.

Scurrah A.M. searched formal and informal learning process in Risdon Prison (Scurrah, 2008). Author noted that prisoners were often absent from school, didn't enjoy school and spent a larger proportion of their time on non academic activities till the imprisonment (Scurrah, 2008). According other research (Golding, 2002) highlighted that majority of the inmates' previous educational experiences were boring and they had negative attitudes to learning continue later in life (Scurrah, 2008).

However opponents argue that prison education is a waste of money and that prisoners do not deserve it. Giving imprisoned people education chance is "rewarding" them for committing crimes, and that is unfair that inmates receive free education when people with low income must pay for it in freedom (Quan-Baffour, Britta E. Zawada; 2012).

Sweden is considered one of the first countries where prison education was applied and Norway opened its first prison where they focused on education in 19$^{th}$ century (Nordic Prison Education; 2005). In Finland, legislation that ensured all prisoners would receive primary education was adopted in 1866. Of course each of them faced practical difficulties.

The Parliamentary Goal Act in England, which called for reading and writing classes in all prisons was adopted in 1823 (Forster, William; Forster, Bill;1996).

It was applied to eradicate illiteracy in the Soviet Union in 1918 and recommended education alongside punishment (Norval M., David J. Rothman; 1998). Prison education policy was realized in Azerbaijan from 1920's, when it became the part of Soviets Union.

Official prison brochure in China highlighted that the cause of committing crime is the lack of moral and intellectual education (Di Tella, 2012). Limited educational opportunities was described as a major factor, and inmates are described less educated than general population in other studies (Angela Koo, 2015). Author believes that education programs in prisons play an important role in future lives of incarcerated individuals and their rehabilitation programs. Rehabilitation can be realized by learning to read, write, compute, and effectively communicate for future upon release (Angela Koo, 2015). Author claims that inmates leaving prison with basic skills and a diploma could be more qualified for employment, and to be far from criminal behavior again. According to Department of Justice's Bureau of Justice Assistance, reporter suggests that receiving correctional education reduces an individual's risk of recidivating after release. In the article Angela K. achieved positive association between prison education and employment, and examples this claim with the Texas, California and RAND study models. To clarify this point author demonstrate the rate of recidivism from prison where was lack of education programs (Angela Koo, 2015).

Lori L. stressed major role of education in the rehabilitation of prisoners (Lori L.H., 2015). According to Steurer et al. (2010), author explained three goals of education: to provide security, safety and rehabilitation.

Research described risk factors of recidivism, specifically race, age, gender, marital status, socioeconomic status (SES), educational attainment, and employment status.At the same time authors supported their argument clearly by using results of meta-analysis of 15 studies by Chappell (2004), it was shown that prisoners who graduated a secondary education in prison had lower rates of returning to prison than others (Lori L.H., 2015). Moreover Lori L. analyzed 10 different researches about this issue which published last 15 years, from 1995 to 2010. The results were analogues; educational process in prison is one of the main reasons for reduction of recidivism.After the discussion of correctional education's impact on recidivism, researchers wondered: where we go? Answering this question they made a connection between correctional employment programs and recidivism, and future research on correctional programs, education and employment, and their impact on recidivism (Lori L.H., 2015).

November 2005, Learning to Reduce Recidivism (a 50 state analysis of postsecondary correctional education policy) was published by Wendy Erisman, Jeanne Bayer Contardo. Prison programming was suggested to help inmates successfully re-enter society after release from prison. Substance abuse treatment, life skills training, vocational training, employment in prison industries, and educational programs from basic level to secondary level were included prison programs. These programs have advantages as improving the mental, physical, and social well-being of prisoners, providing them job training and reduce future crime rates.In this document authors explained future benefits of educational program for prisoners, for states, for taxpayers and for society, although stressed limitations as security, overcrowding, transfers as challenges of prison education system. In a conclusion they raised access of inmates to high education as a future issue and research topic.

The importance of prison education program and its future advantages were described in other countries policy papers, too. May 2016, Unlocking potential – A review of education in prison, by Dame Sally Coates was published (Ministry of Justice UK).

In sum, according to the literature, correctional education significantly reduces inmates' likelihood of returning to prison (recidivism). Prison education also has other psychological aspects benefits, such as improving self-esteem, and stimulating creativity.

**Method:**

Interview questions with teachers of the prison were used to investigate prison education system and teacher's role in this system. Semi-structured interview questions (open-ended questions, and most of them were prepared before the interview, but during the interview some questions appeared gradually) were considered to examine prison education processes and its different aspect. Also the statistical analyzing was described based on survey material with 200 elderly inmates. The research was realized during 2019-2020 in Azerbaijan correctional facilities.

The survey is divided by 8 following components related to the prison life and relationships:

1) the environmental factors in prisons;

2) health conditions;

3) level of interpersonal relationships with prison staff and other inmates;

4) level of support and communication with family members;

5) the type visits ( short and long visits);

6) daily mood;

7) depression level;

8) hope for future.

**Limitation:** The limited numbers of the teachers were participated in the survey. So their answer can be source of generalization. Education process in prison was described based on their answers, so sufficient numbers of them should be involved in the future research. Limited independent variables, as daily mood, future targets, and expectation were checked as independent variables. So the relation between leaning and other variables need be checked.

**Ethics:**

The research was submitted Faculty Social Science and Psychology, Department Gender and applied psychology of the Baku State University, and approved under certificate number 07-2018/04/25. Informed consent was received from all patients in the study.

**Results and conclusion:**

The following table was developed on the basis of questions and answers.

Table 1. Main features of prison education system

| | Questions | answers |
|---|---|---|
| 1 | How can you describe strengths and weakness of prison education system? | The strength of prison education system is very slight. However weakness is considerable and more than others. For example, prisoners don't want learn and they are unwilling. |
| 2 | What are the main challenges of this process? | The first challenge is our students who are isolated from society. These students don't have any interest in learning. The second one is age diversity. We have classes that formed different age groups. |
| 3 | How you can describe your role in this process? | Our first function is to teach them academic subjects, due to pedagogical aspect. The second and important role is to realize correctional conversations with them. |
| 4 | Which methods and tools do you use in your classes? What do you to get your target? | We prefer more correctional speech, explain them different examples from real lives. We have common education program from Ministry of Education, and realize our classes on this bases. |
| 5 | How you can plan your classes? | We prefer traditional and standard approach. |
| 6 | What kind of motivation procedure do you apply to your student to have good results? | With our conversations we try to help their self-esteem, and interest in education. Of course we use evaluating, and healthy competition among them. At the end of the $9^{th}$ and $11^{th}$ years they get a diploma. We explain them that this diploma is the first step for their future career. They can continue their education after release. |
| 7 | Have you ever tried to change this condition? What kind of methods have you used to have good results? | We used standard program of Ministry of Education, but during the lessons we prefer consulting with inmates, but our speech don't influence them. |
| 8 | What do you advice about this issue? | To develop programs, and add new subjects. |

*The education level and well-being of prisoners*

The inmates' educational level was differentiated from 0-5 (0- none education, 1-primary education, 2-incomplete secondary education, 3-secondary education, 4-vocational education, 5-high level of education). Majority of the prisoners' educational background was incomplete (18%), complete secondary education (37%), also vocational education (19%).The prisoners who didn't have any education were 4% of the participants, while primary education was 8%. Elderly inmates who had university education background consist of 9% of the participants. The following diagrams were developed based on comparing survey questions items and education level.

Literature review proves importance of education factor to prevent future recidivism. So this issue was compared during the explanatory section of the research.The first table describes previous conviction and education level of the inmates.

Table 2. Conviction and education level

| Education level | Previous imprisonment | |
|---|---|---|
| | yes | no |
| None education | 6 (7,4%) | 3 (2,5%) |
| Primary education | 11 (13%) | 6 (5,3%) |
| incomplete secondary education | 20 (24,6%) | 17 (14,2%) |
| secondary education | 33 (40,7%) | 45 (37,8%) |
| vocational education | 10 (12,3%) | 31 (26%) |
| high level | 1 (1,2%) | 17 (14,2) |
| Total | 81 | 119 |

Majority of the participants who had previous prison experience their education level were low, only 13,5% of them had diploma and graduate university degree.However inmates who convicted crime for the first time were more than other group. Within that group who had graduate school, and continued vocational or high level of education were higher than inmates who illiterate or didn't complete secondary level of education, respectively 78% and 22%.There was significantly positive correlation, too ($r=0{,}33^{**}$; $p=0{,}00$). This figure confirm the relation between two factors, and importance of education.




Picture 1. Education level and daily mood

Majority of the prisoners assessed their daily mood as changeable; it was affected easily, and fluctuated. A few of them think that their emotional state is adequate. Correlation between two factors was positive and significant ($r=0.178^{*}$, $p=0.012$).




Picture 2. Education level and future expectation

The future expectation of the elderly inmates and their plans are the main factor of surviving. Majority of them don't have any life expectation and future targets, also there was positive weak correlation ($r=0,150^{*}$; $p=0,034$). These figures let me say that inmates who are conscious and well-informed, they have goals, and expectation and these factors help them to survive.

So the statistics of the survey support literature material. Education has an important role before imprisonment and in prisons.People whose educational levels are lower than others they convicted crime twice and more. This fact influence their prison lives, daily mood and emotional state, too. Their future life expectation after release isn't obvious and clear comparing educated people. In this situation research emphasize significance of formal learning, vocational education, or continuing education in correctional facilities.

Comparing and analyzing teacher's answer, firstly teacher expectations were discovered. Negative expectations influence students' achievement and attitudes to education system, and as we know it is cyclical process. It repeats again and again. Teacher stress students' low learning abilities, but didn't explain this argument IQ, general intelligence, multiple intelligence, EQ (emotional intelligence) results. Of course, these groups have exceptionalities for ages, social class, and criminal backgrounds. Stereotyping about inmates influences this education process negatively, and it is proved teacher's speech. For example this kind of stereotype – any inmates can't change, or they are same, can be called overgeneralization in social research.

When discussed planning side of prison teacher's activity, traditional model was used more than other methods. Content planning is realized on the base Ministry of Education standard program. The outcomes of this process are certificates and diplomas in the end of the year.

Teacher prefers correctional speech to motivate students, and use examples to prove their arguments. The process based on behavioral approach, for example grades were used as a positive and negative reinforcement. If teacher used group perspectives and student centered approach, he could motivate them, and would get better results. So students' unwillingness made this process difficult.

Assessment consists of summative, individual, and test (open and close ended questions) methods. Analyzing these results some difficulties were discovered:

- Poor planning;
- Lack of monitoring;
- Using only traditional model;
- Lack of motivation;
- Negative expectations, and stereotyping about inmates;
- Poor association between subjects and real job market;
- Last document was signed in 2004, since that time there isn't any new conception, or using the international research and recommendation;
- Teachers weren't involved any training or seminars about that issue, and most of them are elder than 50 years old.

Although prison education system has more weakness, during head of prison interview I find a few strength sides.He stressed that they want to realize courses deal with real job market; these can be computer course, marketing course or hotel service and etc. Moreover they use family relations and explain future perspectives of education process to motivate them. Another hand it is free in Azerbaijan, while in other countries prisoners or their families have to pay education fee.

Ex-prisoners often face employment difficulties after release, and this is strongly associated with re-offending. Prison education and its role as reducing recidivism and increasing chances of being employed have been highlighted in different researches.

Considering the results of interview and comparing different literatures the following recommendation were made:

- Teachers in prison education system should be involved in different courses, such as communication skills, understanding human behavior, instructional techniques;
- Monitoring prison education system should be strengthen and intensified;
- New subjects and vocational trainings should be applied for inmates; The government should continue to develop and employ prisoners after release;
- This issue should be explored in future researches.

**Informed Consent:** Informed consent was obtained from the participants.

**Conflict of Interest:** No conflict of interest was declared by the authors.

**Financial Disclosure:** The authors declared that this study received no financial support.

**Acknowledgements**

My deepest gratitude is extended to my advisor, Associate Professor, Elmina Kazimzadeh who motivated, and supported me during these years.

## Appendix 1.

### Socio-demographic factors of inmates

| | N=200 | frequency | percent |
|---|---|---|---|
| age | <60 | 32 | 16% |
| | >60 | 168 | 84% |
| total | | 200 | 100% |
| Education level | illiterate | 9 | 4,5% |
| | 1-9 | 54 | 29% |
| | 10-11 | 78 | 39% |
| | Diploma and above | 59 | 29,5% |
| total | | 200 | 100% |
| Types of crime that commited | murder | 90 | 45% |
| | Sexual assault | 7 | 3% |
| | Conflict | 28 | 14% |
| | robbery | 5 | 2% |
| | Drug traffic | 58 | 29% |
| | others | 12 | 6% |
| total | | 200 | 100% |
| Duration of the improsenment | Till 3 years | 12 | 6,5% |
| | 3-5 years | 14 | 7% |
| | 5-10 years | 87 | 43% |
| | 10-15 years | 60 | 30% |
| | More than 15 years and life sentence | 27 | 13,5% |
| total | | 200 | 100% |
| regime | common | 83 | 41,5% |
| | strict | 97 | 48,5% |
| | severe | 20 | 10% |
| total | | 200 | 100% |

## Appendix 2.

### Questionnare for elderly inmates

| | | |
|---|---|---|
| 1 | Name, surname | |
| 2 | Date ofbirth, age | |
| 3 | Article of improsonment | |
| 4 | Length of conviction | |
| 5 | Are you suffering any desease? | |
| 6 | Are you respected, treated differently in sentence due to your age? | |
| 7 | Are you satisfied with medical service in prison? | |
| 8 | Are you satisfied personelle atitude towards prisonners? | |
| 9 | Are you satisfied with other prisonners relationship? | |
| 10 | Do you havecommunication with family members and relatives? | |
| 11 | Do your family members and relatives visit you (short-term visits)? | |
| 12 | Do your family members and relativies visit you long-term (3 days)? | |
| 13 | How can you describe your daily mood? | |
| 14 | How to you see yourself in long term perspectives? | |

**REFERENCES:**


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsi, 2000.
2. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi, 2000.
3. "Müəyyən müddətə azadlıqdan məhrumetmə növündə cəzaya məhkumolunmuş şəxslərin ümumi orta təhsilinin həyata keçirilməsi Qaydası" (12 mart 2004)
4. Alzúa, María Laura; Rodriguez, Catherine; Villa, Edgar. "The Quality of Life in Prisons: Do Educational Programs Reduce In-Prison Conflicts". In Di Tella, Rafael; Edwards, Sebastion; Schargrodsky, Ernesto (eds.). The Economics of Crime: Lessons For and From Latin America. University of Chicago Press. ISBN 978-0226791852. 2012.
5. Angela Koo "Correctional Education Can Make a Greater Impact on Recidivism by Supporting Adult Inmates with Learning Disabilities, 2015.
6. Di Tella, R., & Schargrodsky, E. (2013). Criminal recidivism after prison and electronic monitoring. Journal of political Economy, 121(1), 28-73.
7. Erisman, Wendy; Contardo, Jeanne Bayer "Learning to Reduce Recidivism: A 50-State Analysis of Postsecondary Correctional Education Policy" (PDF). Institute for Higher Education Policy. OCLC 62288406, 2005.
8. Forster, William; Forster, Bill. "England and Wales: the state of prison education". Journal of Correctional Education. 47 (2): 101–105. ISSN 0022-0159. JSTOR 23295645. OCLC 427183672, 1996.
9. Quan-Baffour, Kofi Poku; Zawada, Britta E."Education programmes for prison inmates: reward for offences or hope for a better life?" (PDF). Journal of Sociology and Social Anthropology.ISSN 0976-6634, 2012.
10. Scurrah, A. M. (2008). LEARNING ON THE INSIDE IN RISDON PRISON (Doctoral dissertation, University of Tasmania). Researchgate.net
11. Morris, N., & Rothman, D. J. (Eds.). (1998). The Oxford history of the prison: The practice of punishment in Western society. Oxford University Press, USA.
12. Nordic Council of Ministers. Nordic Prison Education: A Lifelong Learning Perspective. Business & Economic. ISBN 978-9289311472, 2005.
13. Lori L. Hall "Correctional Education and Recidivism: Toward a Tool for Reduction" The Journal of Correctional Education 66(2) ,May 2015.

*2022. Volume 6, Number 2* *Pages 120-123*

*UOT: 81`36*

# DİLİN QRAFİK SİSTEMİNDƏ DURĞU İŞARƏLƏRİNİN ROLU

**GÜLNAR ƏSGƏROVA**

AMEA Nəsimi adına Dilçilik İnstitutu,

Bakı Mühəndislik Universiteti,

*guasgarova@beu.edu.az*

**XÜLASƏ**

Qrafika sistemi kommunikasiyanın yazılı formada həyata keçirilməsində əsas vasitələr hesab olunur. Qrafika geniş anlayışdır. Rəssamlıq sənətinin bir adı da qrafikadır. Yəni bu termini həm geniş mənada, həm də dar mənada başa düşmək mümkündür. Müasir dilçilik elmində qrafika yazı termini ilə paralellik, ekvivalentlik təşkil edir. Yunan mənşəli *grapho* "yazıram, çəkirəm" sözündən yaranan bu termin bir çox aspektlərə malikdir. Geniş mənada qrafika dedikdə bütün yazı vasitələrinin məcmuyu nəzərdə tutulur. Qrafikaya bütün şərti işarələr, diakritik işarələr, elmi işarələr, rəqəmlər, simvollar [rəmzlər], hərflər [həm böyük, həm də kiçik hərflər, çap hərfləri], diqraf [iki hərf birləşməsi] və triqraf [üç hərf birləşməsi], poliqraflar, durğu işarələri aiddir. Durğu işarələri dilin qrafika sistemində əhəmiyyətli bir yer tutur. Bu termin dar anlamda əlifba və orfoqrafiya anlayışlarını ifadə edir. Dilçilikdə qrafiki normalar dedikdə orfoqrafiya normaları nəzərdə tutulur. Məsələn, biz latın qrafikalı Azərbaycan əlifbası deyirik. Latın və kiril əlifbalarının mənşəyi birdir, onların hər ikisi qədim yunan əlifbasından yaranmışdır.

**Açar sözlər:** qrafika, punktuasiya, durğu işarələri, qrafika sistemi

**THE ROLE OF PUNCTUATİON MARKS İN THE GRAPHİC SYSTEM OF THE LANGUAGE**

**ABSTRACT**

The graphics system is considered the main means of communication in written form. Graphics is a broad concept. One name of the art of painting is graphics. That is, it is possible to understand this term in both a broad and a narrow sense. In modern linguistics, graphics is parallel and equivalent to the term writing. Derived from the Greek word graph "to write, to draw", this term has many aspects. In a broad sense, graphics means a set of all writing tools. Graphics include all conventional signs, diacritical marks, scientific marks, numbers, symbols [symbols], letters [both upper and lower case, block letters], digraphs [two letter combinations] and trigraphs [three letter combinations], polygraphs, punctuation marks belongs to. Punctuation marks occupy an important place in the graphic system of the language. This term narrowly refers to the concepts of the alphabet and orthography. In linguistics, graphic norms mean orthographic norms. For example, we say the Azerbaijani alphabet in Latin script. The Latin and Cyrillic alphabets have the same origin, they both originated from the ancient Greek alphabet.

**Keywords: graphics, punctuation, punctuation marks, a graphics system**

**РОЛЬ ЗНАКОВ ПРЕПИНАНИЯ В ГРАФИЧЕСКОЙ СИСТЕМЕ ЯЗЫКА**

**РЕЗЮМЕ**

Графическая система считается основным средством коммуникации в письменной форме. Графика — это широкое понятие. Одно из названий искусства живописи — графика. То есть понимать этот термин можно как в широком смысле, так и в узком. В современной лингвистике графика параллельна и эквивалентна термину письмо. Этот термин, происходящий от греческого слова grapho «писать, рисовать», имеет много аспектов. В широком смысле под графикой понимается совокупность всех средств письма. Графика включает в себя все условные знаки, диакритические знаки, научные знаки, числа, символы [символы], буквы [как прописные, так и строчные, печатные буквы], орграфы [двухбуквенные комбинации] и триграфы [трехбуквенные комбинации], полиграфы, знаки препинания принадлежат к. Знаки препинания занимают важное место в изобразительной системе языка. Этот термин узко относится к понятиям алфавита и орфографии. В языкознании под графическими нормами понимаются орфографические нормы. Например, мы говорим азербайджанский алфавит латиницей. Латинский и кириллический алфавиты имеют одинаковое происхождение, они оба произошли от древнегреческого алфавита.

**Ключевые слова:** графика, пунктуация, графическая система

Məlumdur ki, ilkin yazı növünün əsasında müxtəlif ideoqramlar dayanırdı. Həmin ideoqramların sayı müxtəlif həddə idi. Müasir yapon və çin yazılarında minlərlə işarə var. Deməli, ideoqrafik yazıdan hərfi yazıya keçid nəticəsində qrafiki işarələrin sayı azaldıldı. Bu isə insanalara yazıdan maksimum şəkildə yararlanmaq imkanı verdi. Buna görə də V.R.Lvov "Nitq nəzəriyyəsinin əsasları" əsərində qeyd edir ki, *"hərfi yazıya keçid əvvəlki yazı növlərindən fərqli olaraq yazının mahiyyətini dəyişdirmiş oldu. Fonematik yazıya keçid yüzlərlə orfoqrafik və qrafikqaydaların yaradılmasını zəruriləşdirdi. Çünki ideoqrafik yazıda bunlara ehtiyac yox idi"* [3, s.83]. İdeoqrafik yazıda bir işarə bütöv bir anlayışı ifadə edirdi. Bir sözlə, müasir yazı qeyri-verbal ünsiyyətin ən tipik variantlarından biridir.

Dilin qrafik sistemi, ilk növbədə, fonoloji sistemin yazıda əks olunmasına xidmət edir. Qrafika sistemində eyni işarə bəzən polifunksional funksiya daşıya bilir. Məsələn, əgər nötqə işarəsi əksər yazı sistemlərində əsas durğu işarələrindən biri sayılırsa, eyni zamanda ərəb əlifbasında bir çox hərflərdə diakritik funksiya daşıyır. Eyni fikri ərəb qrafikasına əsaslanan müasir fars əlifbasına da şamil etmək olar.

Əlifbadakı hərflərlə dildəki səslər çox zaman bərabərlik təşkil etmir. Məsələn, latın qrafikalı müasir Azərbaycan əlifbasında 32 hərf olduğu halda Azərbaycan dilində 35 fonem mövcuddur, və yaxud müasir ingilis əlifbasında 26 hərf olduğu halda ingilis dilində 44 fonem mövcuddur. Müasir ingilis, fransız və ispan dillərində diqraflardan geniş istifadə olunur. Yəni müasir Azərbaycan, ingilis, fransız və ispan dillərində mənşəcə eyni əlifba sistemlərindən istifadə edilməsinə baxmayaraq, bu dillər tipoloji cəhətdən fərqli dillərdir. Həmin dillərin fərqli fonoloji sistemləri var. Buna görə də yazı sistemləri latın qrafikasına əsaslanan, uyğunlaşdırılan bu dillərdə spesifik fonemləri işarə etmək üçün müxtəlif qrafiki vasitələrdən istifadə olunur.

Dilçiliyin inkişafı nəticəsində *qrafiki linqvistika* adlanan dilçilik sahəsi də meydana gəlmişdir. Qrafiki linqvistikanın əsas tədqiqat obyekti yazı nəzəriyyəsi, yazının yaranma prinsipləri, yazı mədəniyyəti, yazının müxtəlif növlərinin yaranması, yazının etnokulturoloji, semiotik, kommunikativ-praqmatik mahiyyətidir. Müasir nəzəri dilçiliyin əsas problemlərindən biri yazılı kommunikasiyanın psixolinqvistik, sosiolinqvsitik, funksional-semiotik aspektlərinin öyrənilməsidir. Bəzən dilçlilikdə qrafiki dilçilik termini əvəzinə *qrammatalogiya* istilahından da istifadə olunur.

Yazının inkişafı, təkmilləşməsi mədəniyyət tarixi ilə sıx bağlıdır. Yazının linqvokulturoloji mahiyyəti ondadır ki, yazı dünya sivilizasiyalarının etno-mədəni tərəqqisində mühüm rol oynamışdır. Məlumdur ki, yazı bir neçə mərhələdən keçmişdir. İndiyə qədər yazının əşyəvi, şəkli [piktoqrafik], ideoqrafik, fonoqrafik növləri yaranmışdır. Əgər şəkli yazıda piktoqramlar vasitəsilə fikir ifadə olunursa, ideoqrafik yazıda ideoqramlar vasitəsilə fikir ifadə olunur. Fonoqrafik yazı isə əvvəlcə sillabik [heca], sonra isə hərfi yazı mərhələsini keçmişdir. Müasir çin, koreya və yapon yazıları heroqlif yazılar hesab olunur. Bu yazı sistemlərində yüzlərlə heroqlifdən istifadə olunur. Çin yazısında hələ də piktoqramlardan da istifadə olunur, həmin piktoqramlar müasir çin yazısında əhəmiyyətli yer tutmaqdadır. Yəni müasir dövrdə dünya dillərində müxtəlif əlifba sistemlərindən istifadə olunur. Həm fonoqrafik tipli əlifbalar, həm də ideoqrafik mahiyyətli heroqlif tipli əlifbalar tətbiq olunur. Hər bir əlifba sisteminin özünəməxsus xüsusiyyətləri mövcuddur.

Adil Babayev "Dilçiliyə girş" əsərində yazır ki, *"yazı – qrafika məsələləri əməli dilçiliyin ən qədim sahələrindəndir. Az-çox dil problemləri ilə tanış olan adamlar yazı haqqında düşünmüş, onun əhəmiyyətini dərk etmiş, onu bir sistem kimi meydana gətirmişdir. Hələ semiotik işarələr meydana*

*gəlməmişdən çox-çox əvvəl yazının bu və ya digər funksiyasını ifadə etmək üçün müxtəlif vasitələrdən istifadə edilmişdir. İlk əvvəl qrafika müəyyən müstəvi üzərində nə isə bir şey cızmaq mənasında işlənsə də, sonralar bütöv bir yazı sistemi mənasında işlənmişdir. Əvvəlcə anlayışın, sonra fikrin ifadəsindən başlamış səslərin işarələnməsi və əlifba sisteminin yaranması ilə məşğul olan alimlər dilçiliyin məhz əməli-təcrübi məsələləri ilə məşğul olmuş, yazı inkişaf etdikdən sonra yeni bir problemi – düzgün yazmanı bir zərurət kimi irəli sürmüşlər"* [1, s.72]. Fikrimizcə, A.Babayev haqlıdır. Belə ki, düzgün yazma zərurəti yazınının inkişafı ilə bağlı yaranmış bir məsələdir.

Tarixən yazı mədəniyyətində kalliqrafiyanın, yəni xəttatlığın təşəkkül tapması, yazılı kommunikasiyanın inkişafı, nəşriyyat-poliqrafiya işlərinin yaranması, poleoqrafiyanın [əlyazmaların] təşəkkül tapması durğu işarələrinin həm kəmiyyət baxımından, həm də funksionallıq baxımından təkmilləşdirilməsinə gətirib çıxarmışdır. Halbuki yazıda ilkin durğu işarələrin işlədilməsinə zərurəti yaradan ilk səbəb antik yunan dönəmində oratorluğun, yəni natiqliyin inkişafı olmuşdur.

Dilçilikdə qrafem nəzəriyyəsi də var. Qrafem termini dilçilikdə konkret bir hərfin, işarənin funksiyasını ifadə edir. Yəni qrafem hər bir hərfin müxtəlif variantda olan işarəsidir, yazı vahididir. Hərflər sisteminə böyük və kiçik hərflər, çap hərfləri, hərflərin kursiv variantları daxildir.Eyni zamanda, qrafemlərə diakritik işarələr, alloqraflar aiddir.

Ümumiyyətlə, yazının yaranması bəşər mədəniyyəti tarixində mühüm hadisədir. Tarixən yazı mədəniyyəti təkmilləşdikcə yazının funksiyaları da təkmilləşmiş və yazının etnokulturoloji əhəmiyyəti artmış, semiotik aspektləri öyrənilməyə başlanılmışdır. Yazı şifahi nitqlə yazılı mətn arasında kommunikativliyi təmin edir.Orfoqrafiya normaları yazılı ədəbi dilin sabitliyini mühafizə edir, yazılı ədəbi dili standart formalara salır. Hər bir ədəbi dilin fonetik normaları sistemində orfoqrafiya qaydaları mühüm yer tutmaqdadır. *Orfoqrafiya* termini yunan mənşəli *orto* "düzgün", *qrapho* "yazıram" sözlərinin sintezindən yaranmışdır. Orfoqrafiya qaydaları əsasında orfoqrafiya lüğətləri tərtib olunur ki, bu lüğətlər də ədəbi dilin düzgün yazı standartlarını əks etdirir.

Dilçilikdə fonetika və fonologiya ilə bağlı araşdırmalarda, transliterasiya məsələlərinin şərhində müxtəlif spesifik işarələrdən də istifadə edilir ki, onlar da dilin qrafik sisteminə aid işarələrdir. Yəni istənilən şərti işarə qrafiki mahiyyətlidir. Müxtəlif elm sahələrində işlədilən şərti işarələr, düsturlar da qrafiki xarakterlidir.Müasir dövrdə internet texnologiyalarının inkişafı bu işarələrin həm kəmiyyətcə, həm də məzmunca dəyişməsinə gətirib çıxarmışdır.

Dünya nəzər dilçiliyinin tanınmış simalarından biri olan Ferdinand de Sössür "Ümumi dilçilik kursu" əsərində dilin yazı vasitəsilə əks olunması məsələsinə böyük önəm vermişdi. O, yazının statusu, yazı sistemi, yazılış ilə tələffüz arasındakı ziddiyyətlərin səbəbləri məsələlərini nəzəri aspektdən şərh etmişdir.F. de Sössür qeyd edirdi ki, *"dil və yazı iki müxtəlif işarələr sistemidir ki, onlardan ikincisinin yeganə mənası birincisinin təsvirinə xidmət etməkdir, dilçiliyin predmeti səslənən sözlə qrafik sözün vəhdəti deyil, istisnasız olaraq səslənən sözdür. Lakin qrafik söz təsvir etdiyi səslənən sözlə o qədər sıx qovuşur ki, nəticədə, başlıca rolu mənimsəmiş olur"* [3, s. 87].

Punktuasiyanın digər qrafiki vasitələrdən əsas fərqi odur ki, punktuasiya yazılı mətnin qrafiki cəhətdən qurulmasını və bölünməsini təmin edir. Punktuasiyanın mahiyyətində yazı nəzəriyyəsi dayanır. Yəni yazının nəzəri-metodoloji prinsiplərini, nəzəri aspektlərini, mətnin yaranmasının sintaktik ölçülərini, qaydalarını, prosodiyanın nitqdəki rolunu, yazılı nitqin

semantik çalarlarını bilmədən punktuasiyanın mahiyyətini dərk etmək, onu müasir dilçilik istiqamətlərindən təhlil etmək qeyri-mümkündür.

Tarixən durğu işarələrinin yaranması yazı mədəniyyətinin təkmilləşməsi ilə sıx bağlıdır. Belə ki, antik dövrlərdə natiqlik sənətinin inkişafı ilə bağlı olaraq yazı ilə oxu arasındakı rabitəni, tarazlığı, paralelliyi təmin etmək üçün ilk durğu işarələrindən istifadə olunmuşdur. Yəni durğu işarələrinin yaranmasını zəruri edən səbəb danışıq mədəniyyəti ilə yazı mədəniyyəti arasındakı disbalansı aradan qaldırmaq olmuşdur. Öncə də qeyd etdiyimiz kimi, qədim yazılarda heç bir durğu işarəsindən istifadə olunmurdu, mətnlərdə sözlər bitişik yazılırdı. Sonradan isə oxu mədəniyyətini inkişaf etdirmək, ifadəli oxunu təmin etmək üçün məhz ilk durğu işarələrinin yaranması zəruriləşdi. Çünki səslənmə ilə yazı arasında mövcud balansı ancaq durğu işarələri təmin edə bilərdi.

C.Lakof və R.Lanqaker Filmorun semantika ilə bağlı qeyd olunan fikrinə qarşı çıxaraq sözləri məna çərçivəsindən çıxararaq onlara daha həssaslıqla yanaşılmasını və konseptin vacibliyini vurğulayırlar. Ruiz de Mendoza da əslində daha çox Lanqakerin fikrini təsdiqləyir və sözönülü ifadələrdə daha çox onun fikrinə əsaslanaraq müəyyən izahlar verir [1,s.258].

## Əsas hissə.

Ümumiyyətlə, koqnitiv dilçilik məna və konsept anlayışlarında daha geniş yelkənlər açır. Qeyd edək ki, Con Teylor da sözlərin qruplaşmasında və mənanın izahında klassik təsnifatlandırmanın əks mövqeyində dayanaraq prototiplərin məna genişlənməsində rolunu xüsusilə ön plana çəkir. O, üzvlər arasındakı kateqoriyalaşmanı vurğulasa da, üzvlərin mənadan qopmadığını, dolayı yolla da olsa, öz mərkəzi mənasından ayrılmadığını iddia edir [1,s.260].

Əslində, bu fikir məna ensiklopediyası konseptinəgedən yolun üzərinə işıq salır. Bu o deməkdir ki, prototiplər bir tərəfdən bir-birlərini əvəz edə bilsələr də, digər tərəfdən əvəzlənmə

müəyyən bir həddə qədər ola bilər, çünki elementlərin özləri müəyyən şəraitdən asılı olaraq öz fərdi semantikasını göstərir. Lanqaker iddia edir ki, ensklopedik biliyin qəbul edilməsi mərkəzilik və şəbəkə quruluşunda öz həllini tapa bilər. O, həm də inanır ki, ifadələr məna üçün konkret konteyner və qəlib rolunu oynamamalıdır [1,s.260].

Ruiz de Mendoza öz araşdırmasında Lakofun məna mərkəzinə dair çatışmazlıqları göstərir. Belə ki, Lakoff məna mərkəzləşməsində əsasən ideallaşdırılmış koqnitiv modelin bir növü olan sözönülü ifadələri əsas götürür. Lakin sözönülü ifadələrdə mənanı aydınlaşdırarkən müəyyən problemlərin yaranması danılmazdır [1,s.263].

Mənaya konsept nöqteyi-nəzərindən yanaşsaq, ingilis dilində *party (yığıncaq)* sözünün izahı müxtəlif lüğətlərə görə fərqlənir.

*Party* qonaqların dəvət olunduğu yer, əyləncə yeri, insanların sosial mühit yaratdığı yer və s. kimi izah edilir. *Party* məkan və zamanın birləşdiyi konsept kimi qiymətlənirilir. Deməli, şəraitə görə şeir partisi, rəqs partisi, əyləncə məkanı, ad günü partisi və s. ola bilər. Parti təkcə yeyib-içilən əyləncə məkanı kimi deyil, ruhun qidası olan şeir və musiqi məkanı da ola bilər. Burada əsas məna insanların toplandığı yerdir. Bu məna konseptlərə uyğun olaraq şaxələnə bilər [1, s.264-268].

Deməli, Lakoff mənanın daxili quruluşunu ön plana çəkərkən, Mendoza konseptlərarası şəbəkələrə diqqət çəkir. Məhz İKM bu cür fərqli yanaşmaları aydınlaşdırmaq üçün bu problemləri sxem və şəbəkədə izah etməyə qadirdir.

Ideallaşdırılmış Koqnitiv Modellər (IKM) Corc Lakof tərəfindən "Qadınlar, yanğın və təhlükəli şeylər: Kateqoriyalar ağıl haqqında nəyi açar" kitabında təqdim edilmişdir. IKM-lər dünya haqqında biliklərimizi təşkil edən mürəkkəb *Gestalt* strukturlarını təmsil edir [1,s.268]. *Gestalt* strukturu ətrafımızdakıların fərdi təcrübəmizə əsasən bütöv qavranmasını, hissələrdən çox, bütöv və tam anlayışının rolunu iddia edən və XX əsrin əvvəllərində yaranan nəzəriyyədir. Nəzəriyyə fəlsəfə və psixologiya elminə 1890-cı ildə təqdim olunsa da, geniş araşdırmalar XX əsrə aiddir. Gestalt alman dilindən tərcümədə forma mənasını verir. İnsanın vizual təcrübəsinə əsasən obyektin qavranılması burada öz əksini tapır [4, s.1-3].

İKM-lərdə də obyektin müxtəlif vəziyyətlərindən bəhs edilir.Ümumiyyətlə gestalt strukturuna da söykənərək ideallaşdırılmış koqnitiv modellərin insan təcrübəsi və şəraiti ilə sıx bağlı olduğu iddia edilir. Hətta mücərrəd yanaşmalar da ilkin olaraq sadə təcrübələrə dayanır [5,s.2-8]. IKM-lər eyni zamanda təsnifatlandirma və prototip effektinə, sözlərdə məna şaxələnməsi kimi məsələlərə də təsir edir.

Lakoff izahında *party* (yığıncaq) sözündən başqa analıq anlayışına da aydınlıq gətirməyə çalışır. O, analıq sözünə bioloji olaraq doğum edə bilən və özündən qidalandırmaya malik anlayış kimi baxır. Lakin onun bu fikirləri birmənalı qarşılanmır və şəraitdən asılı olaraq daha geniş konseptlərin olduğu sübuta yetirilir [1, s. 268].

Ana uşağı dünyaya gətirir, uşağı böyüdür, süd verir. Ana uşaq üçün yumurta hüceyrəsi, atanın həyat yoldaşı, növbəti yaşlı nəsil nümayəndəsi və qohumluq əlaqəsi yaradan insandır. Bu modellərdən biri lüğətdəki ilk məna kimi dominant olmalıdır. Beləliklə, koqnitiv dilçiliyə əsasən *ana* İKM fonunda bəzən fərqli ola bilər. Ögey ana, surroqat ana, biloloji ana, mənəvi ana, və s. kimi birləşmələr ana sözündən alt kateqoriyalar yarandığını göstərir. Əlbəttə, ilkin baxışda Lakofun fikri təbiətin gerçəkliyinə və həqiqətə uyğun olsa da, zamanla, müəyyən şərait və

texnologiyanın inkişafı ilə bağlı olaraq bu fikir bəzən özünü doğrultmaya bilər. Dilimizdə daşıyıcı ana, bioloji ana, böyüdən ana və s. ifadələri onu göstərir ki, analıq etmək təkcə bioloji deyil, həm də zamanla göstərilən xüsusi qayğıdır. Bu qayğını isə körpəni dünyaya gətirməyən və ona analıq edən ikinci bir şəxsdən də görmək olar. Digər tərəfdən bioloji olaraq uşağı dünyaya gətirən ana onu qidalandırma gücünə sahib olmaya bilər. Deməli, belə bir nəticəyə gəlmək olar ki, bəzən alt kateqoriyalar vahid məna ətrafında birləşsələr də, bu yarımkateqoriyalar öz aralarında bir -birinə əks ola bilir.

İOSR- Amerikanın humanitar və ictimai elmlər əsaslı jurnalında araşdırmaya əsasən Ruiz de Mendoza koqnitiv modelləri əməli və qeyri-əməli olmaqla ikiyə ayırır. Metafora və metonimiya sözönülü və obraz sxem kimi koqnitiv modellərin istifadəsinə kömək olan əməli idrak modeli hesab olunur. Ruiz de Mendoza hətta metafora və metonimiyanın da bölünməsi fikrini irəli sürür. Koqnitiv dilçilikdə metafora və metonimiya gündəlik həyatımızda işlənən konseptual mexanizmlərdir. Lakoff və Jonson, ümumiyyətlə, metaforanın varlıqla bağlı olan, istiqamət bildirən, məkanla, insan və heyvanla bağlı və.s kimi növlərini göstərərək koqnitiv modellərin geniş olduğunu söyləyir [6,s.51-56]. Ç.Filmorun çərçivə (frame) modellərindən fərqli olaraq İKM-lər dünyanı mütləq dəqiqliklə təmsil etməyə çalışmırlar, onlar mədəniyyət əsaslıdır və universaldır. Çərçivə semantikasında bir məna üzərində yeni bir məna törətmək və ya qrammatik quruluş yaratmaq mümkündür. Freymlər daha çox təcrübə və adət-ənənələrdən yaranan yeni konseptlər toplusudur [7, s.111-112]. IKM anlayışını təsvir etmək üçün C. Lakof, Yerin Günəş ətrafında tam dövrə vurduğu vaxt *gündüz* və *həftəlik* kimi konsepsiyanı özündə birləşdirən ideallaşdırılmış koqnitiv model daxilində məna kəsb edən *çərşənbə axşamı* anlayışına müraciət edir və bunu yeddi gündən biri hesab edir. Qeyd edək ki, hər xalqın adətinə görə həftənin günləri fərqli başlaya bilər və ya fərqli strukturda olar. Azərbyacanda bazar ertəsi, ingilis dilində isə Sunday (bazar günü) həftənin ilk günü hesab olunur.

Daha mürəkkəb bir nümunə, subay yetkin kişi kimi təyin oluna bilən ingiliscə *bachelor* (subay) anlayışıdır. Bununla birlikdə, Tarzan və ya Papanın tərifə uyğun olmasına baxmayaraq, subay kimi təsnif etmək çətindir. Beləliklə, bu konsepsiya nikahlı insan və ya evlilik yaşı olan ideallaşdırılmış koqnitiv modellə müqayisə edilir. Model çoxarvadlılığa icazə verilən keşişlər və dinlərin nümayəndələri haqqında heç nə demir, yəni İKM cəmiyyətin müəyyən təbəqələrinin sisteminə uyğundur, lakin periferik və ya istisna hallarda işləmir.

Araşdırmaya əsasən Lakof (G.Lakoff) beş növ ideallaşdırılmış koqnitiv model (İKM) növlərini fərqləndirir:

• Sözönülü İKM-lərə sadə elementlər və onlar arasında əlaqələr daxildir. Bunun ən sadə növü ssenarilərdir.

• Obraz-sxemli İKM-lər obyektin yerləşdiyi yerə, onun formasına, hərəkət trayektoriyasına və s. uyğundur.

• Metaforik təsvirlər bəzi əşyaların bir ərazidən digərinə köçürülməsi zamanı baş verir.

• Metonimik xəritələr bir anlayış digərini əvəz etdikdə tətbiq edilir.

• Simvolik (işarəvi) İKM-lər dil haqqında bilikləri təsvir edir

Buna görə də, IKM termini ilk növbədə Filmorun çərçivə anlayışına, Lakof və Consonun metafora nəzəriyyəsinə əsaslanır. Bundan başqa mental məkanlar, obraz-sxemlərlə yanaşı, İKM-lər bilik strukturlarını təmsil edən metodu və linqvistik ifadələrin semantikasını təsvir etmək üçün bir alət kimi istifadə olunur [8].

Deməli, ideallaşdırılmış koqnitiv modellər dünyanın dərk edilməsi, maddi və mənəvi dünyanın birləşdirilməsi üçün vacib məsələləri əhatə edir.

Metaforanı gündəlik təcrübədən çox adətən ədəbiyyat dilinə aid edirlər. Metafora əsasən daha çox hekayə və ya sözlərin maraqlı istifadəsinə aid olur. Lakin bəzi dilçilərin və digər dil tədqiqatçılarının fərqli düşüncələri var. Bunlar arasında ən çox Lakoff və Consonun metafora ilə bağlı fikirləri daha geniş yayılıb. Metafora daha irəliyə gedərək dildə mərkəzi yer tutur və düşüncələrimizlə sıx bağlıdır. Lakoff və Conson göstərirlər ki, dildə vacib məsələ olan metafora gündəlik həyatımızda necə geniş yayılır. Metafora bizim bütöv konseptual sistemimizi əhatə edə bilər. Lakoff həmçinin yeni mental konsept formalaşması nəzəriyyəsini həm dil, həm dilöncəsi aspektdən təmin edir. İdeallaşdırılmış koqnitiv modellər nəzəriyyəsi dildə metafora əməliyyatı üçün mümkün olan mexanizmi təmin edir, lakin bundan da çox İKM dünyanı bütöv dərk etməyimiz üçün maddi konseptlərdən dil kimi ən mücərrəd elmi konseptlərə qədər dünyanı bütöv dərk etməyimiz üçün bir vasitə ola bilər [9,s.1]. Bundan əlavə bu nəzəriyyə ünvana doğru istənilən dil üçün, xüsusilə də paralel paylanmış neyral şəbəkə prosesi modelləri üçün vacib yeni kriteriya toplusunu təmin edir.(PDP-Paralel Distributed Processing neural network).

Əlbəttə metafora idellaşdırılmış koqnitiv modellərin başlanğıcı hesab olunur. Bəlkə də, metafora doğurdan da mövzu ilə bağlı olaraq konseptual vədil öncəsi kimi ola bilər, lakin o dildə ifadə olunan zaman əsasən hazır material kimi özünü göstərir. Metaforik konsept kimi *arqument müharibədir* ifadəsinə söykənən nümunələrə nəzər salaq:

1.Sənin iddiaların müdafiəsizdir.(Your claims are indefensible.)

2.Onun tənqidi düz hədəfi tuşlayır.(His critisim are right on target.)

3.Mən heç vaxt onunla mübahisədə qalib olmamışam.(I have never won an argument with him.)

4.O, mənim dəlillərimi yıxdı.(He shot down all of my argument.)

Bu cümlələrdə hərbiyə dair xüsusiyyətlər metafora kimi bütöv bir konsept yaradır. *"Argument is a war"(Arqument müharibədir.)* cümləsində olduğu kimi metafora sistemliliyi sözləri əqli konseptə kimi apara bilir. Bəzi metaforik ifadələr isə insanın təcrübələrinə dayanır. Hesab edək ki, *zaman puldur* konsepti Lakof və Conson izahına görə qərb mədəniyyətindən irəli gəlir. Bu konseptə dayanarq, bununla əlaqəli digər konseptlər yaranır. Bu konseptdən yaranmış yeni subkateqoriyalar *zaman puldur* metaforasına əsaslanır. *Zaman puldur* ifadəsi zamanı çox az limiti olan resurs kimi dəyərləndirir. Bu cür metafora şaxələnməsi artıq nümunələrdəki kimi bir çox variantlarda mümkündür [10,s.2].

*«How do you spend your time these days? Time is money»*. (Bu günlərdə zamanını nəyə sərfə edirsən? Zaman puldur.)

*«Is that worth your while? Time is a limited resource»*. (Bu vaxtınıza dəyərmi? Zaman məhdud resursdur.)

*«I lost a lot of time when I was sick. Time is a valuable commodity»*. Xəstə olanda çox vaxt itirdim. Zaman qiyməli bir əmtəədir.

Bu cür metaforik məcburiyyətlərə aparan şaxələnmə əslində Lakofun koqnitiv modeli və yeni təsnifatlandırma üçün, görünür, yeni stimul verir.

Yuxarıda göstərilən metafora nümunələri bir mücərrəd domendən digərinə, arqumentdən müharibəyə, zamandan pula qədər gəlib çıxır. Ümumiyyətlə Lakof və Conson nəzəriyyəsinin ən güclü tərəfi də odur ki, daha mücərrəd sahələrdən daha maddi sahələrə doğru materiyallaşa bilirlər.

Əgər mənbə domen insanın kinetik təcrübəsi və ya fiziki obyektlərə bağlı biliyinə uyğun olarsa, o zaman metafora barədə danışmarıq. Məsələn, *excel* kimi kompüter sistemləri simvol manipulyasiyasından ibarətdir, lakin o, müəyyən bir məna izah edə bilmir. Çünki onun düşünən beyni və ya biliyi mövcud deyil. Onların simvol dəyişikliyi əsassızdır. Hətta əgər kopmüterin yaratdığı uğurlu bir mətn də qursaq, bu da müəyyən bir qrammatik qayda əsasında mümkün ola bilər və hətta əgər oxuyanın aydın başa düşdüyü bir məna ötürsə də, bir insan beyni onu əsaslandırmayana qədər, orada kompüter üçün bir məna yoxdur. Bu nəticəni yalnız insan beyni hasil edə bilir. Bu da ideallaşdırılmış koqnitiv modellər (İKM) əsasında mümkün olur. Onlar mücərrəd konseptləri maddi konseptlərlə izah edirlər [9 , s.4].

Bütün idellaşdırılmış koqnitiv modellər boşluqları, məkanı dolduran mental məkanlar və modellər kimi təyin oluna bilər. Sadəcə, hansı məkan və tərzlə əlaqəsi olduqlarına görə fərqlənirlər. Bunların içində ən konkret və əsas olan İKM növlü obraz sxemlərdir [8, s.4]. Onlar əsasən erkən yaşdan başlayan və həyatımızda ən əsas obraz və hərəkətləri cəlb edən sensor motor təcrübələrinin növü sayılan kinetik obraz sxemlərdən ibarətdir. Əsas səviyyə deyəndə Berlin, Roş və s.ənənəsində insanların ətraf mühitlə birgə funksiyasının effektli və dəqiq yerinə yetirilməsinin kəsişməsi nəzərdə tutulur. Bu əsas səviyyə gestalt qavrayışı olan əqli təxəyyül, motor hərəkətləri və bizim o hərəkətləri "altıncı hiss" adlandırdığımız propriseptiv qavrayışımızla xarakterizə olunur. C. Lakof müəyyən etdiyinə görə əsas səviyyə kateqoriyasının araşdırması göstərir ki, inan zəngin təxəyyül forması vasitəsilə real dünya obyektlərində hissə-bütöv quruluşunu qavraya bilir.

Mark Conson müəyyən edib ki, kinetik obraz sxemlərinin ən əsasları insan təcrübəsinin mərkəzində yer alır. Buraya *konteyner* sxemi (xaricdən fərqli olan daxili sərhədli yer), *hissə-bütöv* sxemi (bədən və obyektlərin bütöv quruluş hissəsi), *əlaqə bağlantı* sxemi (bir obyektin digəri ilə təhlükəsiz əlaqəsi) və *mənbə-cığır-hədəf* sxemi (bütün hərəkətlərin başlanğıc və trayektoriya ilə sonu) daxildir [9,s.4].

Digər mərkəzi sxemlərə *yuxarı-aşağı* sxemi, *irəli-geri* sxemi və *xətti-nizam* sxemi aiddir. Bütün bu sxemlərin mərkəziliyi və bütöv sırası bu günə qədər davamlı tədqiqat altındadır. Bu sxemləri öyrənmək sonrakı inkişafa və öyrənməyə təkan verir. Uşaqlar ən azı bir il köməksiz və hərəkətsiz olduqları zaman, öz müşahidələri sayəsində bu obraz sxemlərlə qarşılıqlı əlaqə quraraq, təcrübə toplayırlar. Burada kinetika obraz sxemlərin öyrənilmiş təcrübəsi fundamenti kimi xidmət edə bilərsə, dilin tanınması, eləcə də, o tanınmanın özü növbəti mərhələlərdə sadələşəcək. Bu proseslərdən əlavə təkcə İKM iyerarxiyasının simvolik səviyyəsi ilə əlaqəli olan dil deyil, həmçinin bütün səviyyələrarası elementlər də bu kinetik-obrazlara əsaslanır. Nəhayət, Lakof və Conson koqnitiv dilçiliyə bütöv bir nəzəriyyə konsepti daxil edirlər. Lakoff mental məkanla bağlı olan "Formanın məkanlaşdırılması" (Spatialization of Form ) fərziyyəsini təklif edir. Burada yuxarıda qeyd olunan əsas sxemlər nəzərə çarpandır, çünki onların xüsusi təsiri var. *Konteyner* sxemləri kateqoriyası daxili və xarici olan kateqoriyanı başa düşmək üçün bir üsul təmin edir. *İyerarxik* quruluş yuxarı və aşağı, hissə-bütöv terminlərinin izahında yer alır. Əlaqəli quruluş isə *əlaqə* (link) sxemində özünü tapır. Radial quruluş mərkəzi-periferiya sxemlərinə uyğun gəlir. İrəli və geri əsaslı quruluş vizual və ya məcazi diskursda *irəli-geri(front-back)*

sxemləri ilə anlaşıla bilər. Xətti-nizam şkalası isə *yuxarı-aşağı* və *xətti-sıra* sxemlərində yer ala bilər. Sxemlər öz bazasında həmçinin metaforik xüsusiyyət də daşıyır. Lakofun fikrinə əsasən obraz-sxemlər mürəkkəb konsept quruluşlarının metaforik işlənməsidir [10, s .4].

Qeyd etmək lazımdır ki, obraz-sxemli idellaşdırılmış koqnitiv modellərin təqdim etdiyi sensor-motor təcrübəsi üzərində vurğulanan əsas fikirlər psixologiya elmində yeni deyil [11, s. 4].

J.Piajenin yanaşmasına əsasən uşqaların inkişafında sensor-motor təcrübəsi xüsusi yer tutur. O, belə bir fərziyyə söyləyir ki, bu cür erkən yaş təcrübəsi uşağa kəmiyyət, say, sözönülü biliklər kimi daha mürəkkəb məsələlərə yiyələnməkdə ipucu. Uzun müddət Piajenin inkişafa yönələn fikirləri tədqiqatçılar tərəfindən laqeydliklə qarşılanır. Lakof və Conson isə obraz-sxem səviyyəsini idrak elminə gətirərək diqqətləri bura cəmləyir. Bir daha məlum olur ki, yüksək fikirlər fiziki və sensor motor prosesi ilə həyata keçir [ 9, s.5].

İdeallaşdırılmış koqnitiv modellərin növbəti bir mürəkkəb növü də özünün müxtəlif növləri olan sözönülü birləşmələrdir. Bu birləşmələrdən ən əsası *sadə* və *ssenari* növüdür [ 9,s.5]. Digərləri isə cəlb olunan konsept kateqoriyasının növündən asılı olaraq fərqli ola bilər. Bunlara xüsusiyyət-bağlama (feature-bundle), taksonomiya, radial kateqoriya (radial category) kimi növlər daxildir. Xüsusiyyət-bağlama əsasən sözönülü ideallaşdırılmış koqnitiv modellərin hissələrinin bütöv əlaqəsini təşkil edir. Senario isə daha marqlı İKM növü hesab olunur. Ssenario əsasən *mənbə-cığır-hədəf* sxemlərinin zaman sahəsində qurulmasıdır. Burada mənbənin başlanğıc, müxtəlif hadisələrin cığır, son məntəqənin isə hədəf olması izah olunur. Ssenario insanların obyektlərlə birgə təcrübəsinin əleyhinə olan konekstual bir xüsusiyyət kimi təqdim olunur [9, s.5]

Nəhayət, mərkəzi periferiya sxemi ilə qurulmuş yarımkateqoriyalı kateqoriyalar, radial kateqoriyalardır və ən vacibi metaforaların hekayədəki hadisələrə uyğun olaraq genişlənmiş formada, gündəlik həyatımızda işlənməsidir. Radial kateqoriyanın bu maraqlı konsepti Lakof tərəfindən mükəmməl hazırlanıb və yeni dil modeli yaratmaq üçün ilk addımlardan biridir.

Metaforik və metonomik modellər növbəti mərhələdə tamamilə güclüdür [9, s.5]. Onlar mənbə domendən hədəf domenə doğru qismən bir quruluş cəlb edirlər. Metafora ilə əks və ya qeyri-sabit olan elementlər daima xaric ola bilər. Metaforik əlaqəni səciyyələndirən mənbə domen səciyyəvi olaraq sözönülü və ya obraz sxemli İKM tərəfindən qurulur. Metonomik modelli mənbə sahə və hədəf sahə isə eynidir və bunlar da idellaşdırılmış koqnitiv modellər vasitəsilə qurulur. Maraqlıdır ki, mənanın daha çox inteqrasiya görünüşünü qeyd edən filosof A.Uaythed metanomik modelləri mücərrədlik konseptinə bənzədir. Filosof belə bir fikir irəli sürür ki, daimi olmayan, təfəkkürdən uzaq olan mücərrəd əlaqələr etibarsızdır. Bu fikir də bizi ideallaşdırılımış koqnitiv modellərin sonuncu nəzəriyyəsi sayılan simvolik (işarəvilik) səviyyəyə gətirir. Alimin fikrincə simvolik səviyyə bizim dil və dilçilik fenomenini tapdığımız yerdir [9,s.6]. Əlbəttə, İKM müzakirəsində dilin mənası ilə bağlı bir çox işlər artıq görülüb. Lakof bildirir ki, qrammatik kateqoriyalarda radial kateqoriya nəzəriyyəsi əlavə ediləndən bəri daha dəqiq və düzgün izahlar mövcuddur. Radial kateoriya ismin adlardan ibarət olan yarımkateqoriyalarının əsasıdır və bunlar kateqoriyanın prototipləridir. Bir qrup isimlər isə radial olaraq mərkəzi kateqoriyalarla bağlı olan mücərrəd isimli yarımkateqoriyalardır. A. Qoldberqin təklifinə görə isə feillər və feil quruluşları da həmçinin uşaqlar tərəfindən daha erkən öyrənilmiş prototipik feillər olan radial kateqoriyalardır. Deməli, radial kateqoriyalar özü feillərdə işlənən quruluşların (e.g. caused motion) prototipləridir.

Bu, göstərir İKM zaman kateqoriyası ilə mental kateqoriyaları inkişaf etdirir və radial quruluş kimi mürəkkəb bir quruluşa kimi yuksəlir [9, s.6-7]. U.Qrayterin "*Kognitive Grammatik: Klassische Paradigmen und neue Perspektiven*" *a*dlı kitabında göstərilir ki, ingilis dilində *lie* (almanca lügen) həm yalan, həm də qoymaq, uzatmaq, sərmək kimi mənalar ifadə edir. Məhz bu tipli sözlərdə prototip olan əsas mənaşərait və konseptdən asılı olraq dəyişə bilir. [10,s.71]. Deməli, ideallaşdırılmış modellər şəraitə uyğun təqdim edilir və şəraitdən asılı olaraq mənasını dəyişə bilir. Bu da ideallaşdırılmış koqnitiv modellərin işlədilməsində konseptin vacibliyini ön plana çəkir.

S.Polyakovun araşdırmasında qeyd olunduğu kimi C. Lakoff hesab edir ki, sözönülü, obrazlı-sxematik, metaforik, metonimik və simvolik kimi beş növdən ibarət ideallaşdırılmış koqnitiv modelləri təsnifatlandırma modelində istifadə etmək olar. Bunlardan sözönülü model daha çox mental anlayışda böyük rol oynayır [11, Polyakov: 2017].

C.Lakoff sözdə "ssenari"ni sözönülü İKM növlərindən biri hesab edir. Onun fikrincə, ssenari aşağıdakı ontoloji elementlərdən ibarətdir: ilkin vəziyyət, hadisələrin ardıcıllığı və bir bütöv təşkil edən son vəziyyət. Sözönlü İKM-lərin başqa bir çeşidi kateqoriyaların müxtəlif növ iyerarxik strukturları olan taksonomik ideallaşdırılmış koqnitiv modellərdir.Müəllif göstərir ki, taksonomik İKM-lər təcrübəni dərk etmək və rasionallaşdırmaq üçün istifadə edilən ən mühüm struktur mexanizmlərdən biridir [11, Polyakov: 2017].

Obrazlı-sxematik modellər kimi Lakoff uçan beysbol topunun və uzun nazik əşyaların – şamların trayektoriyasının sxematik təsvirlərini qeyd edir. Müəllifə görə İKM konsept və məhfumun birləşməsi zamanı ortaya çıxır. Lakofun da qeyd etdiyi kimi həftənin günləri təbiətlə deyil, insanların yanaşmasına görə bölünür və buna görə **də** bu konsept idellaşdırılmış koqnitiv model hesab olunur. Müxtəlif ölkələrdə qeyd olunan adət-ənənələr,mədəniyyətlə bağlı müxtəlifliklər məhz insanlar tərəfindən irəli sürülən ideallaşdırılmış koqnitiv modellərin bir növüdür. İKM verbal əlaqələrdə daha çox rol oynayır. İdeallaşdırılmış koqnitiv modellərin qısa icmalına yekun vuraraq belə nəticəyə gələ bilərik ki, İKM və zehni konstruksiyalar arasında çoxlu ümumi cəhətlər var. Hər halda, J. Lakofun IKM-ni bir qrup mürəkkəb psixi hadisələrlə əlaqələndirməyə cəhd etmək olar [11, Polyakov: 2017].

İdeallaşdırılmış koqnitiv modellərin sonuncu növünə Dan Sperberin işarəvilik nəzəriyyəsinə əsaslanan nümunə ilə aydınlıq gətirək. Sperber simvolların məna ilə əlaqəsi olmayan geniş bir model olduğu fərziyyəsini söyləyir. Onun fikrincə məna terminінə aydınlıq gətirilərkən iki əsas xüsusiyyətə nəzər salınmalıdır. Onlardan biri mənanın uyğun konseptdə özünə yer tapmasıdır, digəri isə həmin məna olmasa da, onu əvəz edən ifadənin olmasıdır. İşarəvilik və ya simbolizm adlanan modellərdə bu mümkün olmur. Ona görə də işarə və məna ideallaşdırılmış koqnitiv modellərin fərqli növünə aid olunur [12, s.109-141].

**Nəticədə** qeyd edək ki, İKM-nin yaranmasında gestalt və freym nəzəriyyəsinin rolu danılmazdır. İdeallaşdırılmış koqnitiv modellərin sözönülü növü bəzən hər konseptdə özünü doğrulda bilmir. Metaforik və metanomik İKM-lər mental məkan və zaman anlayışlarında daha geniş konseptlərə yol aça bilir. Bu da təsnifatlandırma modeli, prototip yanaşmasında vacib rol oynayır. İdeallaşdırılmış koqnitiv modellərin obraz sxem adlandırdığımız növü süni intellekt və mental düşüncələrdə böyük rol oynayır. İşarəvilik prinsiplərini daşıyan ideallaşdırılmış koqnitiv modellər isə dillə bağlı xüsusiyyətləri ön plana çəkir və dilin inkişafına xidmət göstərir. Nəticədə qeyd edim ki,insanın təcrübəsinə əsasən yeni modellər yaranır və bu modellər də müxtəlif konseptlərə görə şaxələnərək yeni protoriplərin də yaranmasına səbəb olur.

**ƏDƏBİYYAT**

1. Mendoza, F.R, Conceptual schemas as propositional idealized cognitive models: In search of a unified framework for the analysis of knowledge organization//- La Rioja(Spain): Cuadernos de Investigacion Filologica,Universidad Pascual Aransaez,- 1997,Vol.23 №1,-s.257-270
2. Gavagna D, Frame Semantics a brief introduction//-Denmark: University of Aarhus, - 2013, s.1-14
3. A dictionary of chemistry: [in 6 vol.]/ ed.J.Daintith.-6th Edition/ Oxford:- Oxford University Press, - 2008, 244s.
4. Debashri ,R. B. Gestalt psychology:[Electronic reource]/
https://www.academia.edu/27986669/Gestalt_psychology
5. Andreassen L. Introduction to Cognitive Models//-Denmark: Center for Semiotics, University of Aarhus,- 2002, s.2-8, [Electronic reource]/ http://www.hum.au.dk/semiotics
6. Bernad ,M.E.An Idealized Cognitive Model,Analysis of Metaphors and Metonymies in Two American Rock Songs //-Jaume (Spain): IOSR Journal of Humanities And Social Science (IOSR-JHSS),-2021 May, Vol.26, №5,-s.51-56
7. Fillmore Ch, Frame semantics Linguistics the a morning calm// -Seoul(Korea): Linguistics society of Korea selected papers, Hanshin Publishing company - 1982 , s.111-112
8. http://scodis.com/for-students/glossary/idealized-cognitive-models/
9. J. Feldman, G. Lakoff, Metaphor, Cognitive Models and Language// University of California at Berkeley, Steve R.Howell Mc Master University- 2000 May, s.4-7
10. Gruyter W. Studienbuch Wolfgang Wildgen.Kognitive Grammatik: Klassische Paradigmen und neue Perspektiven:/ W.Gruyter.- Berlin: Walter de Gruyter GmbH and Co.Kempten , 2008.-251s.
11. Polyakov S.E. Kontsepti i druqie konstruktsii soznaniya :/ S.E.Polyakov.-Piter:SPB, 2017. - 624 s.(Поляков С.Э. Концепты и другие конструкции сознания :/ С.Э. Поляков.-Питер : СПБ, 2017. - 624 с.)
12. Brian E.M. The Emerging Cognitive Psychology of Religion. Method and Theory in the study of Religion:/ E.M. Brian.- Berlin: Walter de Gruyter, 1996.

*2022. Volume 6, Number 2* *Pages 145-153*

***UOT:37(094)***

# TƏHSİLALANLARIN AKADEMİK TƏLİM NƏTİCƏLƏRİNƏ TƏSİR EDƏN FAKTORLARIN TƏHLİLİ

**AYSEL YAQUBOVA**

Bakı Mühəndislik Universiteti

*Ayselyagubova01@gmail.com*

Bakı Avropa Liseyi

**XÜLASƏ**

Akademik fəaliyyətin təməlləri qoyulan ümumtəhsil məktəblərində şagirdlər çox ciddi strukturlaşmış bilik və bacarıq əldə edirlər ki, bunlar da onların gələcək həyatında öz peşə və fəaliyyət istiqamətinin təyin edilməsinə, dəyərli insan kapitalına çevrilməsinə xidmət edir. Hər hansı fənn üzrə göstərdikləri akademik performans, əldə etdikləri təlim nəticələri onların bu fənn üzrə inkişaf stimuluna, çalışma əzminə təsir edir. Təhsilalanların akademik fəaliyyəti iləonun qavrama bacarığı, valideyn dəstəyi, müəllimin tədris təcrübəsi, peşəkarlıq səviyyəsi, yoldaş qrupu və s. arasında sıx korrelyasiya mövcuddur.

Azərbaycan Respublikasının tərəqqi indikatorları kimi çıxış edən ölkənin ali və ümumtəhsil sistemində genişmiqyaslı inkişaf prosesi özünü göstərir. Təhsil sistemində demokratik modellərin axtarışı və tətbiqi, dünya təcrübəsinə inteqrasiya müasirləşmə yolunda atılan önəmli addımlardandır. Lakin, təhsil sahəsi çoxpilləli və çoxşaxəli olduğundan bütün təsiredici faktorlar tədqiq olunmalıdır ki, prioritet tənzimləmələr, zəruri tədbirlər həyata keçirilə bilsin.

**Açar sözlər:** təlim prinsipi, interaktiv təlim, təhsilalan, qiymətləndirmə, öyrədici mühit, fasilitator müəllim.

**ANALYSIS OF FACTORS AFFECTING THE RESULTS OF STUDENTS' ACADEMIC PERFORMANCE**

**SUMMARY:**

In schools, where the foundations of academic activity are laid, students acquire very structured knowledge and skills, which serve to determine their professional and activity direction in their future life, turning them into valuable human capital. The academic performance they show in any subject, the training results they get, affect their motivation to develop in this subject, and their determination to work. There is a close correlation between student's academic performance andhis comprehension skills, parental support, teacher's teaching experience, professional level, peer group, etc.

A large-scale development process is manifested in the country's higher and general education system, which acts as progress indicators of the Republic of Azerbaijan. The search and application of democratic models in the education system, integration into the world experience is one of the important steps taken on the road to modernization. However, since the field of education is multi-level and multi-faceted, all influencing factors should be studied so that priority arrangements and necessary measures can be implemented.

**Key words:** learning principle, interactive learning, students, assessment, learning environment, facilitator teacher.

**АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА РЕЗУЛЬТАТЫ УСПЕВАЕМОСТИ СТУДЕНТОВ**

**АННОТАЦИЯ:**

В общеобразовательных школах, где закладываются основы учебной деятельности, учащиеся приобретают очень структурированные знания и умения, которые служат для определения их профессионально-деятельностной направленности в дальнейшей жизни, превращая их в ценный человеческий капитал. Успеваемость, которую они показывают по какому-либо предмету, результаты обучения, которые они получают, влияют на их мотивацию к развитию в этом предмете и на их решимость работать. Существует тесная взаимосвязь между успеваемостью учащегося и его навыками понимания, поддержкой родителей, педагогическим опытом учителя, профессиональным уровнем, группой сверстников и т. д.

Масштабный процесс развития проявляется в системе высшего и общего образования страны, что выступает индикатором прогресса Азербайджанской Республики. Поиск и применение демократических

моделей в системе образования, интеграция в мировой опыт – один из важных шагов на пути к модернизации. Однако, поскольку сфера образования является многоуровневой и многогранной, следует изучить все влияющие факторы, чтобы можно было реализовать первоочередные мероприятия и необходимые меры.

**Ключевые слова:** принцип обучения, интерактивное обучение, студенты, оценивание, учебная среда, преподаватель-фасилитатор.

## Giriş

### Tədqiqatın məqsədi

Təhsil sektoru dövlətin əsas, aparıcı sferalarındandır. Təhsil cəmiyyətin tərəqqisinin hərəkətverici qüvvəsidir; milli-mənəvi dəyərləri qoruyur və tənzimləyir, intellektual potensialı formalaşdırır. Bu sivil sahənin inkişafı ölkədə fəaliyyətdə olan bütün sahələrdəki uğurların sayının artırılmasına, ölkənin rəqabətqabiliyyətliliyinin, intellektual və elmi potensialının irəli getməsinə səbəb olur. Bu tədqiqatın məqsədi Azərbaycan Respublikası ümumtəhsil məktəblərində təhsilalanların akademik fəaliyyətinə təsir edən amillərin təhlilidir. Sürətlə dəyişəndünyada elm, texnika və texnologiyanın sıçrayışlı inkişafının yaşandığı bir dövrdə gələcəyin təlimi modeli elə şəkildə formalaşdırılmalıdır ki, yeni şəraitə uyğunlaşan, bilikləri müstəqil əldə etmə bacarığı olan və buna can atan şagird və tələbə yetişdirsin. XXI əsrdə yaradıcı, özünü inkişaf etdirən şəxsiyyət hər bir cəmiyyətin inkişafında təməl ünsürdür. Deməli, təhsil prosesi özünüinkişaf qabiliyyəti formalaşdırmalıdır . Burada həmçinin qabiliyyətlər aşağıdakı əsaslara söykənir:

- məntiqi düşünmə
- müstəqil araşdırma;
- hadisələri müxtəlif yönlərdən dəyərləndirmə;
- gələcəyə yönəlmiş real məqsədlər hədəf ala bilmə;
- məqsədə uyğun qərar qəbuletmə və s.

### Metodologiya.

Təlim prosesinin təşkilinin təhlili və qiymətləndirilməsi üçün sorğu üsulundan istifadə edilməsi nəzədə tutulub. İlk öncə bu məqalədə interaktiv təlim nə olduğu və necə tənzimləndiyi araşdırılaraq xüsusi əhəmiyyət kəsb edən hissələr sorğu sisteminə daxil edilmişdir. Sorğunun elementləri cədvəllərdə əks olunmuşdur. Müasir təlim prinsipləri fonunda tədqiqat predmetini araşdıraq.

**Şəxsiyyətə yönəlmiş təlim prinsipi.** Təlimin müasir məqsədlərinə nail olmaq üçün təlim prosesində yeni yanaşmalar öz əksini tapmalıdır ki, bunlar müasir təlimin prinsipləri şəklində ələ alınır. Qəribə səslənsə də elmi araşdırmaladan çıxarılan nəticəyə əsasən, insanın ömrü boyu əldə etdiyi məlumatın təxminən 70%-i6 yaşa qədər olan dövrə təsadüf edir. Burada sirr ondan ibarətdir ki, məktəbə qədər idrak fəallığı tam sərbəst şəkildə özünü göstərir[1].Uşaq istənilən bir əşya və ya hadisəni özünə uyğun, öz maraqları aspektdən yanaşır və onlarla tanış olur. Məktəbdə isə müəyyən çərçivəyə salınmış kimi öz rəngarəng məxsusi dünyasında deyil, müəllimin yönəltdiyi tərzdə və onun təlimatları əsasında passiv mövqedə dayanır. Sanki artıq tədqiqatçı rolundan imtina etməli olur.

**Fəal idrak prinsipi.** Müasir təlim prosesində təhsilalanın şəxsiyyət kimi təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməsi mühimdir. Bunun üçün təlim istiqaməti uşağın maraq və tələbatlarına, imkan və qabiliyyətlərinə yönəlməlidir. Tədris prosesində idrak fəallığının meydana gəlməsinə şərait yaratmaq üçün problemli situasiyalar düşünülməlidir. Problemin həlli istiqamətində idrak prosesləri fəallaşır və şagird yeni bilikləri kəşf etməyə başlayır. Lakin burada unutmaq olmaz ki, problemli vəziyyət müxtəlif nöqteyi-nəzərlərin və variantların mövcudluğunu ehtiva etməlidir.

Sorğumuzda yer alacaq bəndlərdən:

| | |
|---|---|
| 1 | Dərsdə keçdiyiniz mövzular, nəzəri biliklər sizdə həmin fənnə qarşı maraq oyadırmı? |
| 2 | Dərsi başlayarkən müəllim problem qoyub şagirləri problemi həllinə yönəldirmi? |
| 3 | Müəllimin təyin etdiyi problemli vəziyyət müstəqil tədqiqat üçün əlverişlidirmi? |
| 4 | Problemli vəziyyətin cəlb edən və maraqlı olmasına diqqət edilirmi? |

Cədvəl 1.

**İnkişafedici təlim prinsipi.** Görkəmli rus psixoloqu, müasir pedaqoji psixologiyanın banilərindən biri olan L.S.Vıqotskinin nəzəriyyəsinə görə təlim təhsilalanın potensial imkanlarının gerçəkləşdirilməsinə yönələrək inkişafı qabaqlamalıdır. Burada müəllim suallar verməklə onları problemin həllinə istiqamətləndirməlidir.

**Qabaqlayıcı təlim prinsipi.** Bu prinsipə əsasən şagird və tələbələrə həyata hazırlanmalı, sadəcə bilik, bacarıq və vərdişlər deyil, eyni zamanda daim yeni şeylər öyrənməyi, onu emal etməyi, məqsədlərinə uyğun şəkildə istifadə etməyi öyrədilməlidir[1]. Məqalədə növbəti tədqiqat sualının yer alması bizəmüasir təlim strategiyalarının bunu hansı səviyyədə gerçəkləşdirdiyini təyin etməyə xidmət edəcək.

| | |
|---|---|
| 5 | Özünüz müstəqil formada araşdırma aparmağı bacarırsınızmı? |
| 6 | Gündəlik internet, kitab, ictimai-sosial mühitdən əldə etdiyiniz məlumatlardan məqsədəuyğun şəkildə yararlana və tətbiq edə bilirsinizmi? |
| 7 | Öyrəndiyiniz biliklərə yaradıcı yanaşa bilirsinizmi? |

Cədvəl 2.

**Əməkdaşlıq prinsipi.** Təhsilalan ilə təhsilverən arasında elə bir münasibət olması gözlənilirki, şagirdin özünəinam hissi formalaşır, fikirlərini çəkinmədən ifadə edərək potensial imkanlarını gerçəkləşdirmək üçün dinamik bir mühitə sahib olur.[2] Müəllimin sanki təhsilalanın tərəf müqabili rolunda çıxış etdiyi əməkdaşlıqdan əlverişli, dinamik, həvəsləndirici mühit doğur.Bu prinsipin effektivliyinin dəyərləndirilməsi üçün aşağıdakı sualların cavablarının önəmli tutumu var.

| | |
|---|---|
| 8 | Sizcə, müəllim şagirdlərin müstəqil fikir yürütmək və sərbəstliyinin stimullaşdırılması üçün şərait yaradırmı? |
| 9 | Müəllimlə dərs əsnasında əməkdaşlıq etməyi bacarırsınızmı? |
| 10 | Zərurət yarandıqda fikirlərinizi çəkinmədən, real əsaslandırmalarla ifadə edə bilirsinizmi? |
| 11 | Müəllim fikirlərinizə münasibət bildirərkən dəstəkləyici cavablar verirmi? |

Cədvəl 3.

**Dialoji təlim prinsipi.** Real həyatda olduğu kimi, təlim prosesində də hər bir kəs özünün və yoldaşlarının mülahizələrini, təcrübələrini paylaşıb, faydalana bilməlidir. Bu müzakirələr, qrup

işləri əvəzolunmaz bir fürsətə çevrilir. Dialoji təlim prinsipində fikir müxtəlifliyindən, onların ahəngvari bir-birinə inikas və müqayisəsindən zəngin bir məzmun ortaya çıxır ki, bu da iştirakçıların hər birinə ən yaxşı nəticəni çıxarmaq imkanı verir.[2] Bu səbəbdən sorğuda yer alan digər önəmli suallar aşağıdakılardır:

| | |
|---|---|
| 12 | Dərslərinizdə aktiv iştirak edir və bilikləri əldə etməyə cəhd göstərirsinizmi? |
| 13 | Bütün uşaqlar dərsdə fəallıq göstərirmi? |
| 14 | Hansısa yoldaşınız dərsdə fəallıq göstərmədikdə müəllim həmin uşaqları cəlb etməyə səy göstərirmi? |
| 15 | Hər hansı məsələ, problem qoyulduqda yoldaşlarınızla əməkdaşlıq çərçivəsində həll edə bilirsinizmi yoxsa sadəcə öz bilik və təcrübənizdən istifadə etməyi üstün tutursunuz? |
| 16 | Bəzən bir neçə nəfərin müzakirəsi nəticəsində alınan qərar təklikdə verilən qərardan daha optimal olur. Yoldaşlarınızla bir məsələ həllini müzakirə edib nəticəyə gələ bilirsinizmi? |

Cədvəl 4.




**Diaqram 1. Problem həllində dialoji vəziyyət**

Ənənəvi təlim sxemindən fərqli olaraq təlim tədqiqat xarakterlidir;biliyin başlıca siması təhsilalandır, müəllim isə "bələdçi" (fasilitator) mövqeyindən çıxış edərək, əlverişli şərait yaradır. Şagird və ya tələbə məsələ və tapşırıqlarla işləyərkən müstəqil şəkildə tədqiqat apararkənmüəllim metodik köməklik göstərir, şagirdlərə istiqamət verir, öyrənməyi öyrədir. Bu nöqtədən yola çıxaraq təhsilalanlardan növbəti nüansları təyin etmə zərurəti yaranır:

| | |
|---|---|
| 17 | Problemli vəziyyəti həll etməyə çalışarkən nəyi dərk etməli, nə üçün dərk etməli olduğunuzu anlaya bilirsinizmi? |
| 18 | Tədqiqat zamanı nəyi öyrənməli, nə üçün öyrənməli olduğunuzu aşkar edə bilirsinizmi? |
| 19 | Müəllim fasilitator kimi sizi yönəldə bilirmi? |
| 20 | Yeni bilgilər siz yoxsa birbaşa müəllim tərəfindən aşkara çıxarılır? |

Cədvəl 5.

Yuxarıda qeyd etdiyimiz kimi, müasir təlimdə idrak fəallığı əldə edilməsi qarşıda duran başlıca məsələlərdəndir. Eyni zamanda qazanılan fəal idrakı mövqeyin lazımi səviyyədə qalması digər diqqət olunmalı məqamdır. Bu isə psixoloji dəstək: hörmət və etibar ilə təmin olunur ki, daha geniş şəkildə şərh etməli olsaq, təhsilalan inamlı bir mühitdə özünü rahat hiss edər və bu ona imkanlarını ortaya qoymaq, güclü bir motivasiya ilə yenidən cəhd etmək, qorxmayaraq, yorulmadan sadəcə həllə yönəlmək kimi çox uğurlu bir fəaliyyətə sövq edər.[3] Deyə bilərik ki,

müəllimin ona bəslədiyi güvən və etibarla o özündəki potensialı görüb, işin öhdəsindən gəlmə gücünü hiss edər. Onda tədqiqatımızın bu hissəsində aşağıdakı sualların cavabları bizə zəruri nəticələr əldə etməyə yardım edər.

| | |
|---|---|
| 21 | Problem həllində müəllim yaradıcı fikir kimi irəli sürdüklərinizi ciddi və nəzakətlə qəbul edirmi? |
| 22 | Xəta etdikdə tez həvəsdən düşürsünüzmü? |
| 23 | Həvəsdən düşdükdə müəllim bunu sezib sizi həvəsləndirməyə çalışırmı? |
| 24 | Müəllim cavablarınızı "yaxşı"və ya "pis"kimi ifadələrlə qiymətləndirməkdən çəkinərək effektiv rəy verə bilirmi? |
| 25 | Müəllim sizə qarşı olan hörmət və etibarı hiss etdirirmi? |

Cədvəl 6.

**Dərsin motivasiya və tədqiqatın aparılması mərhələləri.** Yeni bilginin kəşfi məqsədilə tədqiqat aparılmasına yönələn interaktiv təlim üsulu fəal dərsin araşdırma mühitinin yaradılması prinsiplərinə uyğun qurulmalıdır. Motivasiya kimi adlandırılan tədqiqat sualının qoyulması mərhələsindən sonra tədqiqatınaparılması mərhələsi yer alır ki, burda məzmununda yeni sual və informasiya ehtiva edən tapşırıqlar kömək edir.[3] Bütün siniflə, kiçik qruplarla, cütlərlə fərdi iş formaları yeni yanaşma yolları kəşf etmək üçün münasib şərait yaradır. Dərsin bu mərhələsini əhatə edəcək suallar növbəti hissədə yer alır:

| | |
|---|---|
| 26 | Sizcə, interaktiv iş formalarından hansı sizin üçün daha əlverişlidir? |
| 27 | Cütlərlə iş zamanı müəyyən qərar qəbul etməkdə bir-birinizə köməklik göstərə bilirsinizmi? |
| 28 | Gəldiyiniz nəticələr haqqında fikir mübadiləsi apara bilirsinizmi? |
| 29 | Qarşılıqlı qiymətləndirmə və yoxlama apara bilirsinizmi? |
| 30 | Qrup şəklində iş zamanı hər bir şagird prosesə cəlb olunurmu? |
| 31 | Öz fikirlərinizi rahatlıqla söyləyib, başqalarının fikirlərini dinləyə bilirsinizmi? |

Cədvəl 7.

**Dərsin informasiya mübadiləsi və müzakirəsi mərhələləri.**Tədqiqatın aparılması başa çatdıqdan sonra informasiya mübadiləsində əldə edilən məlumatların bir-birinə ötürülməsi həyata keçir. Dərsin dördüncü mərhələsi olan informasiyanım müzakirə və təşkilində faktlar müəllimin fasilitasiyası əsasında əlaqələndirilir və sistemləşdirilir. [4]Burada önəmli məqamlar;

| | |
|---|---|
| 32 | Fikir mübadiləsi zamanı bir-birinizi fəal, diqqətlə dinləməyi bacarırsınızmı və başqalarının qeyd etdiklərindən də informasiya ala bilirsinizmi? |
| 33 | Müzakirə mərhələsində müəllimin bələdçiliyi sizi qane edirmi və sinifdə məqsədyönlü müzakirə mühiti qurulurmu? |

Cədvəl 8.

**Dərsin ümumiləşdirmə və yaradıcı tətbiqetmə mərhələləri.**Ümumiləşdirmə mərhələsində dərsin kulminasiyası gizlidir ki, təhsilalanlar bilgiləri məhz özləri əldə etdikləri üçün məmnuniyyət və özgüvən hiss edirlər.[4] Yaradıcı tətbiqetmə mərhələsində təlim iştirakçılarına biliyin praktiki əhəmiyyəti aydın olur. Əgər qazanılan biliklər yeni suallara cavab tapmaq üçün tətbiq olunsa, bu bilik şagirddə daha da dərinləşər.Sorğuda isə bu mərhələlərə uyğun suallar aşağıdakı cədvəldə qeyd olunub.

| | |
|---|---|
| 34 | Ümumiləşdirmə mərhələsində gəldiyiniz nəticə ilə tədqiqat sualını, həmçinin irəli sürdüyünüz fərziyyələri müqayisə etdikdə sərbəst olaraq uyğunluğu aşkar edə bilirsinizmi? |
| 35 | Bilgilərin yaradıcı surətdə tətbiqinə dair çalışmalar yerinə yetirirsinizmi? |
| 36 | Ev tapşırıqlarında tədqiqat və yaradıcılıq elementləri varmı? |
| 37 | Yuxarı siniflərə keçdikcə müstəqil iş üçün ayrılan dərs vaxtının faizi artırılırmı? |

Cədvəl 9.

**Dərsin qiymətləndirmə və refleksiya mərhələsi.** Ən nəhayət, dərsin sonunda qiymətləndirmə və refleksiya təkmilləşdirməni təmin edən mexanizm kimi xəta və uğurlu addımlar aşkar edilir, doğru nəticənin əldə olunmasına mane olan faktorlar müəyyənləşir.[5] Müstəqil öyrənmə prosesini bir daha gözdən keçirərək, təhsilalan öyrənmə fəaliyyətini daha da təkmilləşdirə bilər.Bu zaman növbəti cədvəldə yer alan suallar məqsədimizə hansı dərəcədə nail olduğumuzu təyin etməyə kömək edəcək.

| | |
|---|---|
| 38 | Qarşılıqlı qiymətləndirmədə bir-birinizin rəyindən yararlana bilirsinizmi? |
| 39 | Öyrənmə prosesinin iştirakçısı kimi özünüzə qiymətvermə təcrübəsini tətbiq edə bilirsinizmi? |
| 40 | Özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə proseslərini həyata keçirərkən qiymətləndirmə meyarlarından istifadə edirsinizmi? |
| 41 | Dərsin sonunda özünüzə bu sualları verirsinizmi:<br>• Tədqiqat nəticəsini necə əldə etdik?<br>• Biz nə edirdik?<br>• Qarşıdakı məsələnin həllində əsas köməkçi rolunu nə oynadı? |
| 42 | Dərsin sadəcə sonu deyil, digər mərhələlərdə də qiymətləndirmə və refleksiyanı daxil edirsinizmi? |

Cədvəl 10.

**Öyrədici mühitin təşkili.** Təlim məqsədlərinin həyata keçməsi təlim-tərbiyə prosesinə təsiedən amillərdən, xüsusən öyrədici mühitdən ciddi surətdə asılıdır. Şagird və tələbələrin ətrafında elə bir şərait tımin olunmalıdır ki, maraq və tələbatına cavab versin. Öyrədici mühit özündə aşağıdakı xassələrini əks etdirir:[6]

- Əşyavi mühit
- Sosial mühit
- İnformasiya mühiti

Əksərən məktəblərdə əşyavi mühitin ancaq dərslik, lövhə, texniki avadanlıq, laboratoriya kimi maddi mühiti təmin olunur. Halbuki, təbii mühitin də tədris prosesinə cəlb olunması dərketməni dərinləşdirər, real həyat haqqında bilgilər əldə etməyə şərait yaradar. Digər tərəfdən informasiya mühiti təhsilalanın başqa yolla çətinlik çəkdiyi resurslarla təmin edərək əhatə dairəsini genişləndirir. Burada bədii, ensiklopedik, elmi və elmi-kütləvi ədəbiyyat, kompüter və onun informasiya xidmətləri və s. yer alır. Belə mənbələrdən istifadə vərdişinin yaranmaması sadəcə önəmli informasiyadan məhrum qalmasına səbəb olmur, eyni zamanda onlardan sonradan yanlış istifadəyə gətirib çıxara bilir[7].

Təhsilalanlar tədris boyu problemlərin müstəqil həllinə yönəlir, tədqiqat və müzakirələrlə yeni bilik aşkar edir, mənimsəyir, həmçinin tətbiq edir. Təlimin məhsuldarlığına təsir edən amillərdən biri də öyrədici mühitin səmərəli şəkildə təşkilidir. Burada ilk öncə sinfin maddi vəziyyətinin zəruri obyektlərini təmin etməklə başlamaq olar. Mühüm didaktik materialların dinamik divar stendləri kimi istifadəsi interaktivlik və əyanilik keyfiyyətinə əvəzsiz qatqı verir.[8] Yuxarıda deyilənləri nəzərə alaraq aşağıdakı tədqiqat suallarına nəzər salaq:

| | |
|---|---|
| 43 | Təlimdə yaşayış mühitindən istifadə edilirmi? |
| 44 | Laboratoriyalarda təcrübə və müşahidə aparmaq üçün əlverişli şəraitiniz varmı? |
| 45 | Didaktik oyun və əyani vəsaitdən tədris prosesində köməkçi element kimi istifadə edirsinizmi? |
| 46 | Keçirilən dərslərlə əlaqəli didaktik xarakterli stendlərdən istifadə edirsinizmi? |
| 47 | Kompüter və onun informasiya xidmətlərindən öz öyrənmə prosesinizdə istifadə edirsinizmi? |
| 48 | Kitabxanalara tədqiqat və araşdırma üçün müraciət edirsinizmi? |

Cədvəl 11.

**Qiymətləndirmə.** Cəmiyyətin mənəvi memarı olan müəllimin davranış, yanaşma və təsir istiqaməti elə formada özünü göstərməlidir ki, təhsilalanda müsbət emosiyalar, uğura qarşı maraq, təcrübələrə açıq fəaliyyətə meyil olsun. Bu cür mənzərənin təməlində müəllimin dayaq rolunu sərgiləməsi, düzgün əks-əlaqə yaratması, müsbət qiymət və effektiv rəyin verilməsi dayanır. Həmçinin, təlim iştirakçılarının nailiyyətləri vurğulanmalı; tənqid və ya cəza deyil, dəstək əsaslımünasibət qazanma ehtiyacı canlandırılmalıdır.[9]

Aşağıdakı təxirəsalınmaz əks-əlaqə nümunələrindən hansılarla şagirdlərin qarşılaşdığını təyin etmək çox mühümdür.

| | **Müəllim qiymətləndirmə zamanı istifadə edir:** |
|---|---|
| 49 | Bir daha fikirləş. |
| 50 | Fikirlərin çox maraqlıdır, lakin sualda nəzərdə tutulan ayrıdır. |
| 51 | Bu fikrinlə bir başqa önəmli mövzuya toxundun. |
| 52 | Dediklərinin predmetə tam uyğun olması üçün necə dəyişiklik edərdin. |
| **53** | Düz demirsən. |
| **54** | Heç başa düşməyibsən |
| **55** | Dediklərinin mövzu ilə əlaqəsi yoxdur |

Cədvəl 12.

**Şəxsi keyfiyyətlərin qiymətləndirilməsi.** Ənənəvi təlimdən fərqli olaraq fəal təlim konsepsiyasında şəxsi keyfiyyətlərin dəyərləndirilməsi də əlavə olunur. Bu zaman təhsilalanların mənəvi, sosial keyfiyyətləri, maraq, yaradıcıllıq və öyrənməyə həvəs kimi xüsusiyyətləri də onların nailiyyətinin obyekti kimi nəzərə alınır[10]. Hər nə qədər bu keyfiyyətin kəmiyyətcə ölçülməsi və ifadəsi mürəkkəb olsa da, dəstəkləyici və istiqamətvericimühitin təşkilində açar rolu oynayır. Onda növbəti sualları tərtib etmə zərurəti yaranır:

| | |
|---|---|
| 56 | Müəllimləriniz tərəfindən şəxsi keyfiyyətləriniz qiymətləndirilirmi? |
| 57 | Sizinçün dərsdə aldığınız qiymətlərin rolu nədir?<br>• əsas təlim motivi<br>• özünüqiymətləndirmə vasitəsi<br>• özünənəzarət vasitəsi<br>• heç bir önəm daşımır |
| 58 | Özünüqiymətləndirmə vərdişlərinin formalaşması üçün sinifdə qiymətin özünüz və eləcə də yoldaşlarınızın bir-birinə qiymət verməsi təşkil olunurmu? |

Cədvəl 13.

**Formativ və summativ qiymətləndirmə.** Bu iki forma təhsilalanın nailiyyət qiymətləndirilməsinin2 əsas növü kimi çıxış edir. Formativ qiymətləndirmə irəliləyiş dərəcəsini, summativ qiymətləndirmə isə təlim məqsədlərinə nail olma dərəcəsini təzahür etdirir. Formativ qiymətləndirmə daha yüksək nəticələr əldə etmə imkanı yaratması,öz nöqsanlarının fərqində olub, fəaliyyətindən məsul olma hissi aşılaması baxımından həm təhsilverən, həm təhsilalan üçün çox önəmlidir. Summativ qiymətləndirmə isə aydın və differensial əsaslar verməsi baxımından sərhədləri o qədər geniş tutmalıdır ki, adekvatlıq səviyyəsi reallığı əks etdirəcək qədər yüksək olsun[11].

Qiymətləndirmə prosesini ifadə edən tədqiqat sorğusu aşağıda tərtib edilmişdir:

| | |
|---|---|
| 59 | Formativ qiymətləndirmə hansı formalarda keçirilir?<br>• Yazılı və şifahi sorğu<br>• Yaradıcı işlər<br>• Layihələr<br>• Referatlar<br>• Müşahidə<br>• Çıxış bileti<br>• Şagirdlərin sual verməsi |
| 60 | Summativ qiymətləndirmə zamanı hansı formalardan istifadə olunur?<br>• Yoxlama və testlər<br>• Tədqiqatlar<br>• Inşalar<br>• Referatlar<br>• Layihələr |
| **61** | Sinifdə hansı keyfiyyət qiymətləndirməsindən istifadə edilir?<br>• "Portfolio" sistemi<br>• Özünüqiymətləndirmə<br>• Meyar cədvəli<br>• Şəkillərlə qiymətləndirmə<br>• Reytinq cədvəli<br>• Şagirdlərin bir-birini qiymətləndirməsi<br>• Sözlə(verbal) qiymətləndirmə<br>• Yazı və yoxlama işlərində konstruktiv qeydlər |
| **62** | Müəllim əks-əlaqə qurarkən tez-tez tərifləyirmi? |
| **63** | Qarşıya məqsəd qoyarkən reallaşa bilən olmasına diqqət edirmi? |
| **64** | Cəzalandırarkən bunu nə üçün etdiyini aydın izah edirmi? |
| **65** | Xəta və uğursuzluğu üzə vurur, yoxsa bunu düzəldə biləcəyin istiqamətində sizi motivə edir? |
| **66** | Müəllim sizə hörmət və məhəbbətlə yanaşırmı? |
| **67** | Müəllim sinfin idarəsində ilk öncə istifadə etdiyi üsul səsin tonunun yüksəldilməsi olur, yoxsa sinif qaydalarını xatırladıb maraq oyadacaq fəaliyyətə cəlb edir? |
| **68** | Sizi başqası ilə müqayisə edirmi? |
| **69** | Həvəs və cəsarətləndirmə üsuluna müntəzəm olaraq müraciət edirmi? |

Cədvəl 14.

## Nəticə

Bu məqalədə təhsilalanların akademik fəaliyyətinə təsir edən faktorların araşdırılması və təhlili aparılmış; istər dərs prosesində, istər dərs prosesindən kənarda qarşılaşılan bütün zəruri vəziyyətlər analiz edilmişdir. Təhsilverənlərin davranış və rolu, dərsin strukturu, öyrədici mühitin təşkili ilə bağlı nələrə diqqət yetirilməsi vacib olduğu nəzəriyyə və çıxarışlarla əsaslandırılmışdır. Həmçinin düzgün korrelyasının təyin olunması üçün sorğuya daxil ediləcək önəmli faktorlar cədvəl şəklində qeyd edilmişdir. Bu məqalə bizə gələcək sorğumuzda niyə məhz bu nüansları ələ aldığımızı aşkar şəkildə təzahür etdirir.

**ƏDƏBIYYAT SIYAHISI:**


1. Zülfiyyə Veysova. "Fəal təlim metodu haqqında"İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün metodiki vəsait. Bakı, Norveç Qaçqınlar Şurası, 2003
Nizami məsnəvilərində tarixi hadisələri romantik planda canlandırmağa üstünlük vermişdir. Sənətkar digər məsnəvilərində olduğu kimi öz yaradıcılıq üslubuna uyğun olaraq folklordan geniş şəkildə istifadə etmişdir. "Yeddi gözəl" poemasının qəhrəmanı Bəhram obrazının da, Nizaminin digər qəhrəmanları kimi folklor motivləri ilə sıx bağlılığı vardır. Bəhram obrazının poetik strukturundakı "ov hamisi" kultu türk folklor-mifoloji qaynaqları ilə bağlılıq təşkil etmişdir. Bəhramın ov hamisi motivi ilə bağlılığı barədə S.Rzasoy geniş tədqiqatlar aparmışdır. [4, s. 112-133]

Nizami də Bəhramı özünəqədərki ənənələrdə olduğu kimi, ov həvəskarı kimi təsvir etmişdir. Bəhram adətən gurları ovlamağı çox sevərdi. Bəhramın atı da çox seçilən bir at olmuşdur. O da sahibi kimi gur ovlarında xüsusi çeviklik göstərərmiş.

O, meydən zövq alar, büsat sevərdi,
Bir ovu xoşlardı, bir at sevərdi.
Ölərdi gur üçün düşsə ovlağa,
Ölü, gordan necə qaçar irağa.
Hər zaman yay çəkib nişan alardı,
Oxu gur gözündə qəbir salardı [1, s. 67].

Gur ovuna olan sevgisindən onu Bəhram Gur deyə çağırırdılar. Bəhram şahın gurlara xüsusi münasibəti var idi. Şah dörd yaşına çatmayan, gənc gurları ovlamağa qıymazdı. Tutduğu gənc gurları damğalayıb azad buraxardı. Onun damğalatdırdığı gurları kimsə ovlamazdı. Şahın damğasını görən hər kəs onları azad buraxardı. Bəhram Gurun qəribə ov qanunları var idi. Nizami bu məqamlardan öz poetik məqsədinə uyğun istifadə etmişdir.

Yıxsaydı yüz guru əgər yan-yana
Qıymazdı dörd yaşı qurtarmayana.
Onun bir beləcə adəti vardı:
Gənc gurun qanını haram sayardı.
Hər tutduğu gura vurardı damğa,
"Sərdar ol, – deyərdi, – bütün ovlağa".
Minindən birini kim tutsa əgər,
Şahın damğasını görərkən öpər,
Yaxşılıq keçərdi yadından ancaq
Açardı bəndini, buraxardı sağ [1, s. 67-68].

**Tədqiqat işinin müzakirəsi**

Nizami Bəhram şahın gurları damğalatma prosesinin sosial tərəflərini sətiraltı məna ilə vermişdir. Damğalanma prosesi əzablı olsa da, lakin nəticədə Bəhram şah gurları himayəsinə almış olur, onların təhlükəsizliyini təmin etmiş olur. Nizami bununla demək istəyir ki, şahların hakimiyyəti gurlara vurulan damğa kimi müəyyən qədər əzab versə də, sosial müdafiəyə ehtiyacı olan insanlar dövlətin himayəsini əldə etmiş olurlar.

Şahın damğasıdır yaşadan bizi,
Düz sürək qoy ömür köhlənimizi.
O gurlar ovlayan Bəhram çağında
Gurlara qurtuluş vardı dağında.
Qolu güclülərdən ölkəmizdə, bax,
Qarışqalar belə olmuş sinədağ [1, s. 68].

Bəhramın gurları ovlamaq üsulu və onları damğalamaq adətinin qaynağı folklordur. Biz bu motivə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlirik.

"Üç yüz altmış altı alp ava binsə, qanlu keyik üzərinə yürüş olsa, Bəkil nə yay qurardı, nə ox atardı. Həman yayı biləgindən çıqarardı, buğanın-sığının boynına atardı, çəküb turğızardı. Arıq olsa, qulağın dələrdi, avda bəllü olsun deyü, əmma semüz olsa, boğazlardı. Əgər bəglər keyik alsa, qulağı dəlük olsa, "Bəkil sünicidir" deyü Bəkilə göndərələrdi" [5, s. 104].

Göründüyü kimi, Bəkilin və Bəhramın ov adətləri bir-birini çox bənzəyir. Gəlin bu oxşarlıqları müqayisə edək. Bəkil də, Bəhram da hər ikisi mahir ovçudurlar. Hər ikisi heyvanları diri tutmaq bacarığına malikdirlər. Hər iki qəhrəman ceyrana bənzər heyvanları, yəni gur və keyik ovlamaqdan zövq alırlar. Bəkil də Bəhram şah kimi heyvanlara hamilik edirdi. Bəkil isə arıq heyvanların hamisi idi. Hər iki obraz heyvanları damğalamaqla onları digər ovçuların ovlaması təhlükəsindən xilas edirdilər. Bəhram şah gurları damğalatdırırdısa, Bəkil isə arıq keyiklərin qulaqlarını deşdirirdi. Bəhramın nişan vurduğu gurlara heç bir ovçu toxunmadığı kimi, Bəkilin də nişanladığı heyvanları ovlamırlar.

Ovla bağlı təsvir olunan bu motivlərdə hər iki qəhrəmanın xarakterində heyvanların qoruyucusu, sahibi olan "ov hamisi" kultu müşahidə olunur. Lakin bir məqama diqqətə çatdırmaq istəyərdik. Bəhram cəmiyyətdə müəyyən sosial səlahiyyətə, siyasi və hərbi gücə sahibdir. Onun damğaladığı gurları kimsənın ovlamamasının səbəbi kimi Bəhramın şahlıq statusundan qorxunun olması ilə əlaqələndirə bilərik. Lakin Bəkil Oğuz elinin iyirmi dörd bəyindən biridir. Onun Bəhram şah kimi səlahiyyətləri yoxdur ki , ovçular onun nişanladığı keyikləri ovlamaqdan qorxsunlar. Bu məqamı Bəhram şahın şahlıq statusuna görə sosial-siyasi baxımdan dəyərləndirmək olar. Lakin Bəkilin sosial statusu elə də yüksək deyildi. Deməli bu məqamın sosial statusla bağlılığı yoxdur. Bəkil qulağı dəlik heyvanların sahibi, himayədarı hesab olunurdu. Maraqlı məqamlardan biri də o idi ki, Oğuz elinin sosial-inzibati quruluşunda çöllərdə yaşayan keyiklərin sahibi olmaq kimi bir vəzifə yox idi. Deməli deyilən fikirlərdən bu qənaətə gəlirik ki, Bəkil "ov hamisi" kultunun sahibi kimi heyvanların himayəçisidir. Mifik təsəvvürlərə görə kult sahibi müqəddəs varlıq hesab olunurmuş, kultun qanun və yasaqlarını pozan ovçulara qəzəblənərkən onlara cəza olaraq ölüm və digər bədbəxtliklər gətirirmiş. Bəkilin kult sahibi olaraq qəzəbindən qorxan ovçular onun nişanladığı keyiklərə toxunmurlarmış.

"Hami ovçu" arxetipini Bəhram şah obrazında təhlil edək. Düzdür Bəhramın şahlıq statusunun gücü ovçuların ondan çəkinməsinə zəmin yarada bilər. Bu məsələnin görünən tərəfidir. Lakin Nizami məsnəvinin alt qatında folklor ənənəsindən gələn "ov hamisi" arxetipini canlandırmışdır. Poemada bir gur onu öldürmək istəyən əjdahanın üzərinə Bəhram şahı aparır. Bu səhnədə gurun Bəhramı özünə himayədar hesab etməsi açıq-aydın görünür.

O, yəqin etdi ki, başıbəlalı gur,
O əjdahadan zülm görübdür.
O, şahı çağırıb ki, onun dadına çatsın,
Zülmkar (əjdahadan) onun itiqamını alsın [1, s. 66].

Bu səhnədə gurun Bəhramdan xahişini yalnız "ov hamisi" kultu ilə izah etmək olar. Bəhramın dörd yaşından kiçik gurlara himayə etməsini onun xarakterindəki humanistliklə dəyərləndirə biləriksə, gurun Bəhrama kömək üçün müraciəti birmənalı olaraq kultla bağlı olan məqamdır. Burada Bəhram gurun sahibi, qoruyucusu, hamisi obrazındadır. Bu baxımdan Bəhramla Bəkil arasında bir-birinə çox bənzərlik vardır. Lakin heyvanların nişanlanması motivi Firdovsinin "Şahnamə" əsərinə çox bənzəyir. "Şahnamə"də deyilir ki, Bəhram şah üstünə onun adı yazılmış qızıl həlqələr düzəltdirib, üç yüz gurun qulağına sırğa kimi taxdırır. Bəhram bu işi öz şöhrəti naminə edir [9, s. 289].

Bu məsələ ilə bağlı bir çox tədqiqatçı alimlər, eləcə də S.Rzasoy tutarlı araşdırmalar aparmışdır. S.Rzasoyun tədqiqatlarına görə, Nizaminin əsərdə yaratdığı damğalama epizodu Firdovsi Bəhramından daha çox Bəkilə bənzəyir. *"Nizami Firdovsidən gələn bu ənənəni... Bəkil "üslubunda" işləyir"* [4, s. 125].

**Nəticə**

Nizaminin poetik üslubunda hami-ovçu arxetipindən istifadə motivi təkcə "Yeddi gözəl" məsnəvisində deyil, "Leyli və Məcnun" poemasında da diqqətimizi cəlb edir. Belə ki, bu poemada taleyi qara gətirən Məcnun atasının vəfatından sonra cəmiyyətdən uzaqlaşıb səhrada vəhşi heyvanların arasında yaşamağa qərar verir. Bu səhnədə biz Məcnunu heyvanların hamisi obrazında görürük. O , ahunu, maralı və digər heyvanları öz himayəsinə alır, ovçuların yaratdığı təhlükələrdən qoruyur. Səhrada Məcnunun yaratdığı qayda-qanun hökm sürürdü. Çünki Məcnun insanlar tərəfindən ona gətirilən azuqələri heyvanlar arasında bölüşdürürdü. Bu səbəbdən də artıq heyvanlar arasında da mehribanlıq, dostluq hökm sürməyə başlamışdır. Artıq onlar bir-birlərini yemirdilər . Nizami səhradakı bu mənzərə ilə arzuladığı cəmiyyətin modelini, yəni dövründə hökm sürən zalımlığın, cəmiyyətdə vəhşiliklərin, haqsızlıqların olmamasını canlandırmaq istəmişdir. Nizami öz poetik üslubuna uyğun olaraq folklor motivlərindən istifadə etməklə həm də sosial mühitlə bağlı arzularını ,bəşəri ideyalarını təbliğ etmək istəmişdir. Məcnunun obrazında şair ovçu hamisi kultunu əsərində tətbiq etmişdir. Məqalədəki təhlillərdən göründüyü kimi Nizami "Yeddi gözəl" məsnəvisində də folklor ənənələrindən digər əsərlərində olduğu kimi, öz müəllif konsepsiyasına uyğun olaraq istifadə etmişdir.

**ƏDƏBIYYAT**


1. Gəncəvi N. Yeddi gözəl. Tərcümə edən M. Rahim (bədii tərcümə) / N. Gəncəvi. – Bakı: Yazıçı, – 1983, – 355 s.
2. Qafarlı R. Nizami poeziyasında məkan, zaman və kəmiyyət vahidləri: dini-mifoloji düşüncə kontekstində / Nizami Gəncəvi və folklor (məqalələr məcmuəsi). – Bakı: Nurlan, – 2013, – 36-64
3. Qafarlı, R. Mifologiya [6 cilddə]. Mifogenez: rekonstruksiya, struktur, poetika / R.Qafarlı. – Bakı: Elm və təhsil, – 2015, I cild, – 454 s.
4. Rzasoy, S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst / S.Rzasoy. – Bakı: Nurlan, – 2008, – 188 s.
5. Kitabi Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər / Tərtib edəni Samət Əlizadə-Bakı: Öndər nəşriyyatı,-2004,-376s.
6. *Rzasoy, S. Nizami Gəncəvinin "Yeddi peykər" məsnəvisindəki Xızır obrazının simvolikası // "Struktur-semiotik araşdırma-lar", – № 2, – Bakı: Səda, – 2002, – s. 19-24*
7. Rzasoy, S. Nizami poeziyası: Mif-Tarix konteksti / S.Rzasoy. – Bakı: Ağrıdağ, – 2003, – 211 s.
8. Yusifov, X. Firdovsi və Nizami irsində bir surətin iki təqdimi (məqalə) / Nizami Gəncəvi və SSRİ xalqları ədəbiyyatı (toplu). – Bakı: Elm, – 1986, – s. 61- 77
9. Firdovsi, A. Şaxname. Том 5. / A.Firdousi. – Mosкva: İzdatelstvo Aкademii Nayк SSSR, – 1984, – 392 s. (rus dilində)

*JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY- PHILOLOGY AND PEDAGOGY*
*2022. Volume 6, Number 2* *Pages 171-176*

***UOT: 37(094)***

# XARİCİ DİLDƏ ŞİFAHİ NİTQ VƏRDİŞLƏRİNİN ORTA MƏKTƏB ŞAGİRDLƏRİNDƏ FORMALAŞDIRILMASI YOLLARI

**Fəridə ŞƏRİFOVA**
Bakı Mühəndislik Universiteti
*fasharifova@beu.edu.az*

**XÜLASƏ**

Təhsil sahəsində aparılan islahatlar müasir həyatın artan tələblərinə uyğun olaraq tədrisin fəal hazırlıqla inkişaf etdirilməsini zəruri hesab edir. Cəmiyyətə təkcə informasiya kontekstində keçmiş biliklərin mövcudluğu deyil, real problemlərin həllinə yönəlmiş təhsil nəticəsi də lazımdır. Orta təhsil səviyyəsində ilk günlərdən xarici dil öyrənməyə maraq oyatmaq, dilə həvəs və məhəbbət tərbiyə etmək lazımdır. Beləliklə, şagirdlərin təkcə şifahi deyil, həm də yazılı, düzgün və gözəl nitqinin inkişafı problemi bu gün təhsili narahat edən əsas sahələrdən biridir. Bu gün xarici dillərin tədrisi metodikası şagirdlərdən aydın və qrammatik cəhətdən düzgün nitqə malik olmağı, fikirlərini şifahi və yazılı şəkildə sərbəst və yaradıcı şəkildə ifadə etməyi, müxtəlif intonasiya vasitələrindən istifadə etməklə emosiyalarını çatdırmağı, ünsiyyət bacarıqlarını inkişaf etdirməyi fəal fəaliyyət kimi tələb edir.

**Açar sözlər:** kommunikativ metod, ünsiyyət bacarığı, şifahi və yazılı nitq

## ПУТИ ФОРМИРОВАНИЯ НАВЫКОВ УСТНОЙ РЕЧИ НА ИНОСТРАННОМ ЯЗЫКЕ У ШКОЛЬНИКОВ

**РЕЗЮМЕ**

Реформы, проводимые в сфере образования, считают необходимым развивать обучение с активной подготовкой в соответствии с растущими запросами современной жизни. Обществу нужен образовательный результат, направленный на решение реальных проблем, а не просто существование прошлых знаний в информационном контексте. На уровне среднего образования необходимо с первых дней пробуждать интерес к изучению иностранного языка, воспитывать энтузиазм и любовь к языку. Таким образом, проблема развития у учащихся не только устной, но и письменной, правильной и красивой речи является одним из основных направлений, волнующих сегодня образование. Методика обучения иностранным языкам сегодня требует от школьников четкой и грамматически правильной речи, свободно и творчески выражать свои мысли устно и письменно, передавать свои эмоции с помощью различных интонационных средств, развивать коммуникативные навыки как активную деятельность.

**Ключевые слова:** коммуникативный метод, коммуникативные навыки, устная и письменная речь

## WAYS OF FORMİNG ORAL SPEECH HABİTS İN FOREİGN LANGUAGE İN SCHOOL STUDENTS

**ABSTRACT**

The reforms carried out in the field of education consider it necessary to develop learning with active preparation in accordance with the growing demands of modern life. The society needs an educational result aimed at solving real problems, and not just the existence of past knowledge in an informational context. At the level of secondary education, it is necessary from the first days to arouse interest in learning a foreign language, to cultivate enthusiasm and love for the language. Thus, the problem of developing students not only oral, but also written, correct and beautiful speech is one of the main areas of concern to education today. The methodology of teaching foreign languages today requires students to have a clear and grammatically correct speech, freely and creatively express their thoughts orally and in writing, convey their emotions using various intonational means, and develop communication skills as an active activity.

**Keywords:** communicative method, communication skills, oral and written speech

Hazırda Azərbaycanın dövlətçiliyi və beynəlxalq statusu dünyada möhkəmləndikcə, ölkəmizdə sosial-iqtisadi və mədəni sahələr inkişaf edir. İqtisadi inkişafın nəticəsi olaraq ölkəmizin qlobal proseslərə fəal şəkildə daxil olması onun dünya arenasında rəqabət qabiliyyətinin, istehsal və istehlak mədəniyyətinin yüksəldilməsini tələb edir. Həmçinin, təhsil sahəsində aparılan islahatlar müasir həyatın artan tələblərinə uyğun olaraq tədrisin fəal təlimlə inkişafını zəruri hesab edir. Cəmiyyətə təkcə informasiya kontekstində keçmiş biliklərin mövcudluğu deyil, real problemlərin həllinə yönəlmiş təhsil nəticəsi lazımdır. Tədris, təhsilin məqsədi kimi biliyi yalnız problemlərin həllində bir vasitə hesab edir. Cəmiyyətin real problemlərini həll etməyə qadir olan peşəkar kadrların hazırlanmasına olan tələblər təhsil sisteminin müasirləşdirilməsini qarşıya qoyur.

Orta təhsil səviyyəsində şagirdlərə ilk günlərdən xarici dilin öyrənilməsinə marağı oyatmaq, dilə həvəsi, məhəbbəti inkişaf etdirmək lazımdır. Azyaşlı şagirdlərdə təkcə dili şifahi deyil, həm də yazılı, düzgün və gözəl nitqin inkişaf etdirilməsi problemi bu gün təhsili düşündürən əsas sahələrdən biridir. Orta məktəb şagirdinə aydın və qrammatik cəhətdən düzgün danışmağı, öz fikirlərini şifahi və yazılı şəkildə sərbəst, yaradıcı ifadə etməyi, emosiyalarını müxtəlif intonasiya vasitələri ilə çatdırmağı, nitq mədəniyyətini müşahidə etməyi və ünsiyyət qabiliyyətini inkişaf etdirməyi müəllimdən təsirli yanaşma ilə mürəkkəb və əziyyətli bir fəaliyyət tələb edir.

Azyşlı şagirdlərin kifayət qədər böyük bir hissəsində şifahi və xüsusən də yazılı nitqin inkişaf səviyyəsi qeyri-kafidir. Obrazlı, parlaq, məntiqi qurulmuş nitq uşaqların intellektual səviyyəsinin əsas göstəricisidir. Uşağın nitqi nə qədər zəngin və düzgün olarsa, onun fikirlərini ifadə etməsi bir o qədər asan olar, reallığı bilmək imkanları nə qədər geniş olarsa, uşaqlar və böyüklərlə münasibəti bir o qədər mənalı və dolğun olar, onun zehni inkişafı bir o qədər fəal şəkildə baş verər. Buna görə də, azyaşlı şagirdlərin nitqinin inkişafı ilə bağlı iş gələcək tələbələrin uğurlu təhsili üçün vacib və zəruri şərtdir.

Şagirdlərin nitq fəaliyyətinin formalaşması probleminə xarici dillərin tədrisi prosesində həmişə çox diqqət yetirilmişdir. Hazırda məktəblilərin nitqindəki ümumi tendensiyalar müəyyən edilmiş, fənlərarası səviyyədə nitqin inkişafı ideyası əsaslandırılmış, nitq ünsiyyəti problemləri aşkar edilmişdir. Məktəblilərin dil səriştəsinin formalaşdırılmasının mümkün yolları müəyyən edilmişdir. Nitqin şifahi monoloji və dialoji formalarının təhlili tədqiqat işlərində geniş təqdim olunur. Belə ki, məktəblilərin şifahi və yazılı nitqinin formalaşmasının xüsusiyyətləri elmi-nəzəri ədəbiyyatların araşdırılmasında aşkar edilmişdir. Bu baxımdan müasir tələblərə cavab verən aktual problemlərdən biri də şifahi nitqin öyrənilməsi, şagirdlərdə nitq fəaliyyətinin inkişafı üçün müvafiq üsulların, forma və vasitələrin axtarışıdır[1].

Orta məktəb şagirdinin hazır bilikləri əldə etmə üsullarını mənimsəməsinin zərurəti xarici dildə şifahi nitqin öyrədilməsinə əsaslanan yanaşma vərdişlərinə uyğun olan inkişafdır. Hesab edirik ki, xarici dilin tədrisində şifahi nitqin formalaşması prosesinə idrak səriştəsinin inkişaf etdirilməsi yolu ilə nail olmaq olar. Şagirdlərin nitq və idrak səriştəsini formalaşdırmaq üçün xarici dildə şifahi nitqin tədrisi yolları tədqiqat nəticəsində müəyyənləşdirilmişdir. Belə ki, mövzunun aktuallığına aşağıda təqdim etdiyimiz amillərin təsir etdiyini əsaslandırırıq[1]:

- cəmiyyətin müasir inkişaf mərhələsinin orta təhsil səviyyəsində xarici dilə olan tələblərin yeniliyini dərk etmək;

• xarici dilin səriştə əsaslı yanaşma ilə tədrisi probleminin nəzəri məsələlərinin kifayət qədər işlənilməməsi;

• şagirdlərin nitq bacarıqlarının formalaşmasının aşağı səviyyədə olması ilə əlaqədar şifahi nitqin ibtidai mərhələdən probleminin öyrənilməsinin zəruriliyi;

• nitq və idrak səriştəsinin inkişafına yönəlmiş fəal tədris modelinin yaradılması üçün şifahi nitqin tədrisi prosesinin optimallaşdırılması yollarının tapılması zərurəti.

Xarici dilin tədrisində şifahi və yazılı nitq, eləcə də onların hər iki tərəfi ünsiyyət prosesində birgə fəaliyyət göstərir. Ünsiyyətdə dinləyən tərəf isə tez-tez yerini dəyişir. Ona görə də şifahi və yazılı nitqin öyrədilməsi qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda davam etməlidir. Belə ki, nitqdə zəif fəaliyyət başqa bir növün inkişafına mane olur. Tədqiqatlardan məlumdur ki, dil hadisələrinin üç cəhəti var: dil, nitq, nitq fəaliyyəti. Nitq fəaliyyətinin əsas növləri haqqında L.V.Şerba qeyd edir ki, nitq fəaliyyəti - dilin bir tərəfidir. O, dilin üç cəhətini ayırmağı təklif edir[8]:

✓ nitq, yəni danışma və anlama prosesi;
✓ dil, yəni linqvistik təlim;
✓ linqvistik material, yəni linqvistik təcrübə.

Nitq fəaliyyətinin növbəti izahı L. S. Viqotskinin, A. N. Leontiyevin və digər tədqiqatçıların əsərləri ilə əlaqələndirilir. XX əsrin 70-ci illərindən "əlaqə fəaliyyəti" anlayışı tədqiq olunur, kommunikativ nitq fəaliyyəti dar bir şərh alır, yəni motivi danışıqla əlaqəli bir fəaliyyət kimi izah edir[2;5]. Nitqin bu gün xarici dillərin tədrisində məqsədi şifahi ünsiyyətdə, münasibətlərin dəyişməsində bir fəaliyyət kimi çıxış etməsidir.

Şifahi ünsiyyət danışma və dinləmədən ibarətdir ki, bu da xarici dilin mənimsənməsində reseptiv bacarıqlardan biri olan dinləmə fəaliyyətinin inkişaf etdirilməsini tələb edir. Bu prosesdə eşitmə və dinləmə anlayışlarını başa düşmək vacibdir:

- Eşitmə - akustik qavrama, dinləmə, dinləməkdən əlavə, eşitməyi, yəni qavranılanın başa düşülməsini və məlumatın şərhini əhatə edir.
- Dinləmə müstəqil nitq növü kimi çıxış edə bilən fəaliyyətləri (məsələn,

hesabatlara, filmlərə qulaq asmaq) və ya qəbuledici komponent kimi ünsiyyətə girməyi, danışıq tərəflərindən biri olmaqla tətbiq edilir. Dinləmə nitqdən fərqli olaraq nitq fəaliyyətinin reseptiv növüdür. Onun öyrənilmə forması daxilidir, ifadə olunmur. Bununla belə, dinləyicinin ünsiyyətdəki münasibətə reaksiyası (gülüş, qeydlər, jestlər) dərhal təsir edir. Dinləmə nitq fəaliyyətinin reaktiv növüdür. Dinləmə birbaşa (dialoji ünsiyyət) və vasitəli, uzaq (radio, TV şouları) əlaqə yarada bilən fəaliyyətdir. Dinləmə nitq fəaliyyətinin çətin növüdür, çünki həqiqi ünsiyyətdə dinləmə prosesləri geri dönməzdir və təhlil üçün uyğun deyil. Yeni məlumat köhnə məlumatları əvəz edir, deyilənlər dönməz şəkildə yox olur. Çox vaxt eşitdiklərini düşünmək üçün kifayət qədər zaman yoxdur və buna görə də bəzən anlaşma əldə edilmir və ünsiyyət prosesi pozulur. Danışıq və ya ifadəli nitq - mürəkkəb, çoxşaxəli şifahi ünsiyyət prosesi olub dinləmə ilə kommunikativ əlaqəyə daxil olmadır [9].

Danışığın məzmunu fikirlərin şifahi formada ifadəsidir. Danışıq leksik, fonetik, qrammatik bacarıqlar əsasında qurulur. Kommunikativ metodla nitq bacarıqlarını inkişaf etdirmək eyni zamanda, bacarığın adekvat nitq şəraitində formalaşdığını başa düşməkdir. Şifahi nitqin quruluşu nitq fəaliyyətinin bir növüdür. Danışığın dinləmə və digər növlərlə

əlaqəsi nitq fəaliyyəti prosesində yaranır. Danışığın xarici quruluşu aşağıdakı hissələrdən ibarətdir[9]:

1. Motivasiya və həvəsləndirici: nəyə (lazımdır), nəyə görə (motiv, həmsöhbətin motivasiyası) və nə demək (məqsəd) üçün plan yaratmaq.

2. Analitik və sintetik: bu mərhələ, çıxışın niyyətinin həyata keçirilməsinin hazırlanmasıdır. Xarici dildə şagirdlərin şifahi nitqində sözlərin yaddaşda saxlanmasını (analiz) və onları nitqə tam (sintez) daxil etmək planını həyata keçirmək üçün seçmək lazımdır. Sözlərin yaddaşda saxlanması üçün onların paradiqmatik öyrənilməsi zəruridir və sintaqmatik əlaqələr, bu əlaqələr nə qədər çox olsa, sözün nitqə daxil ediləcəyi "hazırlığı"bir o qədər yüksəkdir. Paradiqmatik əlaqə xüsusiyyətləri müxtəlif sözləri müqayisə edərkən assosiasiyalar qəbul edir (yaxınlıq / əks məna ilə). Xüsusilə sintaqmatik əlaqələr danışıq, yəni sözlərin başqa sözlərlə birləşmə rolunu oynayır. Təhlil zamanı xarici dil vahidlərinin istifadəsinə (məsələn, mən gələ bilərəm, mən vəzifədəyəm ...) seçim hazırdır. Şifahi vasitələr xatırlama prosesini inkişaf etdirir. Bir cümləni xarici dilin öyrənilməsində sintez edərkən - tamamlayarkən, qurarkən, birləşdirərkən qrammatik quruluşda çətinliklərlə qarşılaşırsan (məsələn, şagird fikrində -mən şagirdəm ifadəsini düşünür. Lakin, ona demək lazımdır ki, biz şagirdlərik) [6].

3. Nəzarət və icra vəzifəsi mümkün çıxışların və nəzarətin quruluş səhvlərini düzəltməyə kömək edir. Belə nəzarət tələb edir ki, standart dil təcrübə nəticəsində formalaşsın.

Nitq fəaliyyətinin produktiv növü olan danışıq- nitq hissələri ilə nitqin quruluşunu təşkil edir. Danışıqla digər nitq fəaliyyətləri arasında(ilk növbədə dinləmə) sıx əlaqə vardır. Nitqin linqvistik və psixoloji tədqiqi fəaliyyətlərin şifahi və yazılı olduğunu göstərir, ünsiyyət formalarına xas bütün xüsusiyyətləri ilə deyil, ayrı-ayrı sistemlər, həmçinin reseptiv və produktiv nitq növlərinə bölündüyünü hesab edir. Məsələn, dinləmə və danışma bacarıqlarının xüsusiyyətinə müqayisəli diqqət etsək, onların əsasında mürəkkəb psixi fəaliyyətin xarakterizə olunduğunu qeyd etmək olar. Bu iki proses arasındakı əsas fərq onların yekun əlaqələri - danışma və dinləmək üçün məlumatların kodlaşdırılmasıdır. Kodlaşdırma prosesi dilin fonoloji sisteminə yiyələnməyi nəzərdə tutur. Danışmaqla gücləndirilməyən eşitmə, görüntüləri təhrif edə və akustik-artikulyasiya bacarıqlarını çətinləşdirə bilər. Şifahi ünsiyyətin iki formasının qısa müqayisəli təhlili təkcə dinləmənin danışma ilə sıx qarşılıqlı əlaqəsini göstərmir, həm də onların oxuma və yazma ilə üzvi əlaqəsi haqqında nəzəri fikirləri təsdiq edir. Yazı fiksasiyası məlumatı yadda saxlamaq və oxumaq üçün dil səslərinin şifahi nitq əsasında yaranmasıdır. Oxumaq hər ikisinin xüsusiyyətlərini özündə birləşdirən, sanki danışıqdan yazıya keçid formasıdır.

Hər bir nitq fəaliyyəti normal olaraq bir neçə analizatorun birgə işi ilə təmin edilir, lakin hər birinin funksiyası onlar arasında ciddi şəkildə diferensial olaraq qalır və əlaqə analizatorlar - dinamik, hərəkətli, dəyişən nitq ünsiyyətinin bir formasından digərinə keçid edir. Məsələn, eşitmə və nitq analizatorları arasında əlaqə mütləq deyil, ilk növbədə bir çox amillərdən asılıdır:

- ✓ zehni fəaliyyətin çətinlikləri,
- ✓ ünsiyyət formaları (şifahi və ya yazılı),
- ✓ mətnin dil çətinliyi,
- ✓ şagirdlərin ana və xarici dillərdə nitq təcrübəsi və s.

Şifahi nitqin formalaşmasında danışığın iki formasını, dialoji və monoloji nitqin xüsusiyyətlərini təqdim edə bilərik[4]:

- Monoloq bir şəxsin fikirlərinin, niyyətlərinin genişlənmiş forması, hadisələrin qiymətləndirilməsi və s. az və ya çox ifadə edən nitqdir.
- Dialoq dərhal olan nitq forması, iki və ya daha çox şəxs arasında ifadələrin mübadiləsidir.
- Dialoji nitqin tədrisinin əsasını dialoji vahidlər təşkil edir (mürəkkəb ifadələr, məzmun və formaca bir-biri ilə əlaqəli replikalar).
- Monoloji nitqin öyrədilməsi - mürəkkəb sintaktik formada nitq parçası, iki və ya daha çox cümlənin birləşdirilmiş semantik ardıcıllığı, mövzunun ümumiliyidir.

Dialoji və monoloji nitqlər arasındakı fərq şərtidir, çünki hər iki nitq forması dinləyicinin iştirakını təmin edir. Dialoji və monoloji nitq təbiətinə görə şifahi nitq ünsiyyətinə daxildir. Bir çox alimlər dialoqun ən çox şifahi nitqin təbii forması olduğuna inanırlar[4]. Buna görə də əksər hallarda onlar dialoji şifahi nitq növündən monoloji nitq növünün öyrədilməsi strategiyasını qəbul etmişlər. Şifahi nitq fəaliyyətinin leksik tərəfinin mənimsənilməsi məşqlərdə idiomatik lüğətin öyrədilməsi prosesində həyata keçirilir. Belə ki, nitq fəaliyyətinin əsasını təşkil edən nitq-təfəkkür hərəkətləri, nitqin leksik bacarığının formalaşmasının əsas mərhələləri (sözdən istifadə və söz əmələ gəlməsi) nəzərə alınmaqla aşağıdakı növ məşqlər toplusu və qruplar ardıcıllığıdır. Xarici dil nitqinin leksik tərəfini öyrətmək üçün məşqlər[3]:

1. Dil məşqləri:
- reseptiv xarakterli linqvistik məşqlər;
- praktik dil məşqləri;
- nəzəri və analitik xarakterli dil məşqləri;

2. Reseptiv və reproduktiv xarakterli şərti nitq məşqləri:
- verilmiş lüğətə əsaslanan kontekst-semantik məşqlər;
- mətn əsasında şərti nitq məşqləri;
- vizuallaşdırmaya əsaslanan şərti nitq məşqləri;
- oxşar situasiyaya əsaslanan şərti nitq məşqləri;
- reseptiv şərti nitq məşqləri.

3. Kommunikativ yönümlü nitq məşqləri:
- reseptiv nitq məşqləri;
- produktiv xarakterli nitq məşqləri.

Təklif olunan məşqlər toplusu eksperimental təlim zamanı sınaqdan keçirilmiş, nəticədə ona bəzi təkmilləşdirmələr edilmişdir. Kommunikativ ünsiyyət əlaqələri yaratmaq və nitq bacarığını formalaşdırmaq üçün müxtəlif şifahi-təfəkkür fəaliyyətləri birləşdirən linqvistik məşqlərin: seçim və istifadə, məna qurma və birləşdirmə və s.tətbiqi zəruridir. Bu məşqlər sözün təsviri ilə onun anlayışı arasında əlaqə yaratmaq mərhələsindən, mükəmməl nitqlə leksik əlaqələrin formalaşması mərhələsinə keçid etməyə imkan verir. Həmçinin, oxşar vəziyyətə əsaslanan şərti nitq məşqləri ünsiyyətdə produktiv xarici dil nitqinə keçiddə şagirdlərin öz ifadələrinin yaradılmasını asanlaşdırır. Şifahi nitqi formalaşdıran dioloji və monoloji nitq növlərinin hər birinin özünün xüsusiyyətləri var. Biz həm dialoji, həmdə monoloji nitqin müxtəlif linqvistik, psixoloji xarakterik xüsusiyyətlərinə elmi nöqteyinəzərdən baxa bilərik. Dialoji və monoloji nitqdə dil xüsusiyyətləri xüsusilə vacibdir. Dialoq

və monoloq təlimi materialın müxtəlif təşkilini və onunla işləmə üsullarını tələb edir. Bununla belə, pedaqoji təcrübədə, G.V.Roqovanın qeyd etdiyi kimi, ünsiyyət əlaqələrini təşkil edərkən tez-tez bu formaların qarışıqlığı olur[7].

Son zamanlar xarici dillərin tədrisi (məktəbdə) praktiki, kommunikativ və məqsədli, intensiv tətbiq olunur. Müşahidələr göstərir ki, bu yanaşmanın nəticəsi şagirdlərin şifahi nitqində çoxlu sayda səhvlər (leksik, qrammatik və fonetik) yaradır. Digər tərəfdən, xarici dilin tədrisinin təşkilində nitqin məqsədyönlü öyrənilməsi, həyata keçirilməsi üstünlük təşkil edir. Bununla belə, nitq mexanizmlərinin fəaliyyəti və linqvistik şüurun formalaşması ilə bağlı psixolinqvistik tədqiqatların nəticələri (N.İ.Jinkin, A.A.Leontiev, A.R.Luriya), eləcə də metodoloji tədqiqatların məlumatları (P.B. Qurviç, E.İ. Passov, S.F.Şatilov) və dilçilik elmi (O.S.Axmanova, V.V.Vinoqradov, M.D.Stepanova) xüsusilə daha elmi əsaslarla araşdırdığımız ədəbiyyatlarda öz təsdiqini tapır. Müasir tədris metodlarında, fikrimizcə, ilkin mərhələdə şifahi nitqin tədrisində autentik materialdan istifadə problemi kifayət qədər işıqlandırılmamışdır. Yerli dərsliklərdə orijinal materiallar bu nöqteyi-nəzərdən kifayət qədər nümayiş etdirilmir və onun üçün tapşırıqların məzmunu tədrisin əsasını təşkil edən sözlərin leksik-semantik və assosiativ əlaqələrinin müxtəlifliyini adekvat əks etdirmir. Dərsdə istifadə olunan xarici müəlliflərin dərsliklərində şagirdlərin hazırlıq səviyyəsinə və mövzusuna heç də həmişə uyğun gəlməyən çoxlu sayda mədəniyyət və ölkəşünaslıq mətnləri olur. Belə ki, monoloji nitqin xüsusiyyətlərinə və dialoji nitqə əsaslanaraq qeyd etmək olar ki, nitqin öyrədilməsinin məqsədi sosial cəhətdən müəyyən edilmiş şəraitdə şifahi nitq ünsiyyətini həyata keçirmək bacarığını inkişaf etdirməkdir. Xarici dildə şifahi nitq vərdişlərinin orta təhsil səviyyəsində formalaşdırılmasının linqvistik və psixoloji əsasları araşdırdığımız ədəbiyyatlarda öz həllini tapdı və şagirdlərin şifahi nitqinin formalaşdırılması bu nöqteyi-nəzərdən öyrənildi.

**ƏDƏBİYYAT**


1. Qəribova M. Ali məktəblərdə alman dilinin tədrisi metodikası. Dərs vəsaiti.Bakı: Mütərcim, 2022, 172 s.
2. Выготский Л.С. Мышление и речь. М.: Лабиринт, 1999, 352 с.
3. Гусейнзаде Г. Обучение речевой коммуникации на иностранном языке. Баку: Мутарджим, 2001, 314 с.
4. Исмаилова Д. Методика обучения диалогической речи современного английского языка на начальных курсах языковых вузов. Баку: Мутарджим, 2002, 210 с.
5. Леонтьев А.А. Язык и речевая деятельность в общей и педагогической психологии. М.: РАО/МПСИ, 2001, 127 с.
6. Пассов Е.И. Коммуникативное иноязычное образование: готовим к диалогу культур [Текст]: Пособие для учителей учреждений, обеспечивающих получение общего среднего образования / Е. И. Пассов; Мн.: Лексис, 2003, 184 с.
7. Рогова Г.В. Методика обучения иностранному языку на начальном этапе. М., 2000. Инновационные технологии в преподавании немецкого языка 181с.
8. Щерба, Л. В. Избранные работы по русскому языку Текст/ Л. В. Щерба. М.: Аспект Пресс, 2007, 259 с.
9. Hymes D. On Communicative Competence/ D. Hymes; in J.B.Pride and J.Holmes (eds.). New York: Harmondsworth: Penguin, 1972, 293p.

## INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Journal- Philology and Pedagogy" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

**Samples:**

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc*, Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference.”*Higher Twist Effects In Photon- Proton Collisions”, Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

# YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University" Filologiya və pedaqogika - əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və qrafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

**Nümunələr:**

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

# YAZIM KURALLARI

1. "Journal of Baku Engineering University- Filoloji ve Pedagoji" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Re-sim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

**Örnekler:**

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyük-lükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesa-fesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No'lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

# ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Филология и педагогика публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.
2. Статьи принимаются на английском языке.
3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес **(journal@beu.edu.az)**. Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.
5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.
6. В статье должны быть указаны коды UOT и PACS.
7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.
9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необхо-димо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы сим-позиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

   **Например:**

a) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Pala-tino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.
12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.